# Redaktor guşəsi

## YUXULARI YOZMAZLAR

Yaradıcı insanlar daha çox yuxu görürlər. Bunu hər hansı bir statistik göstəricidə axtarmaq lazım deyil. Çünki heç bir yerdə ölçən aparat quraşdırılmayıb və əhali arasında sorğu da keçirilməyib. Sadəcə bir riyazi aksiomadır, isbata ehtiyacı yoxdur. Axı yartadıcı adamların beyni daima düşünməyə, nə isə axtarıb tapmağa yönəlib, bunun üçün də işləməyə məcburdur. İnsan beyni isə bir az dinclik tapanda daha yaxşı düşünə bilir. Bu hal isə gecələr – fiziki bədən dincələndə - yatanda baş verir.

Yuxu yozumu ilə daha çox yuxuyozanlar məşğuldur. Cəmiyyətdə belə bir peşə olmadığından hər üç adamdan biri bununla məşğul olmağa çalışır. Odur ki, falçılar, baxıcılar, öncəgörənlər, münəccimlər, astroloqlar, ekstraseanslar durmadan artmaqdadır. Onların hamısı, demək olar ki, yuxu yozmağa başladıqdan sonra bu peşələrə yiyələniblər. Yuxu yozumu çoxlarının gözünü açıb, həyata baxışını dəyişib.

Dünyada ilk astrologiya Şumerlərdə yaranıb. Çoxları Yunan və Misir mifologiyasından bol-bol bəhs etsə də Şumer mifologiyası qədim olduğundan çox güman ki, hər iki mənbə ondan qaynaqlanıb. Şumer mifologiyası dəqiq elm üzərində qurulub. Bunun əyani sübutu kimi İran İslam Respublikasında çəkilən “Yusif” çoxseriyalı filmini misal göstərmək olar. Misirə gələn gələcəyin peyğəmbəri Yusif illərin ardıcıllığını sadalayır, hansı ildə bolluq, hansı ildə kasadlıq olacağını əvvəlcədən xəbər verir. Şumer mədəniyyətində bu belə göstərilib, hətta əfsanə də quraşdırılıb. Qoyun ilinə qədər inkişaf, tərəqqi olur. Sonra Meymun, Xoruz, İt, Qaban, Siçan illərində inkişaf zəifləyir. Bilirsiniz ki, Qaban qışda ağac və otların kökü ilə qidalanır. Yazda həmin ağacların quruduğu, otların məhv olduğu üzə çıxır. Hər yeri gəzib dolaşan Siçan zirzəmiyə gedir və orada insanın gizlətdiyi toxumluq buğda kisəsini tapır. Dişləri ilə kisəni yırtır, yediyini yeyir, yemədiyini də hər tərəfə səpələyir. Torpaqdan nəm çəkən buğda cücərir, böyüyür və məhsul verir.

Bunun yaradıcı insan beyni ilə nə əlaqəsi ola bilər?

2020-ci il Azərbaycanda bir çox sahələrdə dönüş ili oldu. Düzdür, müharibənin ağrı-acısından özümüzə gələ bilməmişik, insanlar hələ də şəhidlərin yasını saxlayır, yaralananlar, çox ciddi zədə alanlar normal həyat tərzinə qayıda bilmirlər. Belə bir məqamda yaradıcı insanların beyni dəyirman kimi işləməlidir. Məhz, Azərbaycan Sovet Ədəbiyyatı Birinci və İkinci dünya müharibələrindən sonrakı iyirmi ildə yüksək inkişaf yolu seçdi. Odur ki, yuxuları yozmağa ehtiyac yoxdur, gündüz düşüncələrin yekunu olan gecə yuxularını reallaşdırmaq, yazmaq-yaratmaq gərəkdir.

**Böyük hörmət və ehtiramla:**
**Əli BƏY AZƏRİ,**
**Baş redaktor**

**XƏZAN**
*Ədəbi-bədii jurnal*
C6, N6, 2021
dekabr, 2021

**Baş REDAKTOR:**
**Əli BƏY AZƏRİ**

**Buraxılışa MƏSUL:**
**Elvin İNTİQAMOĞLU**

**Redaksiya heyəti:**
*Şahməmməd Dağlaroğlu, Xaliq Azadi, Məhəmməd Əli, Nəcibə İlkin, Rəşid Bərgüşadlı, Hafiz Əlimərdanlı, Damət Salmanoğlu, Budaq Təhməz, Şiringül Musayeva, Ələsgər Talıboğlu, Vaqif Osmanov, Aynur Yasəmən Qarabağlı (Azərbaycan), Fəxrəddin Oruc Qəribsəs (Rusiya, Dərbənd)*

**Baş redaktorun MÜAVİNİ:**
**Ramiz İSMAYIL**

**Dizayn: Tünzalə VAHABOVA**

**Redaksiyanın ünvanı:**
*Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı*
**Əlaqə telefonları:** *(070) 575 03 99*
**Email ünvanı:** *xezan23@mail.ru, 5750399a@mail.ru*
**Çapa imzalanıb:** *15 dekabr 2021-ci il*

*Ədliyyə Nazirliyində 15 yanvar 2016-cı ildə qeydə alınmışdır: 5331*
*Jurnal aylıqdır.*
*Materiallar elektron variantında, yaxud diskdə və on dörd şriftlə printerdən çıxmış çap variantında (bir nömrə üçün) poeziya və publisistika beş, nəsr on səhifədən çox olmamaq şərtilə qəbul olunur.*
*JURNALI Azərbaycan Yazıçılar Birliyinin “Bayatı” və KİTABEVİM. AZ kitab mağazalarından əldə edə bilərsiniz.*



**VAQİF YUSİFLİ**
*filologiya elmləri doktoru,*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbi tənqid şöbəsinin müdiri*

# SADƏ, SƏMİMİ, TƏBİİ...

Azərbaycanın Cənub bölgəsinin Astara deyilən gözəl bir məkanı var. Elə bir məkan ki, dənizlə dağ, yamyaşıl meşələrlə ilin hər fəslində barını əsirgəməyən limonlu bağlar, göz oxşayan çöllər, zərif xalçalara bənzəyən çəmənlər və hər həyətin bəzəyi olan qızılgüllər bu gözəl diyarın təbii mənzərəsidir. Ancaq Astaranı sevdirən təkcə gözəl təbiəti deyil, həm də elə bu təbiətin özü qədər sadə və saf insanlarıdır. Son illərdə Astarada aparılan böyük quruculuq işləri onun gözəlliyini birə-beş artırıb. Bu gözəl məkanda şair olmamaq, şeirə, sənətə könül verməmək olarmı? Astarada maddi həyat - insanların qara torpaq üzərində bol nemətlər yaratmaq istəyi təbiidir, ancaq astaralıların mənəvi dünyası da zəngindir. Bu rayondan Azərbaycanda tanınan, elm, maarif və mədəniyyət sahəsində məşhur olan onlarla ziyalı yetişib. Mənə Astaranı sevdirən mərhum şair Əhəd Muxtar olub. Onunla Astarının kəndlərini gəzmişik, anasının mübarək üzünü görmüşəm, ağzı dualı bu ananın sinəsi bayatılar, laylalar oylağıydı. Hansı kənddəsə, yol qırağında bir bulaq vardı, bu bulağın suyundan od çıxırdı. O bulağı həmişə xatırlayıram və indi haqqında söz açacağım şairə Təbrizə Pünhanın şeirlərini oxuyanda da o odlu bulağı xatırladım. Şairlik də içərisi odla, atəşlə dolu bulaqlar deyilmi?

Təbrizə xanımın təxəllüsü Pünhandır. Mən deyə bilmərəm niyə bu təxəllüsü özünə seçib? Şeirlərini oxuyandan sonra gördüm ki, bu şeirlərdə gizlin, pünhan bir nöqtə yoxdur. Bəlkə ona görə seçib ki, ürəyinin gizlinlərini şeir dililə ifadə etsin.

Şeirlərindən aldığım təəssüratı qısaca ifadə etməyə çalışacağam.

Şeir, Şair və Söz haqqında yüzlərlə təriflər eşitmişik. Məncə, birinci Söz gəlir: «Bu xəlvət pərdəsini açan zaman əlbəəl, Söz oldu bu cahanda cilvələnən ilk gözəl». Allahın «Koq» («Ol») əmrilə kainat yarandı. Günəş, Ay, ulduzlar, Yer yarandı. İnsan Yerin, Torpağın yaradıcısı, qurucusu oldu. İnsanlar Yerin, torpağın əbədi sakinləri kimi yaşadılar, mübarizələr, müharibələr, münaqişələr başlandı. Dillər, dinlər, təriqətlər yarandı. Yalnız bir şey çatmırdı, İnsan onu da yaratdı, bu da şeir idi, nəğmə idi, mahnı idi. Onların da yaradıcısı insanlar oldu, o insanlara Şair dedilər. Şairlər sözlə

gözəllik yaratdılar, elə bir gözəllik ki, əsrlər boyu həyat, təbiət bu gözəlliyə təslim oldu.

Azərbaycan poeziyası min illərdir bu gözəlliyin keşiyindədir. Nizami, Füzuli, Nəsimi, Vaqif, Sabir, Səməd Vurğun, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Əli Kərim - onlarla ustadlar Azərbaycan şeirinin gözəlliyini, dilimizin saflığını, incəliyini dünyaya bəyan ediblər. Bu gün - XXI əsrin girəcəyində sözümüzün, dilimizin ölməz ənənələrini gələcək nəsil üçün yaşadanlar az deyil. Təkcə Bakıda, qaynar ədəbi mühitdə deyil, bölgələrdə də istedadlı şairlər yaşar və o şairlərdən biri də Təbrizə xanımdır.

Təbrizə Pünhan nədən yazır və necə yazır? Əlbəttə, əziz oxucu, bu bir cümlədə iki sual var. Şair üçün bütün mövzular doğmadır, ən başlıca mövzular – Vətən, Təbiət, Sevgi, İnsandır - şair ürəyinin hissləri, duyğuları bu dörd mövzuda dünyaya, həyatın gözəlliklərinə, tarixə, bu günə, gələcəyə, xəyallara, reallığa boylanar, adilikdə qeyri-adiliyi, görünən nəsnələrdə görünməyən mənaları işığa çıxarar. Amma necə? Şair Azadlıq haqqında söz deyir. Həm də bu şair anadır – sülhün, gözəlliyin daim var olmasını arzulayan ana.

***Göyləri heç bir zaman***
***Bölmərəm bölgələrə,***
***Bölmərəm ölkələrə.***
***Ayrı-ayrı dillərə,***
***Ayrı-ayrı dinlərə,***
***Allah birsə, dünya bir,***
***Sevgi birdir, ağrı bir,***
***Dünyanı bölmək nədir?***
***Azad yaşasın insan...***

İnsan və dünya haqqında düşüncələrə daha çox yer verir şeirlərində. Təbii ki, bir ananın - bir azərbaycanlı qadının narahatlığı, həyatda görmək istədiyi, lakin çox zaman görə bilmədiyi gözəlliklərdən ötrü nigarançılığı, dünyada baş verən müharibələrin, fitnə-fəsadların, qırğınların bir ana ürəyində qövr etməsi bu şeirlərdə öz əks-sədasını tapır. «Bəlkə də dünyanı səhv qurmuşuq biz» fikri yaranır. Amma sonra məlum bir fikri xatırladır: «Dünyanı gözəllik xilas edəcək»:

***Bir ümid işığı gəlir min ildir***
***Qaranlıq dünyanı yarıb keçəcək.***
***Bir körpə uşağı ürəkdən güldür,***
***Bütün silahları qırıb keçəcək.***
***Yol verək çiçəklər çıxsın yollara,***
***Tül pərdə düşməsin dağın üzündən.***
***Sağalar torpağa vurulmuş yara,***
***Dünya göz yaşını silər gözündən.***

Əlbəttə, dünyanın mürəkkəb olaylarından baş çıxarmaq müşküldür. Bir şair demişkən: dünyanı, əsri dərk etmək üçün bir başın içində min baş gərəkdi. Təbrizə xanımın şeirlərində də bir insanın ömrü boyu yaşadığı, müşahidə etdiyi və çox zaman məyus olduğu hadisələrin əks-sədası canlanır:

***Bu dünyada nələr gördüm,***
***Aslanları mələr gördüm.***
***Damcılanan zərif bir su***
***Neçə qaya dələr gördüm.***

***Hökmü böyük təbiətin,***
***Çiçəklərin rəngi min-min.***
***Xəzan vurmuş çiçəkləri***
***Açılmamış solan gördüm.***

***Qarayla ağ qoşa zolaq,***
***Dərəylə dağ olub calaq.***
***Yiyəsiz bağ qaysaq-qaysaq***
***Yad əllərə qalar gördüm.***

Təbrizə Pünhanın Azərbaycanı, Bakı, öz doğma Astarasını və təbiət gözəlliklərini vəsf edən şeirləri də var və bu şeirlərdə nikbin coşqu, inam, həyat eşqi öz

təcəssümünü tapır. Təbii ki, bu gün üçün ən önəmli bir mövzu - Qarabağ həsrəti də şeirlərində görünməkdədir. «Qarabağım» şeirində poeziya ilə publisistika birləşir. Həsrət, itirilmiş torpaqların ağrısı ilə qələbəyə inam bir-birini əvəz edir. Çağırış sədası ön plana keçir: «Qara keşiş hələ sağdır. O tilsimli köynəyinin Düyməsini birdəfəlik qırıb atın».

Əsasən hecada - doğma vəznimizdədir şeirləri. Sərbəst şeirləri də az deyil. Amma əsas odur ki, fikrin poetik ifadəsi hər iki vəzndə yazılan şeirlərdə nəzərə çarpsın. Qoşmalarının bir çoxu buna misal ola bilər. Qoşmada, müəyyən formal ölçü-biçi daxilində söz demək o qədər də asan deyil, Təbrizə Pünhan «bu düşvarı asan edə» bilir. Çox misal gətirmək olar, amma «Qızların» rədifli qoşma daha münasibdir. Şairə qızların-sevən, sevilən bu gözəllərin mənəvi dünyasını əks etdirməyə çalışıb və buna nail olub:

***Bir dəli sevdanın oduna düşər,***
***Müqəddəs hissləri coşar qızların.***
***Bəyaz gəlinliyi yadına düşər,***
***Sevinci gözündən daşar qızların.***

Sevgi şeirləri haqqında da səmimi söz açmaq olar. Ona görə səmimi ki, o şeirlərin içi yaşanılan, duyulan hisslərdir. Qondarma, saxta, süni hisslərdən yoğrulmayıb. Sevgini ilin fəsillərinə də bənzədirlər. Cavan şairlərin sevgisini bahara, yaşın otuzunu keçəndən sonra yaranan sevgiləri yay fəslinə, əllini keçəndən sonra isə payız sevıgisi gəlir. Təbrizə Pünhanın sevgi şeirləri payız sevgisinin yarpaqlarıdır, desək, səhv etmərik. O şeirlər misra-misra ürəyin ağacından qopur, ayrılır, xəzələ dönür. Amma ürəkdəki o ağac qurumur ki, qurumur.

***Tükənməyən dərdimizdən***
***Bəzən daralır gecələr.***
***Bəlkə alıb dərdi bizdən***
***Yanıb, qaralır gecələr.***

***Yar eşqinə yanan ürək,***
***Min bir yerdən sınan ürək,***
***Heyrətindən donan ürək,***
***Solub, saralır gecələr.***

Təbiətlə təmasda yazılan sevgi şeirləri daha uğurludur. Və bütün sevgi şeirlərinin içindən belə bir fikir keçir ki, sevgi müqəddəsdir, əsl insan-ideal insan - sevən insandır. İnsan sevgiyə dönük çıxmamalıdır, belə olarsa, o, özündən uzaqlaşmalı olur. Sevgisizlik yaşamaqmı? Yox! Bax, bu hissləri təbliğ edir Təbrizə xanım.

Biz də Təbrizə Pünhana bu həyat sevgisindən, poeziya sevgisindən, Vətəninə, dünyaya, ailəsinə olan sevgiləri şeirlərində yaşatmağı arzulayırıq!



# GÜLNARƏ CƏMALƏDDİN

***

Sarı yarpaqların cəsədinə and olsun,
And içirəm yağışa,
Quşlar qürbətə köçən gün
Ağlamışdım o ki var.
And olsun Günəşə,
Onda göy üzü boşdu
Hələ heç kəs doğulmamışdı.
And içirəm əcdadlarımın
Ruhuna,
Kim bilir
onlar da adam olduqları üçün
Neçə yol həyata uduzmuşdu.
And içirəm
göyərçinin qanadlarına,
Bir də müqəddəs qana bulaşmış ayaqlarına.
Qaranquşa balaca bir yuva qurmuşdum.
Yalvarmışdım Allaha
Nolar, Allahım,
O yuvanı uçurtma.
Deyəsən, Allah da duamı unutmuşdu.
And içmişdim,
cəfakeş qarışqaların sədaqətinə;
adam olacaqdım -
bir az başım ayrılığa qarışdı,
Bir az ölümə uduzdum.
Bilirəm gəlməyəcəksən heç vaxt
Gözləyirəm, amma,
And olsun
Çiçəkləyən iydə ağacına...

***

Mən yağışam,
yağmaq istəyirəm quraq torpaqlara.
gözünü yum,
hər şeyi unut, unut, balaca.
Oxu yalqızların türküsünü
bu gecədən,
bu küçədən
ötür məni, adam.
Sabaha sağ çıxa bilsəm,
Allah haqqı, sənə adam kimi söz verirəm:
ölümü də elə sənin kimi sevəcəyəm, balaca.
Mən yağışam,
silmə;
yanağından,
düşüb yerə sınsam,
gülmə;
əyilib götürmə.
Hansı ağacısa külək aşırsa,
məndən bilmə.
Mən yağışam,
nəğmə oxu, qızcığaz.
yağış
və bir də
güllələr
yağanda
kədərli olur
nəğmələr.
balaca uşaqları öldürəndə
ölüm də aciz our
çarəsiz olur, balaca.
oxu, nəğmə oxu
durmadan
ölümü aciz,
çarəsiz eləmə
eləmə, balacam...

***

Hardasa,
Hardasa lap uzaqlarda
Quşlari öldürürlər.

Hardasa
Azadlığın nəfəsi kəsilir
güllə səsiylə.
Uşaqlar kirli üzləriylə
Tanrıya gülümsəyirlər.
Hardasa
kədərli qatarlar keçir
uzaqlardan:
relslərində işgəncə,
zülm.
Hardasa
əsirlər düzülüb sıraya
növbəylə güllələnirlər.
Hardasa
güllələnmiş oyuncaqlar
için-için tüstüləyirlər.
Hardasa
uşaq təbəssümləri
bərəkət kimi çəkilib
göyə.
Hardasa,
hardasa
Allahın üzünü örtüb buludlar.
Hardasa
yağır
xısın-xısın yağışlar.
Eşidirsən,
deyəsən,
təklikdən
yorulub
Allahdı ağlayan...

***

Mənim adım ölümdü,
Sevəcəksən məni.
Darıxacaqsan,
bir gün həsrətlə
gözləyəcəksən məni.
Gec,
ya tez
salam, ölüm,
apar məni buralardan
uzaqlara
deyəcəksən.
Ayrılıqların olmadığı
yerlərə…
Mənim adım ölümdü.
Bir gün sevəcəksən məni
Ölümünə...

***

Necə də kədərli olur
Quşların köçü payız öncəsi.
Yanğını sönmüş bir orman kimi
Səssiz tüstüləyir yıxılmış ağaclar.
Ruhumda Bethoven melodiyası,
Canımda Əyyub peyğəmbərin ağrısı.
Çarmıxa çəkilir hər gün İsa Məsih
Məryəmin kədərli gözlərində.
Bu necə dünyadı,Tanrım,
Nə biz səni tanıyırıq,
nə sən bizi.
Amma bilirik hardasa buralardasan...
Çağırırıq, eşidirsən,
Amma cavab vermirsən.
Biz də günah eyləyəndə
yumuruq gözümüzü.
Elə bilirik
Nə sən bizi görürsən,
Nə biz səni.
Amma hardasa lap yaxındasan
hənirini duyuruq...
Xoşbəxtliyin sinonimi bədbəxtlikdi,
Xoşbəxtlik üçün doğulmur insanlar.
Sadəcə toxunmadan
Keçir dünyadan.
Hamı elə bilir yaşayır,
Amma hərdən ölümün acığına
Bir qədəh yaşamaq istəyir insan.
Əslində ölümün kölgəsində
daldalanır
Ölənə qədər adamlar...

***

Sən heç bir zaman
bilmədin, Mari
Məni bu qəfəsdəki
Quşlarin səssiz fəryadının
Qəhr etdiyini.
Azadlıq bir başqa dərd
Quşların qanadlarında.
Sən heç vaxt bilmədin
Mən bir daha
O məsum gülücüklərlə
Gülməyəcəyəm.
Çünki gülüşündən ölür insan
Öncə.
Camlara daş atan uşaqlar
İdik bir zaman
Cam qırıqları kimi səpilərdi
gülüşlərimiz yollara.
Mən daha əvvəlki kimi
Böyümək istəməyəcəyəm -
Bilirsən niyə?
Çünki, gülüşündən ölən uşaqların
Son fotosu durur içimdə.

Divarda saat vurur
Təqvimdə gün dəyişir.
Amma heç nə dəyişmir ruhumda.
Bir intihar kəndiri asılıb
Göy üzündəki
Masmavi azadlıqdan -
Yelləncək sanıb ağılsız uşaqlar
Yüyürür üstünə.
Üstünə mərmi düşmüş xaraba
Bir evdən yüksəlir bütün kədərli türkülər.
Bayraqlarin taxtasından asılıb
Kirli saçlarından qız uşaqları.
Mən bir də o cür gülməyəcəyəm, Mari
Çünki, ölümün soyuq gözlərində
Vuruldu gülüşlərim.
Və bir daha əvvəlki
Çiçəyi burnunda baharlar
Gəlməyəcək yer üzünə.
Daha heç kəs aldanmayacaq Tanrıların
Azadlıq nağılına...

***

Kitab haqqı,
Mən cənnətlik ola bilmədim, Tanrım.
Öncə sənə,
Sonra ağaca,
Adama,
Daşa,
Torpağa
Asi oldum.
Gözümü-könlümü tox saxladım,
Halından hali olmayanların
Halına ağladım.
Kitab haqqı,
Mən cənnətlik ola bilmədim, Tanrım.
Ruhumu qarışqalar,
Ağlımı quşlar apardı.
Əvvəlindən bir buğda dənəsinə satıldım.
Dünya dediyin cəhənnəmə atıldım.
Mən cənnətlik ola bilmədim, Tanrım.
Gücüm kəpənəyə çatdı,
Sözüm sənə çatmadı,
Ya da qəsdən
Özün eşitmədin məni.
Buğda boyda günahdan
Qoruya bilməmişdim deyə
Nə səni,
Nə özümü.
Hansı tərəfdəsən,
Yerini göstər
Bir işarətlə,
O tərəfə dönüb,
Ordan çağırım səni.
Kitab haqqı
Mən cənnətlik ola bilmədim,Tanrım,
Cəhənnəm də mənlik deyil.
De,
Hansı günahı işlədim yenidən?
Yer üzündən də
Başqa cəhənnəmə
Qov məni!

***

Boylanıb baxıram, baxıb bilirəm,
Səni bilməyənlər nə bilsin axı.
Səni tanıyanlar bilir dərdini,
Səni qınayanlar nə bilsin axı...

Boşuna dünyaya gəlmirsə adam,
Vaxtı çatmayınca ölmürsə adam;
Qarışqa yarada bilmirsə adam,
Sən nəyə qadirsən, nə bilsin axı...

Külək niyə əsir, quş hardan gəlir,
Su hardan tökülür, daş hardan gəlir;
Adamın başına iş hardan gəlir,
Səni bilməyənlər nə bilsin axı?!

***

Unutmaz,
uğrunda öləni.
Sıxıb sinəsində saxlayar
VƏTƏN!
Düşmənə göz dağı olsun deyə
Qaldırıb başının üstünə
Bayraq eyləyər
VƏTƏN!
Baxıb şəhid balasına,
baxıb şəhid anasına
sakitcə,
səssizcə
şəhid balasını ağlayar
VƏTƏN.
Bir başqa dadı var
bu Azadlıq zəhrimarın.
Bilənlər
uğrunda göz qırpmadan
ölümə gedər.
Gedər
Oğulların çiyni üstdə
Torpaq olar,
Vətən olar,
VƏTƏN!



## QULU AĞSƏS

***

Kimsən, nəçisən, ay Allah –
Heç səndən baş tapammadıq.
Özün qurduğun dünyada
Sənə bir iş tapammadıq.

Günün necə keçir barı,
Can verib can almağınan?..
Səni nəynən bəndə salaq,
Tutaq hansı qarmağnan?!

Görsək, heç nə eləmərik,
Bir üzünü göstər bizə!
Yaxşı günün əgər busa,
Yaman günü göstər bizə!..

Neyləsən, sevirəm səni,
Qulunam, gəl min boynuma!..
Bu şeiri də sən yazmısan,
Babalı mənim boynuma…

***

Görsən ki, qaranlıq çökür aləmə,
Görsən ki, axşamdı…fikir eləmə.
Bir uçuq yuxudu gecənin boyu
Nə qədər imkan var rahatlan, uyu…

Qəflətən bir çağa salar hay-həşir
Səhər – körpəsidi doğan Günəşin.
Onu ovutmağa tələsər hamı,
Beləcə, salarlar yenə axşamı.

Təzədən qaramat basar dünyanı,
Hanı doğan Günəş? körpəsi hanı?
… Görsən hər tərəfdən əlin üzülür,
Görsən üşüyürsən…yandır özünü…

***

Yazırsan: «Ölürəm…» Min şükür, alqış!
Nə yaxşı, sevgidən ölən hələ var.
Demə, kişidən də mələk olarmış,
Əzrayıl olanda axı nə olar...

Bilmirəm dünyanın xoşbəxti deyim,
Bilmirəm dünyanın bədbəxti sənə.
Düzü, istəmirəm xətrinə dəyim,
Cavab axtarıram nə vaxtdı sənə...

Kimsə ayağını qoymaz içəri –
Könlümün keşiyin balam çəkirsə.
Sevgi ötən gündür məndən ötəri,
Sən məni sevməklə dala çəkirsən.

Cavab məktubumda sözlər baş-ayaq,
Bir ucdan yazilir, pozulur elə.
Qorxuram öləsən sevgin yaşaya,
Qorxuram qalasan - məhəbbət ölə.

***

Canım-gözüm,şükür de ki,
Ölsən də başın üstdəki –
Pəmbə buluddu, daş deyil…

Sevməyi var, sancmağı var
Baxma hərdən uçmağı var –
Ürək yuvadı, quş deyil…

Neynəyərəm görən sənsiz?!
Ha istədim öləm sənsiz –
Baxdım ki, mənlik iş deyil…

Bu da mənim baxtımdandı,
Gözüm Tanrı taxtındadı –
Onun da yeri boş deyil…

***

Allaha baxmasaydım,
girməzdin yuxuma da!
Torpaq kimi soyuyur -
ən isti, yaxın adam...

Harda itib - batmısan,
hayına çağır gəlim.
Toyuna çağırmadın,
vayına çağır gəlim...

De, necə tapım səni,
nə mərdəm, nə ov iti.
Sənin izin, ünvanın
mənim axırım itib.

Bəlkə veriblər səni
Tanrının yaddaşına?
Mən sənə söz tapşırım,
sən də öz adaşına:

Nə olar, ayırmasın
de, ikimizdən məni!
Getdin?.. sənə yaxşı yol,
gəlməsən, gözlə məni...

***

Dilimdən düşmür bir ad
nöqtələr...
Tanrıdan gözəl cəllad
nöqtələr...
Dərdidi dərmanımın
nöqtələr...
Arasında qanımın
nöqtələr...
Yel vurduqca tökülür
nöqtələr...
«Göy» suala bükülü
nöqtələr...
Qələm-varaqdı, bir də
nöqtələr...
Göydə Allahdı, yerdə
nöqtələr...

***

Yorulub oturdum
varağın bir küncündə,
ürəyim it kimi ulayır
it kimi...
at gücündə.
Qışa bir taya şeir yığmışam
sözü misraya vura - vura.
Günəş - müqəvva görünsəydi
gecəni quş kimi qorxuzub uçura...
Düşünürəm:
Yaşamaq!
– dünyanın ən zor işi!
Yaşamaq!
– irəli qovaraq keçmişi!
Fəqət...
istəyirəm əcəl gələndə
qarşımda heç nə dayanmasın.
Məni elə çağırsın ki,
sevgilim yuxudan oyanmasın...

***

Yastıq qoyub başımıza
əcəb yatırdın bizi.
Aç gözünü, qaranlığın
Qırıb batırdı bizi.

Milyon illərdi yeyirik
Süfrənin qırağından.
Çörək bizi tutar deyin,
Dinmirik qabağından.

Nə boydasan görən heylə?
Bir ölçüyə gəlmirsən?
Baş çəkmirsən qullarına
Bizə niyə gəlmirsən?

…Özünü görməsək də,
Xofun yamandı, Allah!
Bizi qırıb qurtarmamış,
Ölmə, amandı, Allah...

***

Dağa bax...sən allah
nə gündədi
Ayağı ayağına dolaşan
beş-altı ağacdı
qozbel torpağı
balatası qaçmış kündədi…
Dili yoxdu
ildırım vuranda çığıra
pulu yoxdu
özünə lift çəkdirə,
dərəni qonaq çağıra…



NƏCİBƏ İLKİN

# NİŞANLI MƏZAR

(hekayə)

Adəti üzrə, məktəbdən çıxan kimi dayanacağa tərəf tələsdi. Yenə də fikirli idi. Çatılmış qaşlarının tən ortasındakı düyün üzünə çox ciddi bir görkəm verirdi. Kənardan baxanlar bu qızın çiynində ağır bir dərd yükü daşıdığını asanlıqla hiss edirdilər. Arxasınca qarabaqara gəzən Rəvan da onun çəkdiyi bu ağrı-acıdan çoxdan xəbərdar idi. Qonşu idilər Nərgizlə. Qibtə ediləsi ziyalı bir ailənin övladı olsa da, qonşu qızın həyatı, taleyi Rəvanı çox üzürdü. Bacarsa idi, Nərgizə yaxından kömək edər, onu uşaqlıq illərindən bəri içindən yeyən sıxıntılardan qurtarardı. Amma necə? Qıza yaxınlaşmağa belə cürəti çatmırdı. Qəribəsi də bu idi ki, məhəllədə müəyyən bayram günləri ilə əlaqədar keçirilən şənliklərdə Nərgizlə olub-keçənlərdən danışır, amma kənarda ona yaxınlaşmağa cürət etmirdi. Nə desin, nəyi bəhanə edib yaxınlaşsın? “Nərgiz, olar sizi məktəbdən evə qədər ötürüm? Ya da bu gün hava yaxşıdır, mən də institutdan tez çıxacağam. Bəlkə, dərsdən sonra bir az gəzək? Nərgiz, səndə maraqlı kitablar var? Məndə də kitablar çoxdur. Bəlkə, dəyişib növbə ilə oxuyaq, dünyada baş verənləri müzakirə edək?” Bütün bu suallarla hər gün özünü yorsa da, sonda yenə susur, təsəllisi qızı kənardan izləmək olurdu. Evdəkilər də onun hərəkətlərindəki dəyişikliyi hiss etmişdilər. Anası Məqbulə gülə-gülə dedi:

– Bax hələ, dəridən qabıqdan çıxdı bu uşaq. Gör pəncərədən necə pusur? Sərdar kişi açıq söz-söhbətləri sevmədiyi üçün onun sözlərini ciddi qarşılayıb təmkinlə cavab verdi:

– Burada pis heç nə görmürəm. Evlənən vaxtıdır: seçimini özü etsin. Nərgiz də yaxşı qızdır, gözümüzün qabağında böyüyüb zavallı. Mən Yaqubla danışaram, görüm bu işə necə baxır?

Rəvanın gözləri qarşı binanın pəncərəsindən çəkilmirdi. Duyurdu ki, Nərgiz də onun baxışlarındakı mənanı anlayır, amma nədənsə çox etinasızdır və bu etinasızlıq qorxudurdu onu. Ailədəki ciddi problemlərin Nərgizi kədər libasına bürüdüyünü də yaxşı bilirdi. Buna görə də etinasızlığı təbii sayır, nə vaxtsa onun qəlbinə yol tapacağına inanırdı.

Nərgiz həmişəki kimi dərslərini hazırlayandan sonra mətbəxə keçdi. Bulaşıq qab-qacaq onu gözləyirdi. Atası hələ gəlməmişdi, kiçik qardaşı və bacısı isə dərslə məşğul idilər. Anaları bu evi tərk edib getdiyi gündən ev işlərinin bütün ağırlığı Nərgizin üzərində idi. O, ev işləri ilə bərabər ailədəki ağrı-acının da bütün yükünü çiyninə almış, uşaqların üzülməsini istəməmişdi. Atası hər gün səhər evdən gedir, axşam qayıdırdı. Zeynəb evi tərk edib gedən gündən bəri Yaqub uşaqlarını korluq çəkməyə qoymasa da, onlara mənəvi dayaq ola bilmirdi. Onun fikrinə görə, əgər evdə soyuducu ağzına qədər dolu idisə, demək, hər şey qaydasında idi. Üst-başından gələn zərif qadın ətirlərinin qoxusu, köynəyindəki rəngli dodaq boyalarının izi Yaqubun “yaxşı həyat» sürməsindən xəbər verirdi. Nərgiz əvvəllər bunu qəbul edə bilmir, otağına çəkilib saatlarla ağlayırdı. Amma zaman keçdikcə hər şey dəyişdi, yaşından tez böyüdü, tez aqilləşdi: övladlarını ögey ana əlinə verməyən atası ilə təsəlli tapdı Nərgiz. O, yaxşı bilirdi ki, anası qayıtmayacaq və qayıtsa belə, yenidən ailənin bir üzvü kimi qəbul edilməyəcək. Anasının

ailəni niyə tərk etiyini, hara getdiyini atasından soruşmağa cəsarəti çatmırdı. Qonşu qadınların dediqodularına, anasının yad bir kişiyə qoşularaq evi tərk etməsinə inana bilmirdi. Hamı kimi o da anasını sevirdi, gözəl siması gözlərinin önündən bir an da olsa, çəkilmirdi. Gecələr əllərini ana kimi bacı-qardaşının saçlarına çəkərək qayğı göstərirdi, amma özünün sığal görməyən saçları da bu qayğıya möhtac idi. O başa düşürdü ki, gec-tez dünyasını dəyişən anaların yoxluğunu qəbul etmək çox çətindir, amma evini, uşaqlarını atıb-gedən ananın hərəkətini həzm etmək mümkün deyil. Məktəbdə ana haqqında şeirlər söylənəndə, inşa yazılanda baxışlarını gizlətməyə yer tapmır, xəcalət çəkir, anasının bağışlanmaz günahının əzabını yaşayır, hər gün ölüb-dirilirdi Nərgiz.

Uşaqlıqdan bəri çəkdiyi acılar beynində yükə çevrilirdi. Bəzən bu yük neçə dəqiqə davam edən güclü baş ağrılarına səbəb olur, əlləri ilə başını tutur, bu ağrıların keçib getməyini gözləyirdi. Şiddətli ağrılar keçəndən sonra dərindən nəfəs alırdı. Əvvəllər bu ağrılar beş-on dəqiqə davam edirdisə, getdikcə dəqiqələrin sayı çoxalır, onu daha kəskin ağrılar narahat edirdi. Amma Nərgiz nə vaxtsa anası ilə qovuşacağı günü gözləyir, bu ağrıların da keçib gedəcəyinə inanırdı.

– Salam Nərgiz, - nəhayət, Rəvan anası ilə söhbətdən sonra özündə güc tapıb ona yaxınlaşdı. Nərgiz dönüb baxsa da, üzündəki ifadə dəyişmədi. Dilucu salamı aldı. - Dediklərim əhvalını, bəlkə də, dəyişməyəcək. Amma istəyirəm, biləsən ki…

– Nə? Nəyi bilim? Məndən xoşun gəldiyini? Mənimlə əylənmək istədiyini? Mən heç kəsi bu fürsətdən istifadə etməyə qoymaram. Başa düşürsən? İmkan verməərəm. Axı anamın həyatının mənim həyatımla nə əlaqəsi? Ölüb! Ölüb o insan. Yoxdur. Bunu birdəfəlik anlayın, - Nərgiz özündən ixtiyarsız çığırdı. Rəvan söz tapa bilmədi, amma eşitdikləri ona cəsarət verdi:

– Sən nə danışırsan? Bu nə söhbətdi? Gözləməzdim səndən.

– Bu söhbətləri tələbə dostlarınla edərsən. Dərsə geçikirəm deyib Nərgiz yoluna davam etdi. Elə bu vaxt Rəvanın arxadan dediyi sözlər qulağında cingildədi:

– Anamla atam axşam sizə gələcəklər.

Axşam qapını döyən qonaqları Nərgiz hörmətlə qarşıladı. Bir azdan Yaqub da gəldi. Xeyli söhbətdən sonra qonşular mehribanlıqla sağollaşdılar. İndi Nərgiz atasının ona nə deyəcəyini gözləyirdi. Atası məsələni açarkən Nərgiz çəkinmədən dedi:

– Axı mən indi o halda deyiləm, ata. Həm də məktəbi bitirməmişəm. Bir az vaxt ver mənə, düşünməliyəm.

– Bu, təbiidir. Sən gec-tez ailə qurmalısan. Rəvan yaxşı oğlandır. Əminəm ki, sənin qayğına qalacaq deyib Yaqub yazıq görkəm aldı, nə qədər sevinsə də, gözlərindəki kədəri gizlədə bilmədi.

– Yaxşı, bir söz demirəm. Amma, o gəlsin, sonra... – Nərgiz sözünü bitirmədən ağladı.

– O gəlməyəcək. Gəlsə də, mən qəbul etməyəcəyəm. Bu qədər. Gecən xeyrə qalsın.

Nərgiz bilirdi ki, anası gəlməyəcək. Amma nədənsə onun geriyə - ailəyə dönəcəyi günü gözləyirdi. Otağına keçib pəncərəni açdı. Gözləri yenə də Rəvanın baxışları ilə toqquşdu. Dərhal pəncərəni bağlayıb pərdəni çəkdi və növbəti şiddətli ağrı ilə baş-başa qaldı. “Yox, belə olmaz. Atama ağrılarım barədə nə isə deməliyəm. Niyə? Axı niyə deyim? Bilsə, dərhal məni həkimə aparacaq. Mən isə istəmirəm, istəmirəm. Yaşamaq istəmirəm”,- pıçıldayaraq üzü üstə yatağa uzanıb ağladı. Son zəng tədbiri bitəndən bir neçə gün sonra Nərgizə nişan taxıldı. Qara buludlar bu nişan şamlarının şölələri ilə birgə ailənin başı üzərindən uzaqlaşdı. Qonşular ehtiramla hal-əhval tutdular, əvvəlki günlər tamamilə unuduldu. Qohumların da ayağı yenidən tanış evin kandarına dəydi. Toya hazırlaq gedir, ailə məsələləri müzakirə olunurdu. Nərgiz bu bir neçə gündə dəyişmiş, elə bil böyümüş, daha da gözəllşmişdi. Övladlarının acısını çəkən, hər gecə onların gələcək həyatı barədə narahat olub düşünən Yaqubun da qırışları açılmışdı. Rəvan tez-tez Nərgizlə birgə gəzintiyə çıxır, hər ikisi xoş anlar yaşayırdı. Rəvan onu ömrü boyu sevəcəyinə, anasız keçirdiyi o acı günləri unutduracağına söz vermişdi. Nərgizin ağrıları artanda isə Rəvan bunun yaxşı bir əlamət olmadığını duydu, qızın tez-tez özündən getməsini evdəkilərə danışdı. Söz-söhbət Yaquba da çatdı.

Nərgiz ciddi həkim nəzarəti altınla saxlanılmalı, müalicə olunmalı idi. Lakin bir səhər həkimin qoyduğu diaqnoz ailənin bütün xoşbəxtliyinə son qoydu. Sərdar həkim kövrələrək: – Vəziyyəti çox ağırdır, xəstənin ürəyinə xal salmayın. Qoy son günlərini xoşbəxt yaşasın barı,- dedi. Nərgizdən başqa hər kəs bu ağır xəstəliyin adını bilirdi. Rəvan özündən çox bu bəxtsiz sevgilisinə ağlayır, yanından bir an belə çəkilmir, onu ümidləndirirdi. Nərgiz isə nə danışır, nə də deyilən sözlərə reaksiya verirdi. Ancaq bir nöqtəyə baxb durur, onu dərdə salan insanı arzulayırdı. O bu arzu ilə də Rəvanın qolları arasında həyatını bitirdi. Toya hazırlaşan bütün qohumlar dəfndə iştirak etdi. Nərgizi gül-çiçək dəstələri ilə torpağın qoynuna gəlin köçürdülər. Rəvan uzun müddət özünə qapandı. Sevdiyi insanın yoxluğunu qəbul edə bilmədi. Onun istəyi ilə Nərgizin qara mərmərdən olan baş daşına “Nişanlı məzar. Nişanlısı Rəvandan əbədi xatirə” sözləri həkk edildi. O, tez-tez gəlib məzarı ziyarət edir, göz yaşı axıdaraq təskinlik tapırdı. Doğmaları gələndə elə bil mərmərdən boylanan şəkil də gülümsəyirdi.



# ELVİN İNTİQAMOĞLU

## MÜHARİBƏ OLMASIN

Olmasın müharibələr:
Şəhidlər xiyabanında
havaya yaylım atəşi
açılmasın...

Analar diz döyə-döyə
cansız oğullar gətirən
cənazənin qabağına
dizi üstə yıxılmasın.

Atalar ah çəkə-çəkə
Vətən sağ olsun deyərək
üçrəngli, aylı-ulduzlu
bayraqlara sarılmasın.

Kitablara, heykəllərə,
bulaqlara, başdaşına
«Filankəs filan tarixdə
filan şəhərin uğrunda
Şəhid olub» yazılmasın.

Allahın qapısından da
Siz Allah, at nalı asın -
Əsgərlərin boğazından
Boş gilizlər asılmasın.

Olmasın müharibələr:
Göyərçinin qanadları
qırılmasın...

## GƏLƏN GÖRÜŞLƏRƏDƏK

Eh... Yenə də görüşə
Gözüyaşlı gəlmisən -
Dərdini yolda qoy, gəl
Gələn görüşlərə tək...

Mən səbirsiz biriyəm,
Sən unutqan birisən -
Birdən yadından çıxar,
Saatın əqrəblərin
Gələn görüşlərə çək...

Gözüyaşlı qız, sağ ol,
Qalaram yalqız, sağ ol -
Sağ ol, vəfasız, sağ ol,
Gələn görüşlərədək...

## XOŞ BƏXT

Bəd bəxtlər yazan xoş bəxtə çatmayıb,
Nəzərində xoşbəxt adam tutmayıb -
Xoşbəxtlik evdən çıxıb qayıtmayıb:
Axtarırıq hər tərəfi,
tapılmır...

Bəxtimin üstünə atın qərənfil,
Ölümü qismətdi, cinayət deyil -
Lənətləyib kimsə məni elə bil:
Bəxtimin bəxti bağlanıb,
açılmır...

Qolumda qandal var, ürəyimdə yar,
Gözlərim kor olur, qulaqlarım kar,
Bircə ayağımın göz yaddaşı var:
Daşları üzdən tanıyır,
yıxılmır...

Məğlub ayrılmışam mübarizədən,
Çarxı fırla, təzə şans ver bizə də -
Fələk, götür zəri, başla təzədən:
Bayaq bəxtim gətirmədi,
sayılmır...



## TƏRANƏ DƏMİR

### BİR PAYIZ DA SƏN GÖZLƏ

Yorğan kimi ayrılığa büründüm,
Günüm aya, ayım ilə qarışdı.
Siqareti tüstülətdin o başda,
Mənim könlüm bu tərəfdə alışdı.

Ümidlərim xırdalandı, bölündü,
Arzularım tikə-tikə oldular.
Gəlinciyə paltar tikən uşaqlar
Böyüdülər, məndən yekə oldular.

Nə sən gəldin, nə də gəldi sorağın,
Payız yedi saçlarımın rəngini.
Bütün qızlar sevdiyinə qovuşdu –
Gözəlləri, məndən pisi, çirkini.

Bir mən oldum həsrətində qocalan,
Bir mən oldum baharına qış düşən –
Qırış-qırış əllərindən utanan,
Qismətinə özü boyda daş düşən.

İndi sənə ağır olub gözləmək,
Ayrılığı gözləməyi dad indi.
Mənim bahar ətirimin yerinə,
Siqaretin tüstüsünə bat indi.

Yağış yudu qarasını saçımın,
Külək qopdu, çətirimi apardı.
Hünərin var bir payız da sən gözlə,
Bir siqarlıq gözləməyə nə vardı?

### PAYIZ QADIN

Ürəyi yaz həvəsli,
Saçları payız qadın.
Bəxti ana möhürlü,
Arzuları qız qadın...
Daşdan, kəsəkdən keçən
Qismət düşdü payına.
Tənhalığa tay oldu,
Tay olmadı tayına.

Yerdən, göydən qovuldu,
Suda batdı qisməti.
Min yerindən ovuldu,
Öz bəxtindən küsmədi.

Vurdular dağa, daşa,
İsmətini qorudu.
Şükür deyib Tanrıya
Qismətini qorudu.

Qəlbini qıfılladı,
Bağlandı ev-eşiyə.
Nökər oldu, qul oldu
Ər bildiyi kişiyə.

Ürəyi yaz həvəsli,
Saçları payız qadın.
Bəxti ana möhürlü,
Arzuları qız qadın...

### XOŞ GƏLMİSƏN HƏSRƏTİMƏ

Xəzanına qarışdığım,
Təkliyimlə barışdığım –
Gözəl payız, xoş gəlmisən həsrətimə:
Buludunu çək üstümə,
Göz yaşını damcı-damcı tök üstümə;
Qoy yuyunsun xatirələr yaddaşımda,
Batım qalım göz yaşında...
Küləklərin yorsun məni,
Dağa, daşa vursun məni.
Töküm bütün həsrətimi,
Dodaq gülsün, söz darıxsın;
Qollarımın arasında
Bir qucaqlıq döz darıxsın;

Əynimdə nimdaş paltarım,
Paltarda bir qız darıxsın...
Gözəl payız, xəzanında uyut məni –
Bir baharın eşqi ilə təsəlli ver,
Ovut məni...

## PAYIZ AĞLAYIR

Bu yerləri payız basıb
Dumanıyla, çiskiniylə.
Solub bahar yarpaqları,
Yer süpürür ətəyilə.

Hələ atdan təzə düşüb,
Hələ baharla savaşır.
Bulud Günəşlə əlləşir,
Göy ilə, yerlə savaşır.

Yellər açıb qapısını,
Yol göstərir qonağına.
Yığışdırıb xəzəlləri
Qovub qatır qabağına.

Üşüyür, bahar, üşüyür,
Özünə bürünüb yatır.
Yarpaqları dağda, daşda
Sürünüb, sürünüb yatır.

Bulud tökür qaramatın,
Payız üstünə ağlayır.
Torpaq baxıb üzündəki
Törə-tökünə ağlayır.

Darıxır dağlar, dərələr,
Darıxır, könlüm darıxır.
Hardasa ömür doğulur,
Hardasa ölüm darıxır...

## AĞSAÇLI PAYIZ QIZ

Aynadakı bu ağsaçlı payız qız
Bir az mənim gəncliyimə oxşayır.
Yaş üstünə yaş gəlsə də xəbərsiz,
Hələ ruhu baharını yaşayır...

Gözlərinin qarası da mənim ki,
Baxıb-baxıb əl eləyir payıza.
Yanağında xırda-xırda cığır var,
Amma hələ çox bənzəyir bu qıza...

Payız qızın duyğuları gəncdi, gənc,
Nəğmələri hələ eşqdən oxuyur.
Saçlarından payız ətri gəlsə də,
Nəfəsindən hələ bahar qoxuyur...

Vaxt olacaq o aynadan üzümə
Bir şaxtalı, sazaqlı qış baxacaq.
...Deyirəm e, bəlkə qışa keçmədi,
Mənimki də heç sözdümü, sən Allah...

## PAYIZ ÖMRÜ

Əynim, başım üşüyür,
Çöldə, ayazda qalıb.
Mənim yaşıl köynəyim
Bir çiçək qızda qalıb.

Elə gözəl gülümsə,
Payızıma od düşsün.
Sənin gülüşlərindən
Dodağıma çat düşsün.

Al əlimi ovcuna,
Bəlkə, bir az isindi.
Tökül payız ömrümə,
Bircə ovuc bəsimdi.

## MƏN TƏLƏSDİM

Mən tələsdim, sən gecikdin,
Ayrı saldı bizi yollar.
Hərəmiz bir hava çaldıq,
Məndə payız, səndə bahar.

Burda payız küləkləri,
Orda bahar yeli əsdi.
Neynədik, çata bilmədik,
O yubandı, bu tələsdi.

Bir azca aralı düşdük,
Bircə fəsil, bircə bahar.
Sən tələssən, yorularsan,
Mən qayıtsam, ayıb olar...

## PAYIZ YAĞIŞI

Bir payız yağışında
İkimiz bir çətirdə
Düşək yolun ağına;
Sonra da külək qopsun,
Alsın çətiri bizdən
Tullasın qabağına...

Qatıb qovsun çətiri,
Qovub yorsun çətiri,
Biz də dalınca qaçaq;
Beləcə bu yağışda
İslanaq təpə-dırnaq...

Bir də baxıb görək ki,
Hardansa Günəş baxır;
Tut əlini ağzına,
Səslə, Günəşi çağır...
...Nə gözəl danışıram:
Yaxşı nağıldı, nağıl...

## MƏNİ BAĞIŞLA

Sən elə zamanda döydün qapımı,
Mən sənə xoş gəldin deyə bilmədim.
Töküldün ömrümün payız yaşına,
Payızı bahara qıya bilmədim...

Bağışla, qapıdan qovdum baharı,
Almadım içəri, məni bağışla.
Alsaydım, xəzanım viran edərdi
Qönçə ləçəkləri, məni bağışla.

Bahar arzuların, yaz məhəbbətin
Saçımın ağında itib batardı.
Hardan əl uzatsan duyğularıma,
Gəlib əllərindən payız tutardı.

Düşərdin əlimin qırışlarına,
İllərin qabarı boğardı səni.
Dustağı olardın barmaqlarımın,
Qəfəs ovuclarım sıxardı səni.

Sən elə zamanda döydün qapımı,
Mən sənə xoş gəldin deyə bilmədim.
Töküldün ömrümün payız yaşına,
Payızı bahara qıya bilmədim...

## ZAMAN BÖLGÜSÜ

Sən hələ baharda açan qönçəsən,
Mənimsə baharım yorulub daha.
Keçirəm yavaşca üzü payıza,
Ümidim bahardan qırılıb daha...

Sənmi gecikmisən, ya mən tələsdim,
Yollar görüşdürə bilmədi bizi.
İndi bu zamanı necə bölək ki,
Bir yerə toplanıb çıxa bilməsin?

Sənin saçlarında gizlənib bahar,
Mənim saçlarıma payız tökülüb.
Sənin gözlərində yaz yuxusu var,
Mənimsə gözümdən yuxu çəkilib...

Mənim dodaqlarım suya təşnədi,
Sənin dodağında çiçək açılıb.
Sənin dodağında həyat başlayır,
Mənim dodağımdan ölü asılıb...

## PAYIZ ÇAĞI

Dünyanın payız çağıdı,
Bir az soyuq, bir az həlim...
Saçlarına payız qonub,
Dünya adlı bu gözəlin.

Havalıdır küləkləri,
Yolur, tökür ləçəkləri...
Solan payız çiçəkləri
Bir az küskün, bir az dəli.

Hər yer payız ətirlidir,
Buludlarla çətirlidir...
Hörmətlidir, xətirlidir
Sarı saçlı, sarı gəlin.

Bir az həsrət qoxuludu,
Bir az yorğun, yuxuludu...
Eşq, məhəbbət nağılıdı
Payızında sevənlərin.

## PAYIZ ADAM

Aç qapını, gəlmişəm
Bir qucaqlıq baharla.
Xəzanına qarışdır,
Sonra qapını bağla.

Qapının o üzündə
Təzədən nağıl yazaq.
Nağılların içində
Yolu, bərəni azaq.

Açaq pəncərələri
Payız çıxsın eşiyə.
Süpürək xəzəlləri,
Yığaq küncə, köşəyə.

Gəlmişəm xəzanına
Bir azca bahar qatam.
Hələ gecə keçməyib,
Aç gəlim, payız adam...



ELVİN RİZVANGİL

# TABUT NÖVBƏSİ

(hekayə)

Yeddi yaşımı yenicə qeyd etmişdik. Bir gün atam işdən kefsiz halda gəldi. Anam səbəbini soruşdu, demədi. Anam masanın üstünə boşqabları düzə-düzə bir də soruşdu:

– İlqar, sən canı, nə olub? Niyə bikefsən? Əgər işə görə narahatsansa, fikir eləmə, ali təhsilli mühəndissən. Əlin də ki, maşallah, qızıl... Əlindən gəlməyən bir iş yoxdur. Allah böyükdür, kim ac qalıb?! Hamının süfrəsinə qoyub övnəsini savmağa bir tikə çörəyi var. İş tapa bilməsən də, maşının var. Elə burda taksi dayansan, dolanışığımız çıxar. Mən də işləyirəm.Vallah, fikir eləmə, ölkəmiz çətin sınaqlardan keçir.

Bir neçə gün öncə atam demişdi ki, işlədikləri idarə bağlanır. İdarə əməkdaşlıq etdiyi İtiffaq ölkələrin müstəqillik qazanmasından sonra bu respublikalarla yeni sazişlər bağlamamış, yeni iş olmadığı üçün bir müddətlik fəaliyyətini dayandırmaq, işçiləri qeyri-müəyyən vaxta qədər öz hesabına məzuniyyətə buraxmaq qərarına gəlmişdi. Atam bir siqaret yandırıb gözləri dolmuş halda:

– İsmətgili vurublar.

– Necə yəni vurublar? Dünən vertolyotla Ermənistana uçmayıblar?

– Vertalyotu vurublar, hamısı şəhid olub.

Evimizə ani bir sükut çökdü. Əlbəttə, mən onda söhbətin kimdən getdiyini bilmirdim. Çox sonralar öyrəndim ki, söhbət İsmət Qayıbov, Zülfü Hacıyev, Alı Mustafayev, Məhəmməd Əsədov və vertolyotda uçan digər siyasi və ictimai xadimlərdən gedirdi.

Bu hadisədən bir həftə sonra atamı müharibəyə apardılar. Atam maşınını satıb pulunu anama vermişdi ki, korluq çəkməyək.

Artıq atamın müharibəyə getməyindən xeyli vaxt keçmişdi. Məhəlləmizdə on iki fin evi var idi. Bu küçədən an azı on iki nəfər müharibəyə getmişdi.

Müharibə, məncə, ən çox uşaqlara zərbə vurur. Atası döyüşən uşaq ömrünün ən gözəl illərini atasız keçirir. Hələ atanın geri qayıtmamağı və yaxşı halda şikəst qayıtmağı... Güllə yarası almasa belə, aldığı psixoloji zərbələr, keçirdiyi sarsıntılar bu uşaqları

ata nəvazişindən məhrum edir.

Müharibəyə gedən atalarımız qayıdırdı artıq. Ancaq bayrağa bükülü taxta qutuda.

Artıq hər kəs alışmışdı: küçəyə hərbi maşın daxil olanda hamı qapısının ağzına çıxır, cəhbədən gələn «sovqat»ı qarşılayırdılar. Çörək növbəsinə bir növbə də əlavə olunmuşdu tabut növbəsi. Sanki bu insanlar öz növbələrini bilirdilər: Bu gün tabut növbəsi Sevil xalagilin idi, ancaq cəhbədən sovqat Əsmər xalagilə gəldi. Eldar əmi Əkbər əminin növbəsinə girmişdi.

Heç yadımdan çıxmaz: bir gün məhəlləmizə hərbi maşın girəndə yenə hamı qapısının ağzına çıxdı, «güllə püşkü»nün kimin bəxtinə düşdüyünü səbirsizliklə gözləyirdilər. Şükufə arvadgilin darvazasının ağzından keçib o biri evin qapısına çatanda heç kim görməsin deyə qoynunda cəmləşdirdiyi əllərini azca qaldırıb şükür etdi. Həmin gün «püşk» Səlim əmiyə düşmüşdü. Şər qarışırdı, sanki Allah pərdəni bağlayıb bugünki seansı bitirirdi. Ancaq bizim küçə üçün seans davam edirdi. Hətta, yeni başlamışdı desəm, yalan olmaz. Maşın Səlim əmigilin qapısının ağzında dayandı. Maşından bir hərbi geyimli kişi düşdü. Səlim əminin qızı «Ata... ata...» deyib kişinin üstünə qaçdı. Bəlkə dünya kino sənətində hələ elə bir səhnə çəkilməyib. Hamının qanı donmuşdu. Qız kişiyə çatanda ayaq saxladı, durub kişinin üzünə baxdı. «Atam hanı?» soruşdu. Ağlaşma, vay-şüvən qopdu. Leyla hələ də «Əmi, atam hanı? Niyə düşmür maşından?» deyib qışqırırdı. Hamı ağlayırdı... Səlim əmiyə deyil, qızı Leylaya... Kişi əlinin dalı ilə gözünün yaşını silib, Səlim əminin qardaşına işarə etdi ki, qızı buradan uzaqlaşdırsınlar. Tabutu düşürdülər.

Məhəllə qadınları cəhbədən «sovqatlar»ını gətirən bu çaparlara yüngül qəlyanaltı hazırladılar. Evə dəvət etsələr də, qəbul etmədilər.

Əmin-amanlıq vaxtı məhəllənin kişilərinin asuda vaxtlarında nərd, domino oynamaq üçün düzəltdikləri bisetkada əyləşdilər. Mən də yanlarına getdim. Birdən cavan zabit üzünü bayaqdan siqareti-siqaretin közünə calayan, qismən yaşlı zabitə çevirib:

– Komandir, bilirsən mənə təsir edən nədir?

– Hər dəfə şəhid dostlarımızın nəşini evlərinə gətirəndə ata-anasının gözündəki «Niyə sən yox, mənim oğlum...?», bacısının gözündə «Niyə sən deyil, mənim qardaşım...?», yoldaşının gözündə «Niyə sənin arvadın yox, mən dul qaldım...?», uşaqlarının gözündə «Niyə sənin uşaqların yox, mən yetim qaldım...?» – suallardır. Öz atamın, anamın, arvadımın, uşağımın üzünə baxa bilmirəm. Lənətə gəlsin bu müharibə. O qız məni atası bildi, üstümə qaçdı. Sonra məndən atasını istədi. Mən onun atasını gətirmişdim. Ancaq tabutda...

Bu məhəlləyə cəmi üç nəfər qayıtdı cəhbədən. Ənvərin atasının sol ayağı, mənim atamın sağ ayağı, Şükufə arvadın oğlu Qəzənfərin isə bir gözü yox idi...



## AYSEL FİKRƏT

### GÜNAH

Dərdin dibinə düşəndə,
Yusuf oluruq.
Quyunun
Günəş axan yerindən,
bizə doğmalar boylanır.
Sonra atıb gedirlər.
Dərd bizi boğanda,
Yunus oluruq.
Öz istəyimizin qəsdinə,
Doluşub bir yekə balığın qarnına,
boğuluruq,
Bu sıx dünyanın içində,
Dərd bizi bişirəndə,
İbrahim oluruq odun içinə atılan.
Dərdin dibini,Sıxıntısını,odunu çəkib,
geri dönürüksə özümüzə,
Bunu bacardıqsa,
Peyğəmbər oluruq,
Sonra ucalıb,
ucalıb göydən baxırıq dünyaya,
çəkisizlik var ruhumuzda.
Allah....olmaq istəyirik.
Allah keç günahimizdan.

### "HƏYAT BİLGİSİ" DƏRSİ

Balıqlar quşlara vurulmaz, balam,
Quşlar qanadlanıb uçarlar deyə.
Balıqlar quşlara vurulmaz, balam,
Əvvəldən yad olub, dənizlər göyə.

Quşların qanadı qırılsa əgər,
Balıqlar üzməyi bacarmasalar.
Bir gün yad suların sahillərində,
Bilmədən göz-gözə, gəlib dursalar.

Nə çıxar, bu səssiz, lal sevgilərdən,
Sular da bulanar, göylər də solar.
Dünyanın rəngləri dəyişər birdən,
Balıqlar sevgidən bəlkə boğular.

Sən bu sınıq qanad quşçığazı at,
Sən bu üzəbilməz balığı unut.
Sən düş öz yolunun izinə, balam,
Daha ürəyində başqa arzu tut.

### ŞƏKİL

Gəlin şəkil çəkdirək,
Gözəl düşək şəkildə.
Qəm yağan gözlərimiz,
gülümsəsin şəkildən.

İllər ötüb gedəndə,
şəkillər yola düşür.
hər il ömür payımız,
bir şəkil ola, düşür.

Soluxan ömrümüzün,
Şəkillərmiş bəzəyi.
Evin dörd bir tərəfi,
şəkillərlə bəzənib.

Adam-adam itirlər,
yanimizda duranlar.
Tələsirlər, gedirlər,
başqa şəkil olmağa.

Kim şəkildə qalır ki,
hamı qocalır gedir.
gedir bir soyuq daşda,
baxan şəkil olmağa.



## NAMİQ DƏLİDAĞLI

### XATİRƏ VƏ NİFRƏT

...xatirələrim
bağımızdakı
alma ağaclarının
budaqlarından,
alça ağaclarının çiçəklərində
asılı qaldı.
Bir də atamın məzarına
qısılı qaldı.
Bir gün geri dönəcəm
xatirələrimi yığmaq üçün-
alma ağaclarının
budaqlarından,
alça ağaclarının
çiçəklərindən.
Ancaq atamın məzarından
xatirələrimi götürməyə
üzüm qalmayıb.
Bilirəm ki, atam
xatirələri nifrətə çevirib
tüpürəcək üzümə...

### ÖLMƏKDƏN QORXMURAM

Məndən bezdi arzularım da...
Taleyimin acığına neçə arzum
intihar elədi ümidsizlikdən.
Ümidlərim ağ bayraq qaldırdı
qayğılarıma təslim olmağa.
Şirin-şirin diləklərim
boğuldu göz yaşlarımda,
dənizdə dalğalar boğulan kimi.
Mən daha ölməkdən qorxmuram,
yaşamaqdan qorxuram...

### AĞRI

Bu gecə duz basdım
Təbriz ağrıma,
Dərbənd dərdimə,
Zəngəzur həsrətimə,
Borçalı göynərtimə,
Qarabağ yarama…
Cızdağım çıxanacan
yanım deyə…
Yuxum ərşə çəkilsin deyə….
Şərti ad qoydum onlara:
ürəyimə Təbriz,
sinəmə Dərbənd,
bir gözümə Zəngəzur,
birinə Borçalı,
dilimə Qarabağ…
Hərəsi öz dilində ağladi məni….
duz basdığım yaralarım….
Of, canım göynəyir….

### AĞ GECƏNİN NAĞILI

Ağ dəvələr ağ gecədə
ağ yollarla yön almışdı üzü Qərbə.
Ağ yuxular, ağ arzular
çin olmuşdu bu ağ gecə.
Bir ağ karvan yol gedirdi
ağ günlərin işığına.
...Ağ ümidlər, ağ gümanlar
ağ dağlara aparırdı ağ karvanı.
Bu gecənin ağ həsrəti,
ağ hicranı əriyəcək.
Ağ vüsala qovuşacaq

bu ağ karvan.
...Bu bir ağ nağılıydı,
bu nağılda ağ elədim,
buna heç kəs inanmaz.

## BU KƏND...

*(Cavanları qazanc arxasınca yad ellərə üz tutan, 5-10 qarı-qocanın ixtiyarına qalan kəndin mənzərəsi)*

Tin-tin, küçə-küçə qocalır bu kənd,
üstündən, başından yetimlik yağır,
damından-daşından yetimlik yağır.
Küçələrin gözü yol çəkir,
bu kəndin itləri yad nəfəs gəzir
hürməyə...
Gedəni-gələni yoxdu bu kəndin.
Burda qulaq batır sükut səsindən.
Qonşu uşağın ərköyünlüyündən
beli əyilən ağac çəpər,
indi olsa qulağına səs təpər.
Hörümçəklər tor bağlayıb
qapıların kilid yerində.
Sükutdan rəngi solub,
boyası saralıb pəncərələrin.
Qulağı bir addım səsinə təşnə.
Çox qoca görünür bu kənd yaşından,
bu kəndin «cavanı» yetmiş yaşında,
bu kəndin qocası yaşını bilmir,
itirib ağlını, huşunu, bilmir.
Burda arzuları dəfn eləyirlər,
başdaşı qoyurlar xatirələrdən.
Burda ölüm dəbdə, əcəl sevilən.
Bir-birə başsağlığı verməzlər burda.
Qəbristanlıq böyüdükcə, kənd kiçilir.
Bir gün bu kəndin girəcəyində
bir lövhə asılacaq:
burda insan yaşamır.
Sonuncu ölünü
Tanrı götürəcək yerdən.

## ŞEİR YAZANDA...

Şeir yazanda istəmirəm
kimsə məni görsün.
Sözləri mızıldaya-mızıldaya
təkrarlayanda kimsə eşitsin.
Mən təbimlə macəra dolu
eşq yaşayıram şeir yazanda.
Hamıdan gizlənirəm,
hamıdan utanıram o an...
Sonra şeir doğulur.
Şeirin də xoşbəxti,
bədbəxti olur,
yaşayanı da var,
öləni də.

## AXTARIRAM

Mən özüm-özümə yadam, gəzirəm,
gəzirəm dünyanı, atam, gəzirəm,
dərdimi deməyə adam gəzirəm,
qəbrimi qazmağa yer axtarıram!

Mən gen yol tutmuşdum, cığıra çıxdı,
bu yol da axırki axıra çıxdı,
nə alıb satdımsa, çıxara çıxdı,
mən beş itirmişəm, bir axtarıram.

Bu bəxtlə, qismətlə heçəm dünyada,
xoş günə tapmadım bir çəm, dünyada,
bu dəli başımla sərsəm dünyada,
ocaq axtarıram, pir axtarıram.

## DEMƏ

Keçdim dünyanın içindən,
boşca qəfəsmiş demə.
Qulaqları batıran,
quruca səsmiş demə.

Baxdım ondan köçən köçə,
baxdım özüm keçə-keçə,
baxdım badə içə-içə,
bu da bir həvəsmiş demə.

Daha hər şeydən bezmişəm,
məzədən, meydən bezmişəm,
əlimi səndən üzmüşəm,
yaşamaq nə pismiş demə.

## BİLDİYİMİZİN TƏKRARI...

...dünya məzə yeridi,
məzələnib gedirik.
Bələkdən kəfənəcən
çözələnib gedirik.

Xeyirin də, şərin də
kökü var ey-dərində.
Dünya durur yerində-
biz ələnib gedirik.

Yola düşdüsə qatar,
kim gecikər, kim çatar.
Geyinib kəfən-paltar,
təzələnib gedirik...



**MƏRZİYYƏ NƏCƏFOVA**
*filologiya elmləri doktoru,*
*AMEA Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutunun baş elmi işçisi*

# VƏTƏN MÜHARİBƏSİNİN ÜÇ DÖYÜŞÇÜ ŞAİRİ

**1992**-ci illər şeirində Bəxtiyar Vahabzadənin, Xəli Rza Ulutürkün, Məmməd Arazın, Ələmdar Quluzadənin poeziyasında Qarabağ müharibəsi döyüşçülərinin real portreti canlandığı kimi, bu gün xalqımızın yaşadığı 44 günlük Vətən müharibəsində zəfər qazanan döyüşçünün rəşadəti sözün əsil mənasında poeziyanın misralarından daha yüksəkdə dayandı. Sabir Rüstəmxanlının, Zahid Xəlilin, Vahid Əzizin, Ümid Nəccarinin, Məmməd İsmayılın, Emin Pirinin, Əlizadə Nurinin, Avdi Qoşqarın, Mahirə Abdullanın, Xanım İsmayılqızının, Elnur Uğurun,Vaqif Aslanın,Oğuz Alparslanın, Elvin İntiqamoğlunun və yüzlərcə şairin yaradıcılığı döyüşçü əsgərlərimizin vətən uğrunda mübarizələrini, bu yolda canlarını qurban vermək sevgilərini, Vətən sevdalılarının obrazlarını canlandırdı.

İlk öncə döyüşçü şairlərin – Emin Pirinin, Oğuz Alparslanın, Elvin İntiqamoğlunun şeirlərindəki döyüşçü obrazından bəhs etmək istəyirəm.

**EMİN PİRİ** 44 günlük müharibədə qələmini süngüyə çevirən şairlərimizdən biridir.

Yəqin, müharibədən öncə bunları yazmışdı, döyüşüb torpaqları xilas etməyi elə onda qarşısına məqsəd qoymuşdu, şəhidlər xiyabanında olanda. Yaşca özündən kiçik, şəhid olan əsgərlərin məzarları önündə bir əsgər yetişmişdi.

*Bu yaşına görə*
*Şəhidlər Xiyabanında*
*18 yaşlı*
*baş daşları*
*utandırdı məni.*
*Məndən kiçikdi hələ*
*Məndən öncə doğulanlar*
*əmi deyib*
*üstümə qaçır başdaşları*
*bir əsgərin ölüm günü*
*baş daşının doğum günüymüş.*

Torpağı uğrunda canlarından keçən bu əsgərlərin qanı yerdə qaldığı, torpaqları düşmən tapdağı olduğu üçün özünü qınayan bir gənc sonradan döyüşçü olmaq, torpaqlarını azad etmək üçün bu məzarlar önündə xəcalət çəkə bilirsə o mübariz əsgər ola bilir.

*Şəhid məzarlarını*
*mərmərə bükdük,*
*daş qoyduq başlarına*
*qalxa bilməsinlər*
*üzümüzə tüpürməyə.*

**(Emin Piri, “Başdaşları utandırdı məni”)**

Emin Piri döyüşçü, əsgər kimi ön çəbhədə olsa da, poeziyasında əks etdiyi əsgər haqqında yaşananlar arxa cəbhədə də cərəyan edir. Əsgər və onun

validеyinləri, əsgər və onun həyat yoldaşı, əsgər və onun körpə balası. Bu şeirlərdən də görünür ki, o nə həyatda, nə də ki, şeirlərində özünü düşünməyib. Elə müharibədə döyüşçü məhz belə igidlər ola bilir. Canını xalqı uğrunda, torpaqları uğrunda, ailəsi uğrunda, əzizləri uğrunda qurban verə bilən insan döyüşçü və şəhid ola bilir.

"Şəhid oğlunun dedikləri" şeirində bir ana var, bu ananın müharibədə şəhid olan ərinə demək istədikləri o qədər reallıqlar var ki, əsil müharibə nədir və döyüşdə şəhid vermək nədir, bu canlı tablodan görmək, yaşamaq olur.

*Anamı heç elə görməmişdim*
*Atamı gətirəndə sıxmışdı əllərini…*
*Camaat görməsəydi*
*Yumruqlardı atamı:*
*"bu iki yetimə bəs kim baxacaq?!"*

Müharibə həqiqətlərini, döyüşçünün arxa cəbhə üçün narahatlıqlarını və nigaranlıqlarını Emin Piri əslində elə cəbhədə olduğu üçün belə real verə bilib. Ailələri, valideyinləri, körpələri üçün bu qədər acı həqiqətləri görə bildikləri halda canlarını Vətən üçün qurban edə bilən döyüşçülər Emin Piri poeziyasında əks etdirilə bilir. Qazi olan bir döyüşçü obrazı da var şairin poeziyasında:

*Müharibə əliliydi babam,*
*Aldığı təqaüdün qəpiklərini*
*Gizlədərdi əlində.*
*"Tapın görüm, hansı əlimdədi?*
*Pul, tapanındı"*
*Oynardı bizimlə.*
*Ancaq heç vaxt tapmadıq*
*Qəpikləri hansı əlində gizlətdiyini.*
*Görəsən, bilirdimi*
*Biz bilirik*
*Bir əlini müharibədə itirdiyini…*

**("Babamın əlləri")**

Şairin "Sükutlu səngər", "Ayağım özümdən qeyrətli çıxdı", "Sağ qalan varmı?"…şeirlərində döyüşçülərimizin yaşadığı müharibə ağrıları və həqiqətləri poetik ifadəsini tapır.

*Əsgər sinəsi axtarır*
*isinməyə*
*fevral şaxtasından*
*üşüyən güllə.*

Müəllif döyüşçünun hər dəqiqə üz-üzə olduğu o anı ifadə etməsi ağrılı və eyni zamanda poetik anlamda güclüdür. 3-4 bəndlik şeirdə ön cəbhə-döyüşçünün yaşadığı həqiqət və arxa cəbhədə döyüşçüyə aşiq bir qızın sevgisi canlanır. Şairin hər əsgərin ölümü ilə "hər əsgər tabutu, bir ağ gəlinliklə köçər… əsgər deyil, sevən qızın arzularını götürüb gedər, hər atılan güllə" ifadəsi əslində müharibə dəhşətinin ən real faciəsidir. 3-4 bənddən ibarət şeirdə ön cəbhəylə arxa cəbhə bir araya gəlir.

Gecənin yarısı səngərə məktub yazan bir qızın, anasının "hələ yatmamısan" sorğusu və "üşüyürəm, ana, odun atıram sobaya" deməsi ən qiymətli poeziya nümunəsidir. Sevən qızın əsgər yolu gözləməsi poeziyamızda yeni bir tapıntı olmasa da, amma sonrakı məqamda sevdiyini itirən qızın sevgilisini itirməsində şair tərəfindən özünə məxsus şəkildə ifadəsi cəbhədəki ağrılı anların dəhşəti ilə yadda qalır.

*Daha*
*gecələri oyaq qalmağa*
*soba yanında məktub yazmağa,*
*yalandan üşüməyə,*
*sobaya odun atmağa*
*ehtiyac yoxdu…*
*tağım komandirinin*
*səngərdən qıvrıla-qıvrıla*
*boğuq səsi gəlir:*
*kimsə sağdır?!*

"İtirilmiş əllər" şeirində isə bir sevən qızın düşüncələri ağrılı və təsirlidir. Söhbət əlini itirmiş əsgərdən gedir. Hər zaman görüşəndə gözü əsgər sevgilisinin əlində olardı. Qız ona gül gətirən əsgərin yenə də gül gətirib-gətirməyəcəyini düşünərdi. Artıq ona gül verən o əllər yoxdu, sadəcə kitab vərəqlərində qurudulan o gül var. Və o qız sevgilisinin əllərini o güllərdə axtarır. Şeirlərinin çoxunda olduğu kimi bu şeirdə də arxa cəbhədəki hadisələr ön cəbhənin dəhşətlərini əks etdirir.

*Görüşəndə*
*Sevgilisinin əlində*
*gözü axtarardı*
*ona veriləcək gülləri.*
*Indi*
*Kitabları arasında qurutduğu*
*Gül ləçəklərində axtarır*
*Sevgilisinin cəbhədə itirdiyi əlləri.*
**(“İtirilmiş əllər”)**

Emin Pirinin yaratdığı döyüşçü-əsgər obrazı ən şox onun itirdiyi əli və yaxud ayağı ilə yadda qalır.

**OĞUZ ALPARSLAN** da 44 günlük müharibədə qələmini silaha dəyişən oğullarımızdandır.

İllər əvvəlki şeirlərində Xocalı faciəsini iliklərinə qədər yaşayan şair sanki bu faciəmizdən bir Azərbaycan oğlu kimi əzilir, qüruru qırılırdı. Oğuz Alparslan “Türkəm mən” şeirində özü-özünə söz verib, and içirdi. Şair 44 günlük savaşa da yollananda həmin şeiri səsləndirmişdi.

*Al qana boyanan ,*
*Al bayrağım var,*
*Sinəmdə döyünən,*
*qurd ürəyim var,*
*mənim bükülməyən,*
*Türk biləyim var,*

*Türkəm mən!*
*Bozqurdam sözümün*
*ağasıyam mən,*
*Şimşək tək gurlayıb,*
*Çaxasıyam mən,*
*Dönüb Qarabağın yanan*
*köksünə,*
*yurdum Xocalıya yağasıyam mən.*
**(Oğuz Alparslan ”Türkəm mən”)**

Bu şeirlər zəfərə gedən yolun başlanğıcıdır. Bu ürəklə savaşa yollanan əsgərin qələbə qazanmaması mümkünsüzdür. Savaşdan sonrakı şeirində döyüşçünün məramı, amalı daha çox bəlli olur. Xocalıda erməni vəhşiliyini yaşayan qız-gəlinlərimiz, Azərbaycan qadını Oğuzun gözləri qarşısından bir an belə silinmədiyi Xocalıda erməni təcavüzünə məruz qalan bir körpə qıza yazdığı şeirdən məlum olur. Qələbə sevinici ilə vətənə dönən döyüşçü-şair Xocalı faciəsində erməni vəhşiliyinə məruz qalan körpə qızcığazla dərdləşir. Döyüşçü-şairin bu zəfərdən sonra bir az da olsa vicdanı rahatlıq tapdığı məlum olur.

*Yaddaşımın qan yeri,*
*Oyan! Qaldır üzünü..!*
*Bax…sökülür dan yeri*
*“Otuz il”lik yaddaşına*
*bir daş at,*
*Xocalının dəhşətini yaşayan,*
*Erməni nifrətini öz bədənində*
*Daşıyan,*
*O balaca qızcığazın,*
*ağrıları dindimi?*

Qarşımızda türk öğlu var və bu oğul düşməndən az da olsa qisasnı alıb. Əslində poeziyanın real döyüşçüsüdür Öğuz Alparslan. Poetik təfəkkürü reallıqdan tam ayrıla bilmir. Azərbaycan döyüşçüsünün düşüncəsi, qüruru bir istiqamətə yönəlib. Bu istiqamət ədalətin bərpasına tuşlanır. Döyüşçülərimizin təfəkkürü, gücü və mübarizəsi ədalətə xidmət edir, və ona görə də bu müharibə zəfərlə yekunlaşdı. Müharibədən zəfərlə dönən döyüşçü üzünü o məsum qızın xatirəsinə tutur. “Xocalıdan danışsam, ağrın dinərmi bir az?” bu sorğu kövrək duyğular oyatmaqla yanaşı iğid oğullarımıza qarşı fəxarət hissini gücləndirir. Əslində bu sualdan bir çox həqiqətlər də bəlli olur. Bu sualların illərdi döyüşçü-əsgərlərimizin ürəyində onlara əzab veridiyi bəlli olur.

*Anam, bacım…qızcığaz,*
*Xocalıdan danışsam,*
*Ağrın dinərmi bir az?*
*Ayağın isinərmi?*
*Ürəyin isinərmi?*
**(Oğuz Alparslan”Adsız şeir”)**

Bu sonluqdan içində az da olsa rahatlanan bir döyüşçü obrazı deyil, real bir döyüşçü görürük.

**ELVİN İNTİQAMOĞLU** da 44 günlük Qarabağ müharibəsində döyüşən şairlərimizdəndir.

Onun yaradıcılığında da müharibənin faciəsi canlandırılıb. Elvinin “Mühasirə” başlıqlı şeirində bir günlük müharibə həqiqətlərinin real yaşantılarını görürük. Şeirdə mühasirəyə düşmək təhlükəsini an-

ladan döyüşçü-şair mühasirənin ölümdən ağır olduğunu anladır, şeirdə ölümdən deyil əsir düşməkdən ehtiyat edən əsgərlərin yaşantıları canlandırılır.

*Rabitə xətlərindən asılı qalıb*
*Komandir:*
*Kömək edin, cənab*
*Polkovnik leytenant,*
*Kömək göndərin bizə;*
*Etibarsız çıxdı rabitə daşı…*
*Təki Vətən sağ olsun,*
*Çıxarın daraqları-*
*Içindən hərə bir güllə götürsün*
*Atsın cibə:*
*Ola bilsin oldu bizlər üçün son*
*Müharibə:*
*Mən onda bildim güllənin tərifin –*
*Bir dəqiqəlik sükut,*
*Bir ömrlük göz yaşı.*

**(Elvin İntiqamoğlu " Mühasirə")**

Müharibə həqiqətlərinin əksi döyüşçü-şair dilindən təbii və təsirli verilməklə yanaşı, həm də döyüşçü obrazının boyasız və real əksini görmək və müharibə facəsini yaşamaq mümkündür.

Şairin "Yağış suyu" (Müharibə xatirələrindən) silsilə şeirlərindən birində uca Tanrıyla bir döyüşçünün söhbəti yer alır. Qan yerinə yağış suyunun axmağını istəyən gənc döyüşçünün Tanrıyla söhbəti elə səmimi və içdən ifadə edilib ki, Azərbaycan əsgərinin bu savaşdan üzü ağ çıxmasını, Allahın o igidləri qorumasını döyüşçü-şairin dilindən həyacansız dinləmək olmur. Bu ifadələrdə rellıqla bədiilik birləşərək canlı tablolar yaradır.

Tanrı və savaşda hər dəqiqə ölümlə pəncələşən döyüşçü obrazı bitkin və canlıdır. "Allahım, bizləri sən qorudun, yenə qoru, qoyma, suya uduzaq, əlinlə sıx, suyun çıxart buludun…" döyüşçü şairin özünəməxsus düşüncəsi və duyumu maraqlı və fərqlidir. Bəlkə də Elvin buludların ağlamasını ona görə istəyir ki, anaların göz yaşını görmək bütün döyüşçü əsgərlər kimi onu da var ikən yox edir. Döyüşçünün yanında onu qoruyan ana yoxdu, yalnız göy üzündən onun ədalətli savaşını izləyən Tanrısı var. Döyüşən şairin axan qana fəlsəfi baxışı düşündürücüdür. Qanın yerinə yerdə yağış gölməçəsini yaratmaq üçün çırpınan döyüşçü Tanrıya sığınır. Tökülən düşmən qanı "Vətənin can yerinə" axdıqca əslində vətən azad olur, vətən olur, ideyası yeni olmasa da mükəmməl poetik ifadədir.

*Axır düşmənin qanı*
*Vətənin can yerinə -*
*Yerdən narahat olma,*
*Sən su tök göydən yerə qan yerinə…*

Döyüşçü şair qələbimizi, zəfərimizi bir az da palçıqlı gölməçələrə, yağış suyuna, onu yağdıran Tanrıya borclu olduğumuzu diqqətə çatdırır. Son bənddə Tanrıdan Qarabağımızın suyunu içə bildiyi qədər yağış istəyir. Bəlkə 30-illik həsrətimizi, nisgilimizi ancaq yağış suyu yuyub , təmizləyə bilər və ya erməni tapdağında qalan torpaqlarımız yağış suyundan sonra dirçələr, rahatlıq tapar və paklaşar.

*Həsrətində olduğumuz torpağı*
*daddırdı bizə*
*Palçıqlı gölməçələr…*
*Qoyma, yağış dayansın,*
*Qarabağ suyunu içənə qədər…*

Müəllifin "Pəncərə" şeirində də fəlsəfi düşüncə maraqlıdır. Pəncərədən Qarabağa baxan döyüşçü-şair. Şeirin ilk misralarında Laçınla bağlı narahatlığı poetik sətirlərdən duymaq olur. Pəncərəni varlığını müxtəlif mənada diqqətə gətirən şair üç bəndlik şeirdə pəncərəni açmaq, qırıq pəncərəni bitişdirmək, pəncərəni örtmək ifadələrini dəyişik ideyada əks etdirir.

*Bakı dəhlizindən yaxşı görünmür*
*Laçın pəncərələri -*
*Havası çatmır Vətənin, boğulur,*
*Açın pəncərələri…*

İkinci bənddə;

*Otuz ildən sonra bağlaya bildik*
*Açıq pəncərələri –*
*Bitişdirdi torpağın şəhid qanı*
*Qırıq pəncərələri…*

Sonuncu bənddə isə keçmişi qapamaq istəyən şair, bütün pəncərələrin örtülməsini arzu edir.

*Qapıdan qovulan bir də gəlməsin,*
*Tutun pəncərələri -*
*Keçmişimiz təkrarlanmasın, örtün*
*Bütün pəncərələri…*

**(Elvin İntiqamoğlu "Pəncərə")**

Elvinin "Şəhid qızı" şeirində isə reallıq önə keçir. Bir şəhid qızının yaşantıları, anasının övladını necə ovundurması, yalan danışmağa məcbur oması diqqət çəkir. Bir ananın bu yalanları demək zorunda qalması çox real boyalarla işıqlandırılır. Ananın hər dəfə atasından oyuncaq istəyən qızına oyuncaq alması, atasını görmək istəyən övladına " Atan yatıb sən də yat, işdən gəlsin yuxuna, evə gəlməyənədək" – deməsi yetərincə müharibə ağrılarını, şəhid verən qadınların yaşantılarını əks etdirə bilir. Hələ ana çox yalanlar deməyə məcbur olacaq. Bunların içərisində ananı ağrıdan bir məqam da var ki, bu, ananın qızına qurduğu xəyalla bağlıdır. Hər qızın arzusu ona elçi gələndə atasının elçilərinin qarşısına çıxması, qızına xeyir-dua verməsidir. Amma şəhid qızı bu arzudan da məhrum olacaq. Elvin ananın dilindən bu istəyi də poetikləşdirir ki, bu misralar ana kədərinin real boyalarla mükəmməl təsvirini ifadə edir.

*Anan yalan danışır:*
*Atanın qismətinə əzrayıl elçi düşüb,*
*Sənin elçilərini*
*Qarşılaya bilməyəcək -*
*Toyunda qız atası*
*Ürəyindən keçənləri*
*Arzulaya bilməyəcək…*

Bunlar yaşanan reallıqlardır. Şəhidlərimiz torpaq uğrunda canlarını qurban verməklə yalnız öz həyatlarından keçmirlər. Onların ailələri, xanımları, övladları da həyatlarında yaşıya biləcək bütün gözəllikləri qurban verirlər. Bu baxımdan bu məzmundakı bütün nümunələr təsirli və ağrılıdı. Bəzi məqamda Şəhid ailələrinə dövlətin və xalqımızın dayaq durması da hətta belə şəhid övladlarının xüsusi ilə duyğusal yaşantılarına təsir göstərə bilmir. Aşağıdakı misralar da bu baxımdan reallıqlara söykənir.

*Anan yalan danışır:*
*Yalanlar da atan kimi bir gün yoxa çıxacaq -*
*Sinif yoldaşların sənə "Şəhid qızı"deyəcək…*
*Bilirsənmi nədi ən qəribəsi?*
*Tarix dərsində ağlaya-ağlaya*
*Yazacaqsan lövhəyə:*
*"İkinci Qarabağ müharibəsi…"*

**( Elvin İntiqamoğlu "Şəhid qızı")**

Son misradakı "İkinci Qarabağ müharibəsi" ifadəsi ilə müəllif 44 günlük müharibənin bizə yaşatdığı zəfər sevincləri ilə bərabər, torpaqlarımızın azadlığı uğrunda verdiyimiz şəhidlərimizi də yada salır.

Azərbaycan poeziyasında döyüşçü əsgər obrazını əks etdirən yüzlərcə şeir, poema artıq ədəbiyyatımızın dəyərli poeziya nümunələrinə çevrilib. Bu mövzu tənqidçi və ədəbiyyatşünasların diqqət mərkəzindədir. Günümüzün ən aktual mövzusu olan Azərbaycan əsgərinin şanına, hünərinə hələ çox şeirlər, dastanlar yazılacaq. Bu məqalədə üç döyüşçü şairin poeziya nümunəsi ilə tanış olduq, bu istiqamətdə araşdırmalarımız davam edir. 30 illik Qarabağ həsrətini bu xalqa unutdurub, zəfər sevincləri yaşadan Azərbaycan döyüşçüsünün obrazı hələ ədəbiyyatımızda uzun illər canlanacaq.



## NİCAT AĞAYEV

### MƏN VƏTƏNƏM

Mən Vətənəm -
Adım bəlli, söyüm bəlli, köküm bəlli.
Tarix boyu savaşaraq,
Verdiyim hər hökm bəlli...

Mən Vətənəm -
Kimlər bizə tələ qursa,
Oyununu pozacağam.
Bir gün gedib Göyçə göldə
Qırmağımı atacam -
Göyçənin qızıl balığın
Bişirəcəm Ərdəbildə...

Mən Vətənəm -
Sərhədimin ucu Təbriz;
Bir ucunda Göyçə gölü,
Bir ucunda Dərbəndim var,
Bir ucunda mavi dəniz...

Mən Vətənəm -
Parça-parça olmağıma baxmayın siz:
Hər parçamda min şəhidim,
Hər parçamda qan izim var -
Neçə-neçə sərkərdələr,
Neçə-neçə xan izim var...

Mən Vətənəm -
Qapınızı döydüyümdə
Düşünmədən açın... Mənəm!
Zəncan, Xoyam, Borçalıyam.
Şuşa mənəm!
Laçın mənəm!
Üfüqlərdə işıq saçan
Türk ulusu Turan mənəm:
Mən Vətənəm,
Vətən mənəm!

### BU GECƏ ŞEİRİMƏ SƏN QATDIM BİR AZ

Bu gəcə şeirimə sən qatdım bir az:
Bir az saçlarının qaralığından;
Bu gecə dünyaya pəncərə açdım
O iki gözünün aralığından...

Bir şeir dəmlədim bu gecə səndən,
Rəng üçün yanağın xalını qatdım;
Düşündüm ən şirin şey nədir deyə -
Busə dodağının balını qatdım...

Bu gecə şeirimə sən qatdım bir az:
Hərflər qoxunun xəstəsi oldu;
Hər dəfə içimə bulaqtək axan
Gülüşün şeirin bəstəsi oldu...

Bu gecə şeirimə sən qatdım bir az:
Bir az kirpiyindən, bir az qaşından;
Baxarkən dünyaya sanki nur saçan -
Bir azda o nazlı baxışlarından...

Bir az yerişini qatdım şeirə:
Sözlərim düzüldü bir inci kimi;
Misralar o qədər həsrətmiş sənə,
Məhbusun azadlıq sevinci kimi...

Bu gecə səninçün elə darıxdım,
Elə bil dünyada hamı səndədir;
Bu gecə şeirimə sən qatdım bir az,
Sən də gəl, hər şeyin tamı səndədir...

### BALACA

Xəyallarım qocalıbdır, balaca,
Ayı qalıb, ulduzları tökülüb.
Arzularım qarış-qarış yeriyir,
Ümüdümün artıq beli bükülüb.
Biz səninlə üzbəüzə dayansaq,
Aramızı bulud alar, çən alar.

Sən özünə qəlbimdə yer tapınca,
Qocalarsan, saçlarını dən alar.

Soyuq-soyuq baxışımda donarsan -
Mən qışıyam, sənsə yayı dünyanın.
Fərqli-fərqli qütblərik sənin ilə -
Mən bu tayı, sən o tayı dünyanın.

Sən cilovun buraxdığın sevginin,
Artıq məndə gözü üstə qaşı var.
Mən sonuyam hekayənin, balaca,
Hələ sənin hekayənin başı var...

## SEVDİM SƏNİ

Mən sevməyi bacarmırdım,
Sən öyrətdin, sevdim səni.
Bir az fərqli, kələ-kötür,
Bir az çətin sevdim səni.

Təsadüfən gördüyüm kəs,
Doldun qəlbə nəfəs-nəfəs.
Sən hər şeydə tələs-tələs,
Mənsə həzin sevdim səni.

Sən sansan da məni nadan,
Heç qaçmadım bu duyğudan.
Yavaş-yavaş, altdan-altdan,
Dərin-dərin sevdim səni.

Bəzən sevdim mələk kimi,
Bəzən arzu, dilək kimi.
Bəzən isti külək kimi,
Bəzən sərin sevdim səni.

Səndə tapdım hər əlacı,
Ödədin hər ehtiyacı.
Hərdən duzlu, hərdən acı,
Hərdən şirin sevdim səni.

Sevgim təkcə gözdə deyil,
Görünüşdə, üzdə deyil.
Dildə deyil, sözdə deyil,
İçin-için sevdim səni...

## İNSAN

Yaşın artmasının bir xeyri yoxdur,
Acılar çəkərək böyüyür insan.
Hər kəs doğularkən doğru, saf olur,
Sonradan içindən çürüyür insan.

Qıraqdan baxarkən xoşbəxt görsənir,
İçdən nə çəkdiyin heç kəs bilməyir.
Bütün arzuları bitir, tükənir,
Sadəcə bədənin sürüyür insan.

Bir üşütmə tutub uzun zaman ki,
Donub, buz bağlayıb ürəyim sanki.
Həkim qan azlığı dedi, amma ki,
Kimsəsiz qalanda üşüyür insan.

Sağ ikən halını soran olmayır,
Uzadıb əlini tutan olmayır.
Niyə belə olur, mənə çatmayır,
Ölərkən ətrafın bürüyür insan...

## SƏNSƏN

Yaşadığım bu dünyanın,
Günəşi, həm ayı, sənsən.
Həsrətindən üşüdüyüm,
Ömrümün tək yayı, sənsən.

Cansız necə yaşar insan?
Sən canımda bir ayrı can.
İlahinin mənə olan
Ən dəyərli payı sənsən.

Sən şeirimin sətirləri,
Sən könlümün tək dilbəri.
Sən ömrümün fəsilləri -
İli, günü, ayı sənsən...

## SƏN MƏNƏ AİDSƏN

Sən mənə aidsən, mənə aidsən,
Sənin tellərinə toxunmasam da;
Sən mənə aidsən qismətin kimi -
Sənin qulağına oxunmasam da.

Sən mənə aidsən, qoymaram səni
Özgələr incidə, özgələr üzə;
Qoymaram gözündə bulud yığıla,
Qoymaram bir damcı göz yaşı süzə.

Sən mənə aidsən, məndən başqası
Sənintək qadını oxuya bilməz;
Uzaqdan-uzağa hər baxışını
Mənimtək ürəyə toxuya bilməz.

Sən mənə aidsən, mənimsən, mənim -
Səni bir özgəyə verə bilmərəm;
Sənsiz yaşamaram demirəm, çünki,
İstəsəm heç, sənsiz ölə bilmərəm...



# XALİDƏ ABDULLAYEVA

***

Sən elə bilirsən mən darıxmıram?
Darıxıram, ay ömrüm,
Həm gündüz, həm gecəni
Mən həsrətəm qoxuna...
Kimsənin nə vecinə -
Salıbdır aralığa bu həsrət körpüsünü,
Alovlanır bu ürək,
Bir gün külə dönəcək;
Deyə bilmir sözünü...
Gecələri bağrıma basıram xəyalını -
O qədər uzaqdasan,
Yanıb kül oluram mən...
Necə soruşum halını?
Sən elə bilirsən mən darıxmıram?
“Bəlkə”lərlə ovunub,
“Kaş ki”lərlə bitirəm -
Aram-aram yox oluram,
Hissə-hissə itirəm...
Yaman çətin olurmuş səndən ayrı yaşamaq,
Sənsiz ayrılığ çağı;
Külə dönsün, İlahi, bu həsrətin ocağı...
Rüzgar yaman bərk əsdi bizim eşqin üstünə,
Alışıb odlanıram oğrun-oğrun tüstünə;
Hərdən də düşünürəm kaş ki olub keçənlər,
Qış yuxusunda yatmış şirin yuxum olaydı -
Ayılardım gözümü ovuda-ovuda mən,
Dillərdə əzbər olan eşqim nağıl qalaydı...

***

Heç nə vermir yerin ötən illərin,
Heç nəyin qalmayıb duzu, məzəsi.
Çoxdandır kəsilib qulağımızdan
Kəndlərdə çalınan zurnanın səsi.

O vaxt qapıları pusardıq bir- bir,
Hələ üzük ilə fal da tutardıq -
Sevdiyimiz kəsin adını çəkib,
Duzlu qoğal yeyib sonra yatardıq.

Heç çıxmır yadımdan həmin zamanlar -
Qonşuya papaq da atıb qaçardıq;
«İl ildən pis gəlir» deyərdi nənəm,
İndi zaman keçdi, biz də qocaldıq.

«O ötən günlərə heç bir gün çatmaz» -
Əzəldən söyləyib belə atalar;
Anladım, ömürdən keçsə də illər,
Keçən gündən şirin xatirə qalar...

***

Axşam üstü fikir, xəyal apardı
Gəzdiyim o cığırlara, bağlara.
Uşaq vaxtı kənddə elə qaçardıq:
Dərələrə, təpələrə, dağlara.

Sübh çağında qoyun-quzu sürüsü
Gedərdi xırmandan üzüaşağı.
Böyüdükcə unutduq kənd-kəsəyi,
İndi yada düşür usaqlıq çağı.

Yenə könlüm o anları istədi,
Fikir, xəyal nənəm, babamgildədir.
O çağlar ən gözəl illərim idi,
Hər yada düşəndə qəlbi titrədir.

Ötən çağlarıma gün çata bilməz,
Köksümdən qəlbimdən silinməz izi.
Heyif, o günlərə bir də dönülməz,
Yaman arzuladım mən kəndimizi.

Hərdən yada düşür o gözəl anlar:
Çörək yapıb, inək sağardı anam.
Həyatın yükünü çəkib üstünə,
Qıymazdı ki, anam tezdən oyanam.

Unutmadım o meyvə bağlarını -
Heç əksik olmadı heyvası, narı.
Bir an da Xalidə heç unutmadı,
Qayıda biləydim o ana barı...



AKŞİN XƏYAL

# POÇTALYON

(hekayə)

Çöldən ayaq səsləri eşidib, əlimdəki təzə süzdüyüm çayı taxtadan düzəlib, rənglənməmiş stolun üstünə qoyub, pəncərənin çirkli şüşəsindən boylandımsa da, heç kimi görə bilmədim. Oturub çayımı üfürə-üfürə qurtumlamağa başladım. Bəlkə də külək nəyisə tappıldatmışdı. İnanmıram ki, bu havada kimsə qəbr ziyarətinə gələ. Bu qış demək olar ki, heç yağıntı olmamış, quru, şaxtalı və küləkli bir hava hökm sürmüşdü. Elə indi də günəş yalandan parıldasa da, çöldə şaxtadan beş dəqiqə belə dayanmaq mümkün deyil.

Çayımı içib biraz uzanmaq istəyirdim, amma fikrim qaldı bayaqkı ayaq səsində. Bəlkə elə oğurluğa gəliblər. Çünki bir neçə dəfə burada oğurluğa cəhd edənlər olmuşdu. Odur ki, uzanmaq fikrimdən daşınıb, kürkümü geyinib, papağımı başıma qoyub çölə çıxdım. Qəbirlərin arasına göz gəzdirdim və qəbirstanlığın köhnə qəbirlər adlanan hissəsində gözümə bir qaraltı dəydi. “Bu küləkdə, şaxtada kimdir belə qəbir ziyarətinə gəlib”-deyə düşünərək, kürkümün boyunluğunu qaldırıb, əllərimi cibimə qoyaraq, qəbirlərin arası ilə həmin istiqamətə doğru addımladım. Yaxınlaşdıqda həmin qaraltının kim olduğunu tanıdım. Burda gözətçi işlədiyim bu beş il müddətində bu adamı tez-tez görürdüm. Yetmişdən çox yaşı olan bu qoca demək olar ki, ayda üç-dörd dəfə gəlir, köhnə və adsız bir qəbrin ətrafını təmizləyir, gətirdiyi çiçəkləri qəbrin üstünə düzərək biraz oturub, sonra çıxıb gedirdi. Amma bir aydan artıq idi ki, görünmürdü. İndi bu şaxtalı, küləkli havada yenə gəlmişdi. Yaxınlaşıb yaxınlıqdakı qəbirlərin birinin hasarının üstündə oturub, ona baxmağa başladım. Yerdəki yolunmuş alaq otlarından bildim ki, mən gələnə kimi qəbrin ətrafını təmizləmiş, indi isə gətirdiyi gülləri qəbrin üstünə düzərək, üstünə yerdən yığdığı daşlardan qoyurdu ki, külək aparmasın. Gülləri düzüb qurtarandan sonra qırışıb, yaşıl damarları çıxmış əlini baş daşını əvəz edən kiçik daşın üstünə qoyaraq bir neçə cümlə nəsə deyərək ayağa durduqda məni gördü. Nəmli gözləriylə üzümə baxaraq, gülümsünüb salam verib yanımdan ötüb keçdi. Arxasınca baxdım. Qarşıdan əsən külək ona irəliləməyə imkan vermirdi. Arabir hüdürlüyü az qala iki metrə çatan mərmər baş daşılarının arxasına sığınır, nəfəsin dərib, sonra yoluna davam etməyə çalışırdı. Ürəyimdə, “qoca kişisən, axı nə məcburdu bu soyuqda, şaxtada qəbir ziyarətinə gələsən”deyib bir siqaret çıxarıb qoydum ağzıma. Qarşıdan əsən külək alışqanı söndürməsin deyə, arxamı küləyə çevirib siqaretimi yandırıb geri çöndükdə kişini görmədim. Getdiyi istiqamətə doğru boylandımsa da, yenə də gözə dəymirdi. İti addımlarla qəbirlərin arasıyla qaçdım. Nə qədər axtarsam da, gözümə dəymədi. Adam birdən birə necə yox ola bilərdi axı. Dayanıb nəfəsimi dərərək sağa, sola baxırdım ki, qulağıma inilti səsi gəldi. Səs gələn tərəfə boylandıqda onun iki qəbrin arasındakı dar cığırda üzü üstə yerə uzandığını gördüm. Dərhal özümü yetirib, çiyinlərindən tutub onu qaldırıb, daş hasara söykədim. Nəfəsi gedib gəlsə də, gözləri yarı qapanıq haldaydı. Alnı yıxılarkən harasa dəyib sıyrılmışdı. Qaldırıb gözətçi məntəqəmə aparmaq istəsəm də, həm gücüm çatmadı, həm də külək imkan vermədi. Xoşbəxtlikdən biraz sonra özü gözlərini açaraq, ayağa durmağa çalışdı. Qoluna girib, ayağa qalxmasına kömək etdim. Əliylə mənə yaxşı olduğunu işarə edib, zorla gülümsünərək addım atmaq istəsə də, elə ilk addımda yerində səndələdi. Yenidən yıxılmaması üçün dərhal qolundan tutdum. Özü getməməyə israr etsə də, birtəhər dilə tutub onu gözətçi məntəqəmə gətirə bildim.

Taxta dərman qutusundan yod, pambıq götürüb alnının qanını sildim. İsti bir çay süzüb qarşısına qoydum. Özümsə taxta kətili çəkib, onunla üz-üzə oturdum. Han-dan-hana çayından bir qurtum içib:

– Çox sağ ol, ay oğul, dedi.

– Bir şey deyil, ay əmi. Amma nə vacibdir axı bu

soyuqda, qiyamətdə qəbir ziyarətinə gəlmək.

Əlindəki stəkanı yerə qoyub, alnını ovxalayaraq:

– Neçə aydı xəstəydim, yerdə yatırdım deyə gələ bilmirdim. Bu gün gördüm bir az yaxşıyam, ayaqlarım yer tutur, ona görə durub gəldim.

– Nəyinizdi rəhmətlik?

Kişi sanki sualdan diksinən kimi oldu. Gözlərini küncə zilləyib, sakitcə:

– Heç nəyim, dedi.

Bir müddət nə düşündüsə:

– Əslində heç nəyim, amma hər şeyim deyə əlavə etdi.

Bir şey başa düşmədiyim üçün gözlərimi döyə-döyə qalmışdım. Nə deyəcəyimi, nə soruşacağımı da bilmirdim. Kişi durumumu anlayıb, özü məni bu vəziyyətdən çıxardı.

– Bu mənim illərdir qəlbimdə daşıdığım bir sirrimdir. İndiyədək kiməsə danışmamışam. Çayından bur qurtum içib, sözünə davam elədi: – Hiss edirəm ki, ömrümə çox az qalıb, odur ki, bu sirrimi kimləsə bölüşmək istəyirəm ki, özümlə qəbirə aparmayım.

Oturduğum taxta kətili biraz da ona yaxın çəkib:

– Məmnuniyyətlə dinlərəm, dedim.

– 1942-ci il, müharibənin qızğın vaxtı idi. Cavan idim, 19-20 yaşım vardı. Ürəyimdə anadangəlmə qüsur olduğu üçün məni aparmadılar cəbhəyə. Bir tanışım vasitəsi ilə poçtların birində poçtalyon kimi işə düzəldim. Maraqlı bir peşəydi. Hər gün yeni insanlar tanıyır, yeni simalar görürdüm. Hər səhər məktub dolu çantamı çiynimə taxıb, Bakının köhnə küçələri ilə gəzib, qapı-qapı məktub paylamaq xüsusi zövq verirdi mənə. Amma bu işində özünə məxsus acı yaşadan tərəfi vardı ki, o da üçkünc "qara məktublar" idi. Hər gün işə gedəndə yolda Allaha yalvarırdım ki, kaş ki, bu gün "qara məktub" olmaya. Amma nə fayda, almanlar irəlilədikcə "qara məktub"ların da sayı artırdı.

Yenə günlərdən bir gün səhər məktubları ayırıb çantama yığırdım ki, gözümə eyni adamdan gəlmə, amma fərqli ünvanlara göndərilmiş iki məktub dəydi. Düşündüm ki, yəqin nəsə yanlışlıq var burda. Əlqərəz, məktubları çantama yığıb, furajkamı başıma qoyub poçtdan çıxdım. Elə ilk həmin o iki məktubun ünvanını tutub, Bakının tozlu küçələri ilə irəlilədim. Öhdəliyimə düşən ərazi İçərişəhərin ətrafındakı məhəllələr idi. İndi o küçələrdən əsər-əlamət də qalmayıb. Çox dəyişib bu şəhər. Həm görünüşcə, həm də xasiyyətcə. O vaxtı Bakı örpəkli, yaşmaqlı, həlim xasiyyətli gəlinə bənzəyirdi. İndi isə üz-gözünə normadan artıq makiyaj çəkmiş, süni dodaqları olan, aqressiv xasiyyətli, hər gördüyünə ayaqlarını aralayan fahişələrə bənzəyir. Nəinki şəhər, insanlar da süniləşib sanki. Müharibə, aclıq çətinlik dövrü olsaydı da, insanların üzündə bir gülüş, təbəssüm hiss olunurdu. Küçələr dolu olurdu gülüşərək qaçışan yarıçılpaq uşaqlarla. İndi isə hamı sanki robotlaşıb. Kimə baxrsan elə bil ki, eyni proqramla proqramlaşdırılıblar. Gözlərdə kədər, üzlər soluxmuş, başlar aşağı, səhər işə, axşam evə… Yarıçılpaq uşaqları da yarıçılpaq qadınlar, qızlar əvəzləyib. Deyirik, zəmanə dəyişib. Əslində zaman sadəcə təqvimdəki rəqəmləri dəyişməklə öz axarıyla davam edir. Dəyişən insanların düşüncələridir. "Şəxsi fikrimdir"deyib, hərə öz cılız düşüncəsini cəmiyyətə soxuşduraraq, özünü də, cəmiyyəti də iyrəncləşdirir. Kimə baxırsan hamı nəyisə dəyişməyə can atır. Kimisi hakimiyyəti, kimisi cəmiyyəti, kimisi sevdiyi insanı və sairə. Amma heç kim özünü dəyişməyə can atmır. Nə vaxtsa düzələcək deyə ümid ediriksə, səhv edirik. Çünki heç nə düzəlməyəcək, əksinə hər şey iyrəncliyə doğru gedərək daha da pisləşəcək.

Qarşısındakı boş stəkanı mənə uzadaraq:

– Qalx o çayından birini də ver, zəhmət olmasa. Boğazım qurudu, dedi.

Mən çay süzənə kimi o, cibindən siqaret çıxarıb, titrəyən barmaqlarının arasında dodağına qoyub, kibritlə alışdırdı. Bir neçə qullab vurub, öskürdü və siqareti külqabıya basaraq söndürdü. Süzdüyüm çaydan bir qurtum içib, nəfəsini dərərək, sözə başladı:

– Hə, onu deyirdim axı. Gəlib həmin küçəyə çatdım. Ünvanlara baxdım ki, hər iki ev üzbəüzdür və aralarında bir neçə metr məsafə var. İlk sağ tərəfdəki qapını döydüm. Örpəyinin altından ağ birçəkləri görünən yaşlı bir qadın açdı qapını. Zəif görürmüş kimi gözlərini qıyaraq, üzümə xeyli baxandan sonra:

– Tanımadım axı, ay oğul. Kimsən? dedi.

– Poçtalyonam, ay ana, məktub gətirmişəm.

– Kimdəndir?

– Əsgər məktubudur, ay ana.

Arvadın gözlərinə sanki işıq gəldi. Hər iki əliylə üzümü ovuclarına alıb:

– Gələn ayaqlarına qurban olum, ay bala. Gəl bir öpüm səni deyib alnımdan öpdü.

Məktubu alıb, öpüb üzünə sürtərək, qoynuna qoydu. Üzbəüz evi göstərib soruşdum:

– Ay ana, bu evdə kim yaşayır?

– Telli arvadın evidir. Onadamı məktub var? – Təəccüblə soruşdu.

– Hə, ay ana, məktub var ona da.

– Kimdən olar, görəsən. Yazığın iki oğlu var idi, elə müharibənin ilk günlərində hər ikisindən qara məktub gəldi. Bir qızıyla qalıb tək damın altında. Yazığın ərini də 37-də güllələdilər.

– Yəqin qohumlarındandır deyib sağollaşdım.

Telli arvadın qapısını döydüm. Qara qaş, qara göz, gözləri rəngdə çiynindən azca aşağı saçları olan, üz gözündən şıltaqlıq yağan bir qız açdı qapını. Məni görcək özünü itirdi. Qorxaq və titrək səslə:

– Buyurun, dedi.

Hiss etdim ki, gözlərində bir kədər yarandı və əlbəttə

ki, mən bu kədərin səbəbini bilirdim.

– Sizə əsgər məktubu var deyib çantamı eşələyərək məktubu tapıb ona uzatdım.

Məktubu açıb baxanda gözlərindəki kədər yoxa çıxdı. Həmin kədəri dəcəllik siması əvəzlədi.

– Ay qız, kimdir, o? - İçəridən gələn bu səs qızı hürkütdü. Məktubu tələsik köynəyinin qoluna dürtərək:

– Heç, ay ana, qonşudur deyib mənə baxıb gülümsündü.

Sonra məndən xahiş etdi ki, bir də məktub gətirəndə anası açarsa qapını ona verməyim. Bir yolunu tapım qızın özünə verim.

Sonralar o qızla dostlaşdıq. Adı Təhminə idi. Məktubu yazan oğlan onun həm üzbəüz qonşusu, həm də sevgilisiymiş. Eyni anda bir məktub anasına, birini də Təhminəyə yazırdı hər zaman. Amma bir gün həmin əsgərdən sadəcə bir məktub gəldi-"Qara məktub". Çox çıxılmaz bir vəziyyətə düşdüm. Məktubu əsgərin anasınamı, ya Təhminəyəmi verim bilmirdim. Çox düşündükdən sonra qərara aldım ki, anaya verim.

Tərəddüd içində qapıya yaxınlaşaraq, əllərim əsə-əsə döydüm. Qadın qapını açıb məni görüncə sevindi.

– Xoş gəldin, ay oğul, deyib dərhal da əlimə baxdı.

Titrəyən əlimlə məktubu ona uzatdım. Hər zamankı kimi məktubu alan kimi qoxuladı, sonra öpdü. Elə qapının ağzındaca məktubu açmağa başlayanda tez oradan uzaqlaşmağı qərara aldım və sağollaşmadan iti addımlarla arxamı dönüb getmək istəyirdim ki, tappıltı səsinə geri çevrildim. Qadın məktub əlində qapının astanasında yıxılmışdı. Cəld ona tərəf yüyürüb, dizlərimi yerə ataraq onu silkələdimsə də, özünə gəlmədi. Qışqırıb qonşuları köməyə çağırdım. Beş-altı arvad tökülüb gəldilər. Kimisi yaylıqla yelləyir, kimisi üzünə su çiləməklə məşğul idi. Üzbəüz qapının cırıltısına qanrıldım. Telli arvad şalını başına örtə-örtə qonşusunun köməyinə qaçırdı. Onun dalınca da Təhminə. O, əvvəlcə nə baş verdiyini anlamadı. Amma qadının əlindəki məktubu görəndə çevrilib düz gözlərimin içinə baxdı və əyilib məktubu götürərək evlərinə tərəf getdi. Qapıya çatıb oturdu. Bir də başını qaldırıb üzümə baxdı. Baxışlarından anladım ki, bu qızın gözlərindəki kədəri bir daha heç vaxt dəcəllik siması əvəzləməyəcək. O gündən bir daha o məhəlləyə ayaq basmadım.

Kişi nəmli gözlərini baş barmağının ucuyla silib, bir siqaret yandırdı. Yenə bir neçə qullab vurub, öskürdü və siqareti külqabıya basaraq söndürdü.

– O qəbir Təhminənindir? - maraqla soruşdum.

– Yox. O gündən bir il keçmişdi. Bir il ərzində o qədər elə təhminələr gördüm ki, artıq "qara məktub"lar mənim üçün adiləşmişdi. Ta ki, bir "qara məktub" həyatımı dəyişənə qədər.

1943-cü ilin yazı idi. Çantamı çiynimə salıb, məktublarımı paylamaqla məşğul idim. Növbəti qapını döydüm. Sarı saçları, yaşıla çalan gözləri olan gənc bir qadın açdı. Gülümsünərək:

– Buyurun, dedi.

Gülümsəyərkən batan yanağı onu daha da gözəl göstərirdi. Özümü necə itirmişdimsə, qapını niyə döydüyümü də unutmuşdum. Key kimi gözlərimi döyərək, maddım-maddım baxırdım. Qadın bu dəfə daha içdən gülümsünərək:

– Buyurun, sizə nə lazımdır? dedi.

– Mənə? Hə, sizə məktub var deyib məktubu çantamdan çıxardım.

Özümü itirdiyimdən və əllərim əsdiyindən məktub əlimdən düşdü yerə. Hər ikimiz eyni anda əyilib məktubu götürmək istəyərkən, başlarımız bir-birinə dəyərək toqquşdu. Əliylə alnını ovuşdurub, ufuldadı, sonra güldü. Mən də ona qoşulub güldüm.

Həmin gün o qızın yaşıla çalan gözləri, batan yanağı, gülüşü heç yadımdan çıxmadı. Bütün günü ancaq key kimi dolaşdım. İlk dəfə idi məndə belə bir hal baş verirdi. Qəribə bir hiss yaranmışdı içimdə. Gecəni də səhərə kimi yata bilmədim. O gündən hər gün onların məhəlləsinə gedir, pəncərələrinə boylanırdımsa da, onu görə bilmirdim. Özüm də bilmirdim niyə belə edirdim. Bir gün yenə məhəllələrindən keçəndə hardansa gəldiyini gördüm. Məni görüb gülümsündü. Salamlaşıb:

– Nə yaxşı gördüm sizi. Cəbhəyə məktub yollayacaqdım, versəm, siz poçtdan göndərərsiniz? dedi.

– Hə, əlbəttə.

– Amma mən məktubu hələ yazmamışam axı deyib sonra nə düşündüsə, vaxtınız varsa gəlin içəri, məktubu yazıb verim deyərək qapını açıb məni içəri dəvət etdi.

Qəfil təklif karıxdırmışdı məni. Sıxıla-sıxıla ayaqqabılarımı çıxarıb, divarlarının suvağı tökülmüş, köhnə mebellərlə çox səliqəli bəzənmiş bir otağa keçdim.

– Siz əyləşin mən sizə bir çay gətirim. Siz çayınızı içənə kimi mən də məktubu yazım deyib mətbəxə keçdi.

O gündən onunla tez-tez görüşür, məktub gətirir və oturub onun məktub yazmasını gözləyirdim. Adı Müjqan idi. Cəbhədəki də əriydi. Təzə evləniblərmiş, toylarından sonra əri cəbhəyə aparıblar. Ərdə olduğunu biləndən sonra, ondan uzaqlaşmağa çalışsam da, bacarmadım. Ürəyə hökm etmək olmur. İndiki vaxta baxma, o vaxtı əsgər ailəsinə göz dikəni güllələyirdilər.

Bir gün işimə də, özümə də, ona da xəyanət etdim. Onların məktublarını açıb oxumağa davam etdim. Bu məndə artıq vərdiş halı almışdı. Bir məktublarını belə buraxmır, hamısını bir-bir oxuyurdum. Zaman keçdikcə də ona daha çox bağlanır, bağlandıqca da onu ərinə qısqanırdım.

1944-cü ilin yanvarında, soyuq, şaxtalı bir qış günündə ona da "qara məktub" gəldi. Gecəni yatmayıb, səhərə kimi düşündüm və qərara aldım ki, məktubu ona verməyim. Səhəri durub getdim onlara. "Hava soyuqdur, donmuşam. Burdan keçirdim, dedim bir çay verəsən qızışam" bəhanəsiylə evə keçib oturdum. Ərindən gələn məktubları köhnə dolabın üstündəki qəhvəyi rəngli mücrüdə saxladığını bilirdim. O, mətbəxə çay gətirməyə ge-

dəndə mücrüdəki məktubların birini oğurlayaraq, çantama qoydum. Çayımı içib, sağollaşıb çıxdım. Bir həftə gecələri yatmayıb, oğurladığım məktubu qarşıma qoyaraq, onun ərinin xəttində yazmağı öyrənməyə çalışdım və nəhayət ki, istədiyimi əldə etdim. Ondan sonra ayda bir dəfə ərinin adından ona məktublar yazıb aparır, onun yazdığı məktubları özüm oxuyub, yığırırdım evə. Zamanla aramızda o qədər yaxınlıq, səmimiyyət yaranmışdı ki, bir problemi olanda mənə deyir, sirlərini mənimlə bölüşüb, məsləhətləşirdi.

Bu hal 45-ci ilin mayına kimi davam etdi. Sovetlər Almaniya üzərində qələbə çalandan sonra, cəbhədəkilər qayıtmağa başladılar. Artıq ərinin ölümünü, məktubların mənim yazdığımı gizlədə bilməzdim. Bir yolun tapıb, həqiqəti ona deməli idim. Gecəni oturub, ona ilk dəfə öz adımdan məktub yazdım. Hər şeyi olduğu kimi, məktubları hansı vaxtdan mən yazdığımı, onu gördüyüm gündən sevdiyimi, hamısını bircə-bircə etiraf etdim. Sabahısı gün məktubu aparıb ona verib, tez də ordan uzaqlaşdım. Poçt müdirindən xahiş edib, başqa bir məhəlləyə keçdim. Bir gün səhər idarədən çıxanda qapıda onunla qarşılaşdım. Özümü itirdim, nə deyəcəyimi, nə edəcəyimi bilmədim. Hətta qaçmaq da keçdi fikrimdən.

– Danışmalıyıq sakit səslə dedi.

Başımı aşağı salıb, heç nə demədim.

– İşlərini bitir, gəl bizə deyib arxasını çevirib getdi.

Günorta özümü onun qapısını döyən gördüm. Bura necə gəlib çıxmışdım, nə düşünüb gəlmişdim bilmədim. Qapını açıb məni içəri dəvət etdi.

– Mixəkli çayım var, içirsən? deyə soruşdu.

Başımı buladım.

– Özün bilərsən deyib stul çəkərək, qarşımda oturdu. Bir müddət məni süzəndən sonra sözə başladı:

– Səni anlayıram, sevirsən. Sevginin nə olduğunu, necə bir hiss olduğunu mən yaxşı bilirəm. Amma belə etməməli idin. Onun ölümünü vaxtında deməli idin mənə. Sən mənə yalan danışdın. O bir gün qayıdacaq deyə, boş ümidlə yaşamağa məcbur etdin. Bilirəm, bunu mən üzülməyim deyə etdin, amma yenə də böyük bir səhv etdin. Mən səni sevə bilmərəm. Çünki onun yoxluğuna belə xəyanət edə bilmərəm. Cismi yoxdursa da, bir ömür onun ruhunu sevəcəm. Səni isə sevginə bağışlayıram. İndi isə dur get və bir daha qarşıma çıxma.

Söz tapıb cavab verə bilmədim. Odur ki, sakitcə çantamı da götürüb, sağollaşmadan çıxdım. Nə qədər özümə güc gəlməyə çalışsam da, onu unuda bilmirdim. Nə yeyib içdiyimi bilir, nə normal yuxu yata bilirdim. Bir gecə onu yuxuda gördüm. Əlində silah mənə tuşlamışdı. “Sən məni aldatdın, sən mənə yalan danışdın” deyib atəş açdı.

Tər-su içində yuxudan dik atıldım. Səhəri diri gözlə açıb, gün çıxar-çıxmaz getdim məhəllələrinə. Elə tini təzə dönmüşdüm ki, qapının ağzına qonşuların toplaşdığını gördüm. Hamısına cəbhədən məktublar gətirmişəm deyə, demək olar ki, hamısını tanıyırdım. Ayaqlarım titrəyə-titrəyə qonşulardan birinə yaxınlaşıb, nə baş verdiyini soruşdum. “Müjgan gecə özünü öldürüb” sözlərini eşidəndə gözüm qaraldı, dünya başıma fırlandı. Gözümü açanda xəstəxanadaydım. Yıxılarkən başım yerə dəyibmiş. Başımın üstündə dayanmış tibb bacısı nə qədər məni saxlamağa çalışsa da, inad edib, ordan çıxdım. Xəstəxanadan çıxanda günəş üzü qüruba tərəf əyildiyini görəndə anladım ki, səhər tezdəndən axşama kimi burda huşsuz vəziyyətdə olmuşam. Qaçaraq, tənginəfəs özümü onların məhəllələrinə çatdırdım. Mən gələnə kimi onu artıq dəfn etmişdilər. Qonşulardan qəbrin yerini soruşdum. O gündən hər həftə bura gəlir, onunla söhbətləşir, dərdləşib, durub gedirəm.

– Bəs heç evlənmədin? – deyə soruşdum.

– Yox. Mən də onun yoxluğuna xəyanət etmədim. Cismi məni tərk edib getdisə də, ruhunu sevərək yaşadım. Bunu indiyədək kimsəyə danışmamışdım. Hiss edirəm ki, ömrümün sonuna çox qalmayıb, ona görə sənə danışdım ki, özümlə qəbirə aparmayım.

Sözünü bitirib, yenə bir siqaret yandırdı. Yenə iki-üç qullab, yenə öskürək və yenə də yarımçıq siqareti külqabıya basıb söndürərək ayağa qalxdı.

– Gedim daha mən, gecdir deyib titrəyən əlini mənə uzatdı.

Əlini sıxıb, adını soruşdum.

– Telman, deyib gülümsündü və sağollaşaraq getdi.

* * *

Onun gedişindən bir həftə keçməsinə baxmayaraq, qəbirstanlığa gəlməmişdi. Bütün günü hey onu düşünür, ünvanını almadığım üçün özümü danlayırdım.

Qış girəndən bu gün ilk dəfə idi ki, yağış yağmağa başlamışdı. Gecədən başlayan leysan yavaş-yavaş səngimiş, indi isə xırda-xırda çisələyirdi. Pəncərənin önündə oturub yağışa tamaşa edirdim ki, iki nəfərin maşından düşüb, gözətçi məntəqəsinə tərəf qaçdığını gördüm. “Bu yağışda kimsə qəbir ziyarətinə gəlməz, yəqin ki, rəhmətə gedənləri var” deyə düşünərək, qapını açıb, onları içəri dəvət etdim. Gələnlərdən biri salam verdikdən sonra:

– Telman kişini tanıyırdız? deyə soruşdu.

– Poçtalyon?

– Yox, nə poçtalyon. Qoca kişidir, qonşumuzdur. Bu gün səhər evində ölmüş tapdıq. Əlində bu məktub vardı, – deyib islanmış pencəyinin ciblərini axtaraq, üçbucaq şəklində bir kağız parçası tapıb, mənə uzatdı.

Məktubun üstündə qəbirstanlığın ünvanı və məktubun qəbirstanlıq keşikçisinə çatacağı yazılmışdı. Əllərim əsə-əsə tələsik məktubu açıb oxumağa başladım: “Məni onun yanında dəfn edərsən” yazılmışdı. Ani olaraq göz yaşlarımı saxlaya bilmədim.

– Məktubu oxumuşuq, amma “o” kimdir, qəbri hardadır bilmirik. Siz yeri göstərin, biz qəbri qazmağa başlayaq gələnlərdən biri dedi.

Pencəyimin qoluyla gözümü silib:

– Siz gedin meyidi gətirin. Qəbri mən özüm qazacam, dedim və divara söykənmiş bel və külüngü götürərək, “o”nun qəbrinə tərəf addımladım...



## KÖNÜL HÜSEYN

### AYRILIQ QORXUSU

Ayrılığın qara olur gözləri,
Elə baxır qorxu düşür canına.
Dinərək yox, səssiz deyir sözləri,
Səssizliyi buztək hopur qanına.

Ayrılığın ağır olur yanğısı,
Heç bir məlhəm ovundurmur yaranı.
Hələ bunun hər gün ürək ağrısı,
Ruh əzabı rahat qoymur adamı.

Ayrılığın qara olur gözləri,
Qarasında bütün dünyan qaralır.
Ömür boyu sızıldayır közləri,
Közlərinin külündən dağ yaranır.

Ayrılığın ağır olur nəfəsi,
Yavaş-yavaş, zərrə-zərrə bitirsən.
Ürəyinə dar gəlir döş qəfəsi,
Qəfəsində xəstə quşa dönürsən.

Ayrılığın çox qorxuncdur gülüşü,
Səs-küyündən lap lərzəyə gələrsən.
Ya əyilər ayrılığın önündə,
Ya dik durub ayrılığa gülərsən...

### DƏLİ

Gedənin kölgəsi yolunda qalar,
Getmisən, xəyalın üstümü alıb.
Deyirlər, gecələr kölgə yox olar,
Gecə yox olmursan, ölürəm axı.

Yumuram gözümü xəyala dalıb,
Mən səni lap canlı bilirəm orda.
Dörd bir tərəfini gül-çiçək alıb,
Əynində ağ libas görürəm axı.

Yanına qaçıram görüncə səni,
Tez gəlib əlindən tuturam bərk-bərk.
Daha qoyub getmə deyirəm məni,
Səninlə mən evə dönürəm axı.

Dururam sevincək yerimdən qalxıb,
Yuxumda dedin get, mən də gəlirəm.
Günlərdir ümidsiz yollara baxıb
Tükənən bir şamtək sönürəm axı.

Sıxılıb bir küncə şəklin əlimdə,
Səninlə danışıb söhbət edirəm.
Dəli olmuşam mən, deyəsən, həm də,
Yasını tutmaqdan gülürəm axı...

### İNSANLAR

İnsanlığın üzünə həsrət,
İnsanlar dünyanın düzünə həsrət -
Elə bir dövrana gəlib çıxmışıq,
Qalmışıq doğruluq sözünə həsrət.

İnsanlar əzəldən deyildi belə,
Sevginin yerini alıbdı nifrət -
Gör artıq nə qədər ucuzlaşmışıq,
Baxıb öyrənirik kafirdən ədəb.

Cahillik dünyada baş alıb gedir,
Dərk etmək çətindi çoxuna, əlbət -
Dünya insanlığın üzünə həsrət,
İnsanlar dünyanın düzünə həsrət.

Ey insan, doğuşdan öncəni düşün:
Bir qan laxtasıydın, əvvəlin şəhvət -
Sonrada cisminə ruh üfürən O
Dünyaya bəxş etdi səni bir mələk.

Sən mələk gəlmişdin dünyaya, fəqət
Səni öz qoynuna aldı cəhalət -
Doldu ürəyinə kin, qəzəb, nifrət,
İnsanlıqdan qaldı sadəcə surət.

Harama meyl edib alanda ləzzət
Yox oldu əqidə, həya, ar, iffət -
Bircə çıxış yolu düşünürəm mən:
Dağılsın kainat, qopsun qiyamət!



# MİRASLAN RASİM

## MEYMUN VƏ OĞLU

Meymun hirsləndi oğluna,
Xəbərdarlıq etdi ona:
— Yemə "meymun alması»nı,
Çəkəcəksən bəlasını...
Nə dadı, nə tamı yoxdu,
Xeyrindən zərəri çoxdu...
Oğlu isə dedi: — Ata,
Bilirəm etdiyim xəta...
Həmişə deyirsən mənə,
Bax, insanın yediyinə...
Öyrən dadlını, dadsızı,
Xeyirlini, ziyansızı...
Qəribədi, bu adamlar
Yedikləri lap zəhrimar:
— Qıcqırdıb buğda, arpanı,
Sonra da içirlər onu...
Şərab içib məst olurlar,
Tüstüdən ləzzət alırlar...
Biz meyvəni tər yeyirik,
Tamam yetişsin — deyirik...
Onlar yığır ocaq çatır,
Tərkibinə zəhər qatır...
Yedirirlər uşaqlara,
Onlar hara, insaf hara!
Pulçün and içirlər yalan...
Bir-birinə qənim olan,
Tor quran bu adamlardı...
Başlarına dünya dardı,
Mən onlar tək yaşamaram....
Yox, onlara oxşamaram!
Ata meymun qulaq asdı,
Oğlunu bağrına basdı:
— Nə faydası, adam olaq,
Qoy, eləcə meymun  qalaq!

## QURD VƏ KEÇİ

Bir gün yenə rastlaşdı
Keçi ilə canavar.
Qurd hiddətlə söz açdı:
— Sənlə ədavətim var...
İkimizik burada,
Əməlini sal yada.
İndi səni ay göyçək,
Mən — qurd lələn yeyəcək.
Səni mənim əlimdən,
Kim xilas eyləyəcək?!
Çatan varmı dadına,
Ahına, fəryadına?!
Hamısını çəkəcəm,
İnternetə qoyacam,
Dünya görsün halını!
Sonra tapıb yeyəcəm
Şəngülüm, Məngülümü —
Sənin balalarını...
Sənə buynuz düzəldən
Dəmirçi düşüb əldən.
Daha xilaskarın yox,
Bil ki, əzabların çox...
Keçi başın yellədi,
Qurda belə söylədi:
— Sən axmaqsan, qurd lələ,
Xəbərin yoxdu hələ —
İndi təzə silah var,
Lazer adlandırırlar...
Bu düyməni basacam,
Səni də yandıracam,
Tamam məhv eyləyəcəm...
Hamısını  çəkəcəm,
İnternetdə yayacam,
Külün qalacaq burda!
Əlin cibinə saldı,
Qurdu hədəfə aldı.
Qurd yaman qorxdu bu an,

Qaçdı geri baxmadan —
Sona çatdı ədavət...
Miraslan Rasim bildi,
Yazdı belə rəvayət!

## FİL VƏ SƏRÇƏ

Yığışdılar meşədə,
Cəm oldular heyvanlar...
Çox gizli bir guşədə,
Deyindilər o ki var:
— Bu fil yolundan çıxıb,
Bizi döyür, incidir...
Basıb yeyir hər nə var,
Yeməkdə birincidir...
Haqqı, ədaləti yox,
Heç kimə hörməti yox...
Daha bəsdir əzildik,
Cana doyduq, üzüldük...
Ona hücum eyləyək,
Yetər artıq — söyləyək...
Meşədən qovaq onu,
Bu olsun filin sonu!
Axır döyüş başladı,
Hər heyvan silahını
Filə doğru tuşladı...
Sərçə havadan baxdı,
Dimdiyindəki daşı
Filə doğru buraxdı...
Fil gördü, gülə-gülə
Ona söylədi belə:
— Axmaq sərçə sən nəsən
Ki, məni öldürəsən?
Gör meydanda qaldı kim,
Bir bax, qalib oldu kim!
Sərçə dedi: — Hə, gördüm,
O daşı atmaqlsa mən
Mövqeyimi bildirdim...
Hə, səndən narazıyam,
Ölməyinə razıyam!

## TISBAĞANIN CAVABI

Dovşan tısbağaya rişxənd eylədi:
Sənin tək yaşasam, ölərəm — dedi...
Sənin ömrün boyu qaçdığın yolu,
Zor ilə sürünüb açdığın yolu
Bir göz qırpımında ötə bilirəm,
Düşmənin gözündən itə bilirəm...
Dovşan hey zəvzədi, çox sözlər dedi,
Hətta təhqir dolu sözlər söylədi...
Tısbağa coşmadı, nə hirslənmədi,
Yavaşca soruşdu: — İstəyin nədi?
Bir vaxt babaların burda qaçırdı,
Rast gəlcək tülküyə, qurda qaçırdı...
Hər biri yaşadı on il, on beş il,
Qorxuyla yaşamaq bir ömür deyil...
Mənimsə həyatım mənalı, şirin,
Tamam tərsinədir sən dediklərin...
300 yaşım vardır, demərəm acam,
Sən təki minlərin yola salacam...
Qaçmaq, fəal olmaq — köhnə bayatı,
Hər kəsə Allahdan qismət həyatı...
Xoş ömür sürürəm, gərək biləsən,
Sən yalnız bol kələm həsrətindəsən!

## DOVŞANIN ƏRİZƏSİ

Haqqı tapdanmışdı fağır dovşanın,
Odur ki, aslana ərizə yazdı:
— Kaş, günbəgün artsın şöhrətin-şanın,
Dərdliyəm, deməyin ərizəbazdı...
Qorxudan canımda qalmayıbdı hal,
Məni çox incidir o qoca çaqqal...
Əlimdən alıbdı cümlə varımı,
Yemək də istəyir balalarımı!
Sonda gizləndiyi ünvanı yazdı,
Çaqqal onu tapsa, diri qoymazdı...
Məktubu alanda şah sərxoş idi,
Bir ceyran yemişdi keyfi xoş idi...
Məktubun üstünə baxmadı hətta,
Yollatdı çaqqala tez icraata...
Məktub həmin an da çaqqala gəldi,
O da tədbir gördü, işlər düzəldi...
Aparın mətbəxə balalarını,
Dovşanın da kəsin qulaqlarını...
Qoy bilsin: — Padşahla qohumam, tənəm
Burda qanun mənəm, qayda güdənəm!

## DƏVƏNIN İNTİHARI

Toya dəvət etdilər bir gün qoca dəvəni,
O da aldı yanına neçə cavan nəvəni...
Çalan kim, oynayan kim — hərə də bir tərəfdə,
Dəvə də saydı özün ali hörmət, şərəfdə...
Gətirib oturtdular onları bəy, gəlinlə,
Toyun axırı idi, söz aldı tülkü lələ:
— Ət qurtarıb, eybi yox, dəvələr ki burdadır,
Dəvə əti, kababı elə bil ki, bal dadır...
Tutub kəsib yedilər, sonra xəbər yaydılar:
— Şahid var,, sərxoş dəvə özü edib intihar...
Toyda yaman hirslənib, balaların öldürüb,
Bədbəxt kəsib venasın, peşimanlıq bildirib...
Miraslan Rasim gördü, qələmə aldı bunu,
Məlum etdi hamıya, gerçək nə olduğunu!



GÜNEL.C. HACIYEVA

# AYI BAŞLI ATA

(hekayə)

Hər səhər mətbəxə girəndə kif tutmuş tavan gözünə batırdı, amma özünü elə aparırdı ki, guya bundan heç xəbəri də yoxdur. Səssizcə soyuducunun qapısını açdı, soyuqdan əsən bədəninə bir az da üşütmə gəldi. Sanki mədəsi də soyuqdan büzüşmüşdü, son günlər aclıq hissini itirmişdi. Bu an ehtiyacı olan bircə şey var idi, o da evdə yeganə isti yer olan, hələ soyumamış yatağına girib dizlərini qarnına qısıb, bədəninə sarılıb yatmaq. Çox yorulmuşdu, ayaqlarından daş asılmışdı. Bayıra zülmət çökmüşdü, göz gözü görmürdü, saat beşi göstərirdi. Axşamdan hazırlanıb işə aparmaq üçün qoyulmuş yemək dolu qabı götürüb tez soyuducunun qapısını bağladı. Boş alış-veriş torbalarının yığıldığı çəkmədədən bir torba tapıb yeməyi qoydu. Yoldaşının mətbəx stulunun başından asılmış jaketini götürüb əyninə keçirdi. Elektrik çaydanının düyməsini basıb suyun qızmasını gözləyərkən əlləri ilə çaydanı qucaqlayıb yavaş-yavaş qızan suyun əllərini isitməsindən məst oldu. Atma çayı fincana atıb üzərinə su aldı. Pəncərənin qarşısına keçdi.

Binaların pəncərələrində artıq orda-burda yanan işıqlar qaranlıqda buxar tutmuş pəncərələrə həsrətlə boylanan ac, soyuqdan donmuş pişik gözlərini xatırladırdı. Ona elə gəldi ki, o gözlər hər biri ona zillənib. Beyninin xəyal gücündən özü də diksinib pərdəni çəkdi və çayını qurtumladı. Çay bədəninə yayıldıqca beyninə qan işləyirdi.

Uşaq gecə başını yastığa qoyandan ta indiyə kimi durmadan öskürmüşdü. Hər dəfə uşağın səsinə oyanır, anasının onu qucağına götürüb sakitləşməsini gözləməsini çarəsizcə izləyir, yenicə gözünə yuxu gedər- getməz yenə öskürək səsinə diksinirdi.

Bu işə başlayandan yoldaşı ilə razılığa gəlmişdi. Səhərlər onu narahat etməyəcəkdi. Onsuzda bütün günü uşaq ilə yorulurdu. Eləcə bir tikə çörəyin üzərinə şor çəkib loxmanı ağzına basdı. Termosuna qaynar su süzüb, iş torbasınını götürdü. Bayırda külək vıyıldayırdı. Uşaqlıqdan külək səsinə qarşı bir qorxusu var idi. Küçədə olanda bu səs ona elə də pis təsir etmirdi. Amma evdə olub bu vıyıltını eşidərkən onu vahimə bürüyürdü. Ona elə gəlirdiki sanki kimsə dalınca qovur, qaçıb bir balaca otaqda gizlənir. O isə əl çəkmək istəmir, durmadan qapını vurur ki, açsın. Hər şeyi elə canlı təsəvvür edirdi ki, nəfəsi daraldı, bir an öncə özünü bayıra atmaq istədi. Jaketi asılqandan asıb, əyninə qalın gödəkçə geyinib qapıdan çıxdı.

Bayır düşündüyündən də soyuq idi. Küçədə küləyin ora-bura sovurduğu yarpaqlardan, soyuqdan bir-birinə sığınıb miyoldaşan pisiklərdən, var-gəl edən ac itlərdən başqa bir tərpəniş yox idi. Əlini cibinə basıb qolları ilə bədənini sıxdı, bununla sanki özünü soyuqdan qoruyacaqdı.

Avtobus dayanacağına doğru yol aldı,

tələsmirdi. Çünki, küçədə hələ insan gözə çarpmırdı, ilk avtobusun gəlməsinə də hələ xeyli var idi. Dayanacağa çatanda ora artıq xeyli insanın toplaşdığını gördü, onun kimi Günəş doğmamışdan bir tikə çörək üçün yola çıxanlar çox idi. Ora-bura var-gəl edə-edə ətrafa göz gəzdirirdi, dayanacaqdan xeyli aralıda bir qrup işçi bu soyuqda, qaranlıqda kranla yuxarı nəsə qaldırırdılar. Yəqin vacib bir elan imiş ki, insanları bu saatda, soyuqda bu işi görməyə məcbur edir. Günəş hələ doğmasa da, küçədə yavaş-yavaş artan insanlar onu soyuq dünyada tək olma hissi kimi ağırlıqdan qurtarırdı. Sanki insanlar artıqca bədəni də isinirdi. Avtobus gəldi. Və insanlar qarışqa qar üzərində düyü görmüş kimi ora axışdılar. Avtobus hərəkət etdikcə içəri isinir, yenicə bədəninə hərarət yayılan kimi, yeni dayanacaqda qapılar açılır və içəri dolan soyuq hava bütün vücudunu üşüdürdü, sümüklərini sızıldadırdı.

Asılan lövhənin yanından keçəndə boylandı, nə yazıldığını görməyə çalışdı, bəlkə, iş elanı idi. Yazıları aydın oxuya bilməsə də, şəkildə çimərlik geyimində dənizdən çıxan bir qız təsvir olunmuşdu. Yalnız avtobusun azacıq işıqlandırdığı lövhədə "siz də" sözünü oxuya bildi. Pulsuzluqdan toz bamış cibini nəzərə alaraq əmin oldu ki, bu "siz də" sözünün ona aid olma ehtimalı yoxdur. Avtobus irəlilədkcə alatoranda gözlərini ovuşduran şəhərin bir neçə küçəsində oxşar lövhə ilə rastlaşdı. Hansısa bir turizm şirkəti "Yeni il"i Dubayda keçirməyin sərfəli şərtlərini təklif edirdi. Sanki barmaqlarını qırov aparmış şəhərin tək istəyi səhər olunca dənizə tökülmək imiş, sadəcə hansı dənizə töküləcəklərinə qərar verə bilmirlərmiş. Bu turizim şirkəti də onlara işıq tutur gecə-gecə. Hətta bir anlıq dodağının altında mızıldandı ki, indi isti yorğanının altında olmaq istəyərdi, ya Dubayın bu qaynar dənizində. Qərar verə bilmədi.

CİbIndə yalnız yol pulu var idi. Evə qayıda bilməsi üçün qazanmalı idi. Artıq on səkkiz gün idi ki, qazları kəsilmişdi, qaz olmadığı üçün elektrikdən daha çox istifadə etdiklərindən işıq pulu da ikiqat idi. Dekabrın səkkizi idi və evin beton divarları sanki evə buz səpirdi. Hər gün qızının öskürəkdən boğulduğunu gördükcə kasıblığın susdurduğu gözləri xanımına dikilir, o baxışlar qadınına hər şeyin yoluna düşəcəyinə söz verirdi. Amma nədənsə sözünün üzərində dura bilmirdi. Soyuq yavaş-yavaş hər şeyi soyudur, əvvəl burunun ucu, sonra ayaqlar, əllər, qulaqlar. Beləcə ilk öncə ürəkdən daha uzaqda olan hər şey soyuyur. Sonra dizlər, sonra nəfəs alıb verəndə ciyərlər tir-tir əsir, qanın damarda donur və bir gün baxırsan ki, qəlbin, ruhun buzlaşıb. Kasıblıq, pulsuzluq iliyinə kimi işləyib. İşıq pulu, ərzaq – o, bu deyərkən qazancından əlavə pul ayıra bilmirdi. Nəhayət, dünən yalnız yol pulunu saxlayıb müəyyən məbləğ düzəldib yoldaşına verdi, hətta bir kilo ət, çay, yağ da ala bilmişdi. Bütün bunların əvəzinə qızından şirin bir öpücük də aldı. Bunlardan ürəklənən həyat yoldaşı isə böyük bir siyahı yazdı. Adı da "əskiklər!" İlk dəfə cibinə bu qədrə pul bir gündə girmişdi, bunu içkili bir müştəri cibinə basmışdı. Beş manat ümidi ilə əlini cibinə salanda cibində bir yüzlük görüb çox təəccübləndi. Bu pul onun xilaskarı idi, onu qızının qəhramanı edəcəkdi.

Artıq üç gün idi yoldaşı ard-arda ərzaq siyahısı göndərirdi, o da hər gün "unudurdu", növbəti gün siyahı daha da böyümüş formada ona göndərilirdi. O da, adəti üzrə, yenə unudurdu. Son vaxtlar lap "huşsuz" olmuşdu. Bu gün son gün idi, həyat yoldaşının susqunluğu da övladına bir qarın yemək bişirmə şansı tükənənə qədər idi. Bu gün soyuducunu açanda bir yumurta, dibində nəsə qalan iki-üç banka və bir şor qabı görünürdü. İşləri yaxı getsə bəlkə də bu gün o siyahının kiçik bir hissəsini "xatırlaya" bilərdi artıq. Müştərinin səhvən cibinə basdığı bu pul bir an onu göylərə uçurdu. Sonra vicdanı qəbul etmədi, müştərinin bu "səhv"ini, mütləq, müdriyyətə xəbər verməli idi. Qızı göz önünə gəldi, bu an vicdan onun boş soyuducusunda ayqların sallayıb oturmuşdu, bu an vicdan qızının öskürəkdən daralan nəfəsində xırıldayırdı, evinin kif basmış tavanında qaralırdı, buz tutmuş döşəməsində titrəyirdi vicdan. O xeyli düşündükdən sonra dünyanı idarə edən qırmızı vicdanı cibinə basıb işinə davam etdi...

***

Bu gün hava daha soyuq idi. Parkda ara-sıra adam gözə dəyirdi. Günü yarı etsə də, cəmi beş manat qazana bilmişdi. Buna da şükür edirdi, çünki geri qayıtmağa pulu var idi artıq. Ayaqlarını hiss etmirdi, termosu xarab olduğundan çayı da buz kimi olmuşdu. Sağ olsun "dovşan"ın verdiyi çaydan sonra bir az özünə gəldi. İstinin dadını çıxardı. Bir saat

vaxtı var idi. Yeraltı keçidə girib əynindəkiləri çıxarıb torbaya basdı, gödəkçəsini geyinib papağını başına keçirdi. Şəhərin mərkəzi küçəsi istiqamətində hərəkət edirdi. Anidən əli, ayağı əsməyə başladı. Bu gün hər zamankından daha yorğun idi. Hələ üstünə bir də xəstəliyin əlamətləri gəlirdi. Boğazına duz töküblərmiş kimi göynəyir, udquna bilmirdi. Yanındakı "heyvan" yoldaşları ona sataşırdılar ki, səsin dəyişib lap ayı səsi verirsən. Amma evə qayıda bilməzdi.

***

"Dovşan"a yaslanıb saatlarının gəlməsini gözləyirdi. Ayaq üstə durmağa heç gücü qalmamışdı. Yoldaşından gələn zəngi cavablamaq üçün geyim otağına getdi. Həm də artıq geyinməli idi. Vaxt yetişirdi. Zəngi cavabladı. Uşağın öskürəyi ağırlaşıb, boğulmağa başlayıb. Poliklinika həkiminə zəng edib, o da bir sirop deyib. Baha deyilmiş, cəmi altı manata imiş. Yoldaşı bütün xırdalıqları ilə informasiyanı ona verib telefonu söndürdü. Cəmi altı manata... Onu cibində isə cəmi beş manat var idi.

Torbasını əlinə aldı, yol boyu fərqinə varmadığı bir şeyi hiss etdi. Başından soyuq tər axmağa başladı. Başı yox idi, torba boş idi. Hardasa unutmuşdu, keçdiyi yerlərin hər birini göz önündən keçirdi. Xatırlaya bilmədi, xatırlasaydı belə artıq gec idi. Bayırdan onu səsləyirdilər, başsız qalmış başını tutub nə edəcəyini bilmirdi. Nəhayət, əsəbləri tarıma çəkilmiş administrator qapını təpiklə açdı. Lift gözləyərkən arxasınca danışılanlar qulağını dəlib keçirdi. Söyürdülər, bağırırdılar, həm restoran rəhbərliyini, həm qonaqları pis vəziyyətdə qoymuşdu, həm də iş yoldaşları ona görə bu gecə çörək pulundan olmuşdular. Ən dəhşətlisi də yenə evə pulsuz qayıdırdı. Başı o qədər ağırlaşmışdı ki, sanki ətdən yox betondan idi. Saatlarla ayı başı ilə dolaşarkən heç bu qədər ağır hiss etmirdi özünü...

Küçəyə çıxdı, soyuq dumanlı bir axşam idi. Avtobus dayanacağına yol aldı, ara küçələrdən keçirdi, sanki işıqlı prospeklə addımlasaydı insanlar onun dərdini, utancını görəcəkdilər. Binaların həyətində heç kim yox idi, bəzən işdən geri qayıdıb avtomobilini dayanacaqda park edib içi dolu bazarlıq torbaları ilə ağzından buxar çıxan ailə başçıları sezilirdi. Onlar sadəcə evlərinə dönürdü, amma ona elə gəlirdi ki, bu insanlar bilərəkdən onu qıcıqlandırır, sataşır. Dodağının altında söyürdü. Qaranlıq dalanlarda sahibsiz heyvanların hənirtisi gəlirdi, sanki bloklara girib gecəni səhər etmək üçün insanların ötüb keçməsi üçün pusquda durmuşdular.

Rastına çıxan bütün apteklərdən siropun qiymətini soruşdu, yox heç birində hədiyyəlik, savabına veriləcək bir sirop yox idi.

Artıq üçüncü avtobus ötüb keçirdi, o hələ də dayanacağın dəmir oturacağında oturub nə etməli olduğunu düşünürdü. Bəlkə də, artıq heç düşünmürdü də. Anlamsız baxışlarla gəlib gedənləri süzür, ona maraqla baxan insanlara gülümsəyir, buz bağlamış dəmir oturacaqdan tez-tez durub otururdu. Dördüncü avtobusa mindi, artıq çarəsi yox idi. Hava soyuq idi və bu sonuncu avtobus ola bilərdi. Bəlkə də, sonuncu deyildi. Amma bundan sonra gələn avtobuslar onun yaşadığı məhəlləyə girmədən qaraja dönürdü. Beləcə, o iki kilometr məsafəni piyada getməli olacaqdı. Amma buna gücü yox idi.

– Son dayanacaq! Son dayanacaq! - səsi tövlədən bayıra buraxılmayan öküz səsi kimi boğuq olan avtobus sürücüsü bağırırdı.

Yuxusunu aldığı üçün beyni xeyli rahatlamışdı, avtobusda bir tək o qalmışdı, öz gediş haqqısını verib düşdü. Üzünü ovuşdurub ətrafa göz gəzdirdi, düşündüyü başına gəlmişdi. Avtobus dumanlı hava səbəbi ilə sonuncu məhəlləyə kimi getməmişdi. Duman olsa da, hava səhərkinə nisbətən daha mülayim idi. Əlini cibinə atdı, siqareti qalmamışdı, almağa pulu da yox idi. Amma cibi isti idi, əlini cibindən heç çıxarmaq istəmədi, gecənin boşluğuna addım atıb yoluna davam etdi. Soyuq havanı içinə çəkdikcə ciyərlərinə dolan oksigen qanına yayıldıqca beyni açılır, beyni oyandıqca daha da çarəsizləşirdi. Ətrafa boylanır, üzün səmaya tutur, gözlərini yumub içinə daha çox təmiz hava çəkir, yenə iki metrdən o tərəfi dumandan görünməyən yol ilə addımlayırdı.

Artıq evinə çatmışdı, adətən, o evə qayıdana kimi mətbəxin yola baxan pəncərəsinin işığı yanıq olardı, indi yanmırdı. Qəribədir. Açarı çevirib qapını açdı, ev zülmət içində idi. Amma yataq otağından bir hənirti gəlirdi, körpəsi hələ də yatmamışdı, dəhlizin işığını vurdu, yanmadı... Ev bayırdan da soyuq idi. Küçəyə çıxdı. Evinin içində yalnız çarəsizlik var idi, bayırda isə bir ümid... Həm də dərin ümidsizlik!

# BÖYÜDÜYÜM OTAQ

**(hekayə)**

Qarşısında balaca şüşəbənd olan bu otağa biz “nənənin evi» deyərdik. Bu balaca otağın nahamar divarları palçıq suvaqla suvanmış, ağ əhənglə ağardılmışdı. 3 ədəd kiçik, dar pəncərəsi gül formalı dəmir çərçivəylə haşiyələndiyindən otaq bir az da balaca görünərdi. Pəncərələrin ikisi bağımıza baxardı, o biri isə şüşəbəndə tərəf olduğundan oraya anam artıq yük (yorğan-döşək) yığardı. Bu otaqda babam rəhmətə getdikdən sonra nənəm, iki bacım, iki qardaşım yatardı. Mən isə yan otaqda anamgillə qalırdım. Hər gecə bacımgilin gülüşməsi, səs-küyü yan otaqdan eşidilirdi. Anamdan ayrılmaq mənə çox çətin gəlsə də, o otaqda yatmaq çox maraqlı idi. Bir dəfə gecə yarısına kimi səs-küy gəldi. Gülürdülər, əylənirdilər. Səhər isə çox böyük həvəslə danışdılar ki, gecə böyük qardaşım yuxudan qalxıb, yerinin içində oturub, mahnı oxuyub, oynayıb, bunlar da kefə baxıb. O gün qərar verdim ki, mən də artıq böyümüşəm və bundan sonra anamla yatmayacağam. Üç çarpayının çətinliklə sığdığı bu otağa bir də ayağı sınıq divanımızı qoydular ki, mənə də yer olsun. O da xeyli yer tutduğundan otaq daha da darısqal olmuşdu.

Amma elə həmin gecə də o otağa keçdiyimə peşman oldum. Ondan sonra bir dəfə də kimsə deyib-gülmədi. Elə bil məni gözləyirdilər, sözləmişdilər, sanki bu, məni anamdan ayırmaq üçün bir plan idi. O gündən sonra hamı yerinə girən kimi yuxuya getdi. Amma geri qayıtmağa da üzüm olmadı, ta nənəm ölənə kimi - yəni on birinci sinifdə oxuyana kimi o otaqda yatdım. Dərslərimi də burda oxudum. Otağın ikitaylı, göy rəngli qapısı var idi və üzərindən asılmış ağır zəncir ilə arxadan bağlanırdı. Kimin xəlvət işi olsaydı, ora qaçırdı, çünki bağladınsa, özündən başqa heç kim aça bilməzdi. Qapıdan sağda qədimi bir dolab var idi. Evimizdə yeganə dolab bu olsa da, səkkiz nəfərin hamısının paltarı sığardı. Sol tərəfdəki şüşəli gözdəki rəflər nənəmin idi. Özünə məxsus paltarları – qat-qat (onun dili ilə qırçınlı) ətəkləri, kəlağayıları orda olardı. Bu otağın altı zirzəmi idi və burada bir xəzinə yatırdı. Palçıq suvaqla suvanmış bu zirzəmi mənə çox sirli gəlirdi. Bura ancaq neft fanarı ilə düşərdik. Anam yay uzunu bağladığı balon-bankaları səliqə ilə düzərdi bura, biz də qonaq gələndə, ya da canımız çəkəndə döşəmədəki qapağı qaldırıb düşərdik, nəsə götürüb qalxardıq. Bəzən gecələr şişib xarab olmuş balonların qapağı atardı, səsə hamı yerinin içində dik oturardı. Bir il qış uzunu götürdüyümüz bütün kompotlar xarab çıxdı. Nənəm, anam elə hey dedilər ki, biz bu neçə ildə belə bir şey görməmişik. Bir gün bacım iş üstə yaxalandı. Sən demə, hər gün xəlvət zirzəmiyə düşüb, kompotun yarısını içib üstünə su tökürmüş.

Bir gün dərsdən gəlib gördüm ki, otağın pəncərəsində bir qəzet var. İlk səhifədə su pərisi şəkli var və başlıqda yazılıb ki, dənizin kənarında su pərisi tapılıb. Səhər məktəbə gedib çatan kimi bu xəbəri hamıya yaydım. Dedilər ki, inanmarıq, gətir, özümüz görək. Gəlib evi axtardım, qəzeti tapmadım. Qızlar dedi, yox ee, yalan danışırsan, olsaydı, elə qəzeti gətirərdin. Dedim “Allah haqqı, nənəm yatan pəncərədə idi”. Bütün mövzular unuduldu, bir ay hamı mənə güldü ki, “nənəsi pəncərədə yatır”.

* * *

Atam Moskvaya gedəndə ətirli sabunlar gətirmişdi, elə bil rəngli şüşələr idi. O vaxtlar belə şeylər olmazdı, ən azı biz ilk dəfə görürdük. Narıncı şüşəyə oxşayan ətirli sabun çox xoşuma

gəlmişdi. Onu isə atam nənəmə verdi. Nənəm də onu paltarlarının arasına qoydu və dedi ki, mən öləndə məni bu sabunla yuyarsız. Aylarla o sabundan heç olmasa bir dəfə istifadə edə bilmək üçün planlar fikirləşdim. Bir gün evdə heç kim olmayanda sabunu götürüb bıçaqla bir küncünu qazıdım, qırıntılarla əlimi yudum. Artıq arzuma çatmışdım, əllərimdən çox gözəl qoxu gəlirdi. Amma nə qədər çalışdım ki, elə edim, sabuna toxunduğum bilinməsin, sabunu daha da pis hala saldım.

3 gün sonra nənəm bu hadisədən xəbər tutdu. Aləm dəydi bir-birinə. Hamı, o cümlədən mən də and içdik ki, xəbərimiz yoxdur bu işdən. Nənəm çox əsəbiləşdi. Bir qəhvəyi çamadanı var idi. İçində ölən bibimdən yadigar qalan əşyalar, bibimin uşaqları ilə şəkilləri var idi. Elə o gün çamadanı aparıb zibilliyə atdı və neft töküb hər şeyi yandırdı. Günahkar olduğumdan ona nə qədər yalvarsam da ki, belə etməsin, məni eşitmədi. Cəmi bir şəkli götürə bildim. O şəkli nənəm ölənə kimi sinəsində gəzdirdi.

Hətta vəsiyyət etmişdi ki , onu elə o şəkillə dəfn etsinlər.

***

Bu otağın çox gözəl qoxusu var idi. Xüsusən də qışda dərsdən gəlib içəri girəndə odun sobasının üstündə bizim oralara məxsus yeməklər buğlanardı. Nənəm hər şeyi yeməzdi, ona görə də çox vaxt elə öz otağında yeyəcəyi yeməkləri bişirərdi və o yeməkləri onun kimi bişirən olmazdı - şabalıdlı buğlama, dulqun, kələmsıyığı, toxumsıyığı, qabaqsıyığı, şırtılı. Peçin altından qovrulmuş şabalıd, qoz-fındıq əskik olmazdı. Hər zaman da sobanın üzərinə qızıləhmədi alma, heyva düzərdi nənəm. Bişincə ləzzətindən doymaq olmurdu. Pəncərədə isə ağ buludlarda nənəmin bişirib qoyduğu «çayiçən şey» olardı. Bu şirniyyatın adı elə beləcə idi. Qızıləhmədi almanın mətinə çəkilmiş qoz töküb bişirərdi bunu və sonra da buludlara yayardı nənəm. Soyuyunca da qaşıqla qoparıb çay içərdik. Nənəm bunu evdən əskik etməsə də, o qədər də qıymazdı bizə, hələ bizdən incik olsaydı, heç toxunmağa da qoymazdı.

Bir dəfə məktəbdən gəldim. Qar elə yağırdı ki, soyuqdan dişlərim bir-birinə dəyirdi. Otağa girdim ki, nənəm yenə bişirib-düşürüb. Xoş qoxular bir-birinə qarışıb. Təzəcə bişirdiyi «çayiçən"i də buluda yayır. Gördüm nənəm hirslidi, bildim ki, verməyəcək bundan yeyim. Xeyli nə edəcəyim barədə düşündüm. Ağzım sulanır, qarnım quruldayırdı. Getdim anamın yanına, gördüm anam bacılarımla nənəmdən danışır. Bildim ki, mən olmayanda işlər qarışıb. Anamgilin nə danışdığına qulaq asmadan qaçdım nənəmin yanına. Dedim ki, sən mənə «çayiçən"dən ver, mən də sənə sirr açım. Nənəm qaşıq-qaşıq «çayiçən» verdikcə mən də anamla bacılarımın danışdıqlarının üzərinə əlavələr edib nənəmə dedim. O qədər yalan dedim ki, özüm də inandım. Bir də baxdım ki, nənəm həvəsə gəlib buludun yarısını mənə yedirdib. Səhər durdum ki, bütün bədənim səpib. Anamgillə nənəm də bir ay danışmadılar. Qarnım gözümü elə tutmuşmuş ki, nələr uydurduğumu heç xatırlamırdım!



## ƏSGƏR ORDUBADLI

### QƏHRƏMANLARA

Addımı qətiydi, inamı möhkəm,
Bu millət yolundan dönən deyildi.
Xalqın ürəyində otuz illik qəm,
Bax onlar bu qəmi qanıyla sildi.

Qarabağ qolların açmışdı o gün
Eşidib oğlunun ayaq səsini.
Nəğmə oxuyurdu qəhrəman üçün:
– Gəl ver erməninin, gəl ver dərsini.

Sanki dil açmışdı daşlar, qayalar,
Deyirdi – Yol verin qəhrəmanlara.
Təzim eyləyərək güllər, ağaclar
Alqış söyləyirdi o gün onlara.

İrəli gedirdi məğrur oğullar,
Düşmənin başına od ələyirdi.
Havada uçuşan sevincli quşlar
Onlara mahnılar bəstələyirdi.

Qəhrəman gedirdi düşmənə sarı,
Qırmaq istəyirdi zülmün zəncirin.
Azad eylədikcə o torpaqları
İlhamı artırdı məğrur şairin.

Susmuşdu qələmlər, tarix yazanlar.
Tarixi yazırdı silah səsləri.
Bir zaman tarixdən kafi alanlar
Çox gözəl yazdılar tarix dərslərin!

### İNSAN OĞLU

Ləkələnmiş vicdanları,
Ara vuran insanları;
Pul üstündə üsyanları
Görmədinmi, insan oğlu?

Getdi ömrün ən xoş günü,
Yola saldın toy-düyünü;
Qəm üstündə öz ömrünü
Sürmədinmi, insan oğlu?

Kef kök oldu – İçdin, yedin,
Coşdun, dünya mənim dedin;
Ac ağlarkən sən tox idin -
Bilmədinmi, insan oğlu?

Tükənmirdi pulun ardı,
O gün qış da ilk bahardı;
Yüz maşının, evin vardı -
Ölmədinmi, insan oğlu?

### ALLAHINDIR

İllərdir səmaya çəkirlər keşik -
Günəş Allahındır, ay Allahındır.
Biz baxıb ulduza sonsuz demişik -
Ona məxsus olan say Allahındır.

Rəbbinə əyandır həyatda hər iz,
Odur ən müqəddəs, odur ən əziz;
Neçə əsrlərlə dolmayan dəniz,
Axmaqla bitməyən çay Allahındır.

Tək ona məxsusdur bütün yaranan,
Nadandır, nankordur Rəbbini danan;
Ay Əsgər, unutma ruzi adlanan
Sənə göndərilən pay Allahındır...

### İTİB QALMIŞAM

Şeirim, sənətim çiçəyə dönüb,
Kimsəsiz torpaqda bitib qalmışam -
Vüsala yetməyən diləyə dönüb,
Ruhsuz ürəklərdə itib qalmışam.

Min yol incimişəm taleyə, baxta,
Gülüşlər mənasız, sevinclər saxta;
Sevgi vağzalına çıxdığım vaxtda
Məhəbbət qatarı ötüb, qalmışam.

Əsgər baxışlardan sevdaya gəlib,
Görüşə gəlməyən röyaya gəlib;
Dəstə torpağında dünyaya gəlib -
Mən gör haralarda gedib qalmışam...

## YAZAMMADIM

Yazdım neçə nəğməni
Bir gözəlin adına -
Yazdığım bir nəğmədə
adını yazammadım...

Gülüşünə gül dedim,
Saçlarına zər dedim;
Yanağında gül açıb
Sanki lalələr, dedim;
Hüsnünə Pəri, Leyla
Dilinə şəkər dedim -
Baldan şirin dodaqların
dadını yazammadım...

Yad bülbül nəğmə qoşub
Mən sevdiyim güləmi?
Yad ocağa, yad evə
Sən köçürsən, eləmi?
Sevgi kitabım yandı,
Sındı eşqin qələmi -
Ürəyimə bir özgə
qadını yazammadım...

Mən səni unutmadım
Getdiyin ana qədər;
Dəyərli yarım oldun,
Yadın olana qədər;
Sənə şeir də yazdım,
Xoşbəxt ol sona qədər -
Nədənsə o şeirdə
Qəlbimin atəşini,
odunu yazammadım...

## ŞAİR

Şair, bu yük ağırdır,
Çəkə bilirsənsə, çək.
Sənətkarın qələmi
Haqqı söyləsin gərək.

Şairlik – mətin olmaq,
Şeir – haqqı deməkdir;
Əgər doğru demirsə,
O söz kimə gərəkdir?
İstəyə bağlı deyil,
Sahibi var ilhamın;
Şöhrətə salma meyil,
Azalar ehtiramın.

Var - dövlətə əyilmə,
Dik dayansın qamətin;
Bax onda böyük olar
Mənliyin, şəxsiyyətin...

## MƏKTƏB İLLƏRİ

İllərin xatirəsi
gözlərimdə canlanır,
Bu hicranın odundan
qəlbim məşəltək yanır;
Yenə şirin xəyallar
çəkir keçmişə məni,
Mən gedirəm, səsləyir
məktəb görüşə məni;
Ayrılmaq istəmirəm,
fəqət yetib vədə, vaxt,
Bu gündən yollarımız
daha ayrı olacaq...

İtəcək qulağımdan
zənglərin həzin səsi,
Xatirəmdə qalacaq
xoş günlərin nəfəsi;
Uzaqlardan gələcək
eşqi müəllimlərin,
Unudulmaz bir anı
o qayğısız illərin;
O susqun partaların
önündə özgələr var,
Yad səslərlə dolacaq
həm dəhlizlər, otaqlar...

Uzun illər ötsə də,
dəyişsə də fəsillər,
Bizi əvəz etsə də
sondan gələn nəsillər;
Fəqət məktəb heç zaman
unutmayacaq bizi,
Yaddaşına həkk edib
bizim şən səsimizi...

Mehriban müəllimlər hanı o əziz dostlar?
Hərəsinin öz evi, indi öz ailəsi var...



## MƏLƏK YAZAR

### HARALARDASAN?

Bu necə intizar, bu necə zülm,
Elə bil qapıma dayanıb ölüm;
Səndən xəbər alammıram, sevgilim,
Nəfəsim kəsilir, haralardasan?

Sənin yoxluğunu hiss edən vaxtdan
Gözümü çəkmirəm gedən saatdan;
Sənsiz dözə bilmirəm bu həyatdan,
Əllərim üzülür, haralardasan?

Çöküb ürəyimə bir acı həsrət,
Sənsizliyə çarə qalmayıb, əlbət;
Mənə bəxş etdiyin ülvi məhəbbət
Gözümdən süzülür, haralardasan?

Bir kəlmə söz gəlmir dodaqlarıma,
Niyə cavab gəlmir soraqlarıma?
İsti göz yaşlarım yanaqlarıma
İncitək düzülür, haralardasan?

### KÜSMƏK İSTƏYİRƏM

Mən necə yaşaram sən olmasan, yar,
Əhvalım daima kədər, qəm olar;
İndidən düşünüb olacaq nə var -
Küsmək istəyirəm bütün dünyadan...

Üzümü güldürən gülüşün idi,
Ağlar gözlərimi kim silsin indi?
Bilmirəm içimə dolan nə kindi,
Küsmək istəyirəm bütün dünyadan...

Əl açıb dualar etdim Allaha,
Bu kin küdurəti yazma günaha;
Başqa əlacım yox, nə edim daha?
Küsmək istəyirəm bütün dünyadan...

### DUR ARTIQ, ÜRƏYİM

Bu fani dünyaya gəldim, gələni
Görmədim vəfalı qədir biləni;
Bu dünya bəxtəvər etmədi məni -
Əzəldən dünyaya gəlməzdim gərək,
Dur artıq, ürəyim, dur, çıxaq gedək.

Kimə xoş davrandım güldü üzümə,
Arxamca əlli qulp qoydu sözümə;
Peşmanam deyirəm özüm-özümə -
Əzəldən bunları etməzdim gərək,
Dur artıq, ürəyim, dur, çıxaq gedək.

Alnıma bunlarda kaş yazılardı,
Əlçatmaz naümüd, boş xəyallardı;
Ardıyca düşdüyüm xoş arzulardı -
Əzəldən ardıyca düşməzdim gərək,
Dur artıq, ürəyim, dur, çıxaq gedək.

Mən öz taleyimin əsiri oldum,
Ölməmiş torpağın üstündə soldum;
Eşqin yollarında yaman yoruldum -
Əzəldən bu yolu getməzdim gərək,
Dur artıq, ürəyim, dur, çıxaq gedək.

### YAMAN DARIXIRAM MƏN

Mən əvvəl bilmirdim darıxmaq nədir,
Gəlməyinin yoluna çıxmaq nədir;
Şəkillərə həsrətlə baxmaq nədir,
Sənin üçün yaman darıxıram mən...

Səhər həsrətlə açıram gözümü,
Dar bir qəfəsdə sanıram özümü;
Tək xəyalından alıram dözümü,
Sənin üçün yaman darıxıram mən...

Sanki tək varlığım sənsən dünyada,
Nəfəsim daralır, düşürsən yada;
Bilmirəm axtarım, gəzim harada,
Sənin üçün yaman darıxıram mən...

Mümkün deyil sənsiz günləri sayam,
Çünki həyat bitir, ömrü yarıyam;
Bilmirəm dünyanın harasındayam,
Sənin üçün yaman darıxıram mən...

Qəlbinə dəymişdim biz ayrılanda,
Sınıq ürəyimdən yara alanda;
Yazdığım son şeirin misralarında
Sənin üçün yaman darıxıram mən...

## ÖMÜR PAYIM

Sən məni canından artıq sevirsən,
Qədrimi hər kəsdən artıq bilirsən;
Mənə öz canımdan artıq birisən -
Sənsən ümid yerim, ünüm, harayım,
Yaxşı ki, varmısan, ay ömür payım...

Sən gülsən, sevinər, yar, ürəyim də,
Sən üzülsən, yağar qar ürəyimdə;
Sən adlı bir sevgi var ürəyimdə -
Səninlə qurulub könül sarayım,
Yaxşı ki, varımsan, ay ömür payım...

Gözlərim cəlladdı, kirpiklərim ox,
Sancmışam qəlbinə, say-hesabı çox;
Mənim həyatımda bərabərin yox -
Tək sənsən ruhuma əkizim, tayım,
Yaxşı ki, varmısan, ay ömür payım...

Fəsillər əks olur xoş niyyətində,
Payız yazılmasın kaş qismətində;
Heç zaman görünmə qış xislətində -
Həmişə belə qal baharım, yayım,
Yaxşı ki, varmısan, ay ömür payım...

Məni gözlərinə həsrət qoyma, yar,
Axı o gözlərdə məhəbbətim var;
Bircə gün görməsəm, dünyam qaralar -
Çünki, gözlərindi Günəşim, ayım,
Yaxşı ki, varmısan, ay ömür payım...

Qalmışdı dərdlə baş-başa ürəyim,
Qüssədən dönmüşdü daşa ürəyim;
Dedin: Mənə tutun yaşa, mələyim -
Qoymadın öləcək günümü sayım,
Yaxşı ki, varmısan, ay ömür payım...

## KÜSDÜR ÜRƏYİMİ BU MƏHƏBBƏTDƏN

Verdim ürəyimi zalım bir yarə,
Qəlbinə sığınıb qaldım biçarə;
Bu eşqin dərdinə yoxsa bir çarə,
Allahım, azad et məni bu dərddən,
Küsdür ürəyimi bu məhəbbətdən...

Atıb məhəbbətin sərt caynağına
Məruz qoyma məni el qınağına;
Yalvarıram: Son qoy eşq sınağına -
Allahım, xilas et məni bu dərddən,
Küsdür ürəyimi bu məhəbbətdən...

Gündüzüm qaralır görməsəm üzün,
Bitdiyi yerdəyəm artıq hər sözün;
Təkcə sən bilirsən, təkcə sən özün -
Allahım, islah et məni bu dərddən,
Küsdür ürəyimi bu məhəbbətdən...

## ƏLVİDA DEMƏ

Əlvida söyləyib hara gedirsən,
Mən sənsiz ölərəm, sən ki bilirsən;
Axı sən hələ də məni sevirsən,
Bu sevgi bitməmiş əlvida demə...

İllərlə bəsləyib bu eşqi ürək,
Altı hərf ilə necə bitirək;
Bizi bir araya gətirən fələk
Ayrılın deməmiş əlvida demə...

Gedirəm desən də, getmir ayağın,
Çünki, ürəyimdi evin-ocağın;
Mənimlə birlikdə gələn sorağın
Hələ kəsilməmiş əlvida demə...

Getməmiş çevrilib göz yaşın selə,
Kim sənə nə deyib, de görüm hələ;
Nədir səni məndən ayıran belə,
Səbəbin deməmiş əlvida demə...

İndidən bürüyüb kədər üzünü,
Bu qədər çarəsiz sanma özünü;
Danış ürəyinlə, dinlə sözünü,
O qərar verməmiş əlvida demə...

Bitirər bu gediş ikmizi, yar,
Üzər qəlbimizi həsrət, intizar;
Hələ gözlərində eşqin izi var,
O izi silməmiş əlvida demə...

Mələk halal etdi sənə bu canı,
Səbəbsiz gedişin yıxdı dünyanı;
Səni ölümünə sevən insanı
Məzarda görməmiş əlvida demə...



SƏBAHƏDDİN ÇİNGİZOĞLU

# DÜNƏNİN SABAHI

(hekayə)

Qış yenə evlərinə qonaq gəlmişdi. Yağış pəncərələrinin kirli sifətindən ayaqlarına doğru süzülürdü. Eyvanlarındakı əhənglənmiş ağ soba qıpqırmızı idi. Kofedən bir qurtum içib barmaqları ilə klaviaturanın üstündə çaqqa-çaraq salmağa başladı. Az keçmiş artıq tərləməyə başlayırdı. Rahat işini görmək üçün köynəyini çıxardırdı ki, külək var gücü ilə necə əsdisə, sobanın havasını geri qaytardı, alov sobanın ağzından çıxıb bir az yuxarı doğru qalxdı. Yəqin ki, bayaq işdən qayıdarkən gördüyü, səkinin kənarında oturub divara qısılaraq paltosununun varatnikini qulaqlarına çəkən kişi indi əmgəyinə soyuq dəyməsin deyə başının üstünü də örtürdü. Həmən mənzərə gözünün qabağında canlandı. Cərayan vurmuş kimi oldu, dik qalxdı ki, qocanın yanına qayıtsın, sobanın qızartısı və adını bilmədiyi hansısa qüvvə onu çəkib stula pərçimlədi. Deməк ki, insan siluetində olmaq hələ insaq olmaq demək deyilmiş. İnsanlar insanlığı məhv etdikcə, bu boz cəmiyyət insansızlaşırdı.

Anidən gələn mesajın cingiltili bildiriş səsi onu xəyal dünyasından qoparıb yenə çirkaba bələnə-bələnə məsumiyyətdən bu boz cəmiyyətə doğru qartopu misalı yuvarladı.

– Salam! Necəsən, canım?

– Salam, Könül. Şükür, sən necəsən, həyatım?
– Sağ ol, ömrüm.

Bu minvalla bir neçə saat danışdıqdan sonra məcburən sağollaşmaq qərarına gəldilər.

Əslində ikisi də vaxt keçirirdilər və hər ikisi bunun fərqində idi. Lakin,onların məqsədi hazırkı tendensiyaya qoşularaq sadəcə həvəsləri naminə özlərini qurban verməк idi. Bir insan özünü əzalarını satmadan da hərraca çıxara bilər.

Artıq yatmaq vaxtını ötürdüyündən Eltacın yuxusu gəlmirdi. Bir az sosial şəbəkədə gəzməyi planlaşdırdı. Az sonra, saytlardan birinin paylaşdığı məqalənin başlığı onu dayanmağa məcbur etdi. Başlıq belə idi: «Qonşusuna əxlaqsız təkliflər edən şəhər sakini saxlanıldı». Köksündə cilvələnən qeyrət onu ictimai qınağa təşviq edirdi. Yubanmadan paylaşıma münasibətini bildirdi: «Nə şərəfsiz zəmanəyə gəlib çıxdıq e. Nahaq yerə ölüm cəzası ləğv olunub. Belə şərəfsizləri öldürmək lazımdı». Daha toxtaqlıq tapdığına görə gedib yatmaq qərarına gəldi. Yorğanı üstünə sıyıranda naməlum bir hiss onu ağuşuna aldı. Yorğan onun vücudu boyu sürüşdükcə sanki sığallayırdı. Axırıncı dəfə belə bir xəfif toxunuşu çoxdan, lap çoxdan hiss etmişdi. Uşaq vaxtı anası onu əlini kibritlə yandırdığına görə o ki var, döyəndən sonra ağlayaraq bağrına basıb başını tumarlayanda. Bu illər arasında keçid edərək keçmişdəkiləri xatırladıqca özünü Robinzon Kruzoya bənzədirdi. Ani olaraq qəriblik hissi onun yaxasından yapışırdı. Öz-özünə yavaşca dedi: «Yaman qəribə gecədir». Əks-səda üç, dörd dəfə zınqırov vurarcasına aydın duyuldu. Xəyala dalaraq özü ilə söhbət etməyə başladı.

Hamı cəmiyyəti öz yaşamı istiqamətində təsnif edərkən iki qola ayırır. Xoşbəxt və bədbəxt. Bu ifadədə də özünəxas bir qəribəlik var. Yadına Tolstoyun statı düşdü. «Bütün xoşbəxtlər eyni cür xoşbəxtdilər, bədbəxtlər isə hərəsi bir cür bədbəxtdir». Bəs görəsən xoşbəxtlər də bədbəxt ola bilərmi, ya əksinə? Yəni, bunlar ikisi bir arada ola bilərmi? Hə,hə niyə olmur ki? O de ey qonşumuz Füzuli. Hər gün içir, deyir, gülür. Hələ üstəlik evə gəlib arvadını da döyür. Deyir həyatda yeyib-içib kef eləmək lazımdır. Xoşbəxtdir, amma bədbəxt olduğunun fərqində deyil. Hə, bu arada həyat bəzən divarın digər tərəfində içkili əri tərəfindən səbəbsiz yerə döyülən qadının fəryadına reaksiyasız qalmaq qədər rəhmsizdir. Dayan, dayan. Yaxşı, mən kiməm? Mənim Füzulidən, ya lap elə səkinin kənarındakı bədbəxt qocadan fərqim nədir? İşim-gücüm, ailəm, kefim - hər şey öz yerində. Mən axı xoşbəxtəm. Mən bədbəxt deyiləm demək istəyirdim ki, birdən Könüldən mesaj gəldi?

– Yatmamısan? Onlaynsan axı.

Öz-özümə düşündüm. Mənim Könüllə bağlı heç bir ciddi fikrim yoxdur. Bayaq dediyim şərəfsizin, bəlkə, elə biri mənəm? Bəlkə, elə ən böyük bədbəxt mənəm? Axı əbədiyyətimi ötəri nəsnələrə həzm elətdirirdim. Yeyirdilər, özü də ki doymurdular. Hər gün bir az daha məhv olurdum. Bunu mənə hələ də közərməkdə olan vicdanım deyirdi. Yox, mən elə ölməliyəm. Bu saat saplayacam ürəyimə o zəhəri. Otaqdan çıxmaq üçün əlimi qapının cəftəsinə doğru aparanda qoca yadıma düşdü. Yox, yox qoy onu xilas edim. Sabah səhər tezdən mütləq qocanı gətirəcəm evə. Özünü öldürmək çıxış yolu deyil. İş o qədər baş qatıb ki, heç nə düşünmürəm ey. Hamı eyni proqram əsasında işləyən robota bənzəyir. Səhər açılan kimi iş, sonra evə qayıtdın, yemək yedin, yatdın. Səhər yenə eyni proseslər. Ətrafa qarşı bir növ duyğusuz yanaşırıq. Kaş elə dünən gətirərdim. Kaş dünəndən adam kimi yaşamağa çalışaydım. Kaş, kaş, kaş və nöqtə nöqtə, nöqtə. Huh... Qurtardım daha bütün bu zibillərlə . Sabahdan normal həyata qayıdıram. Saata baxdı, 03:00 göstərirdi telefonda. Yenidən yorğanın altına girib gözlərini yumdu.

Budilnikin səsi onu məcbur oyatdı. Saat 8-ə qalırdı. İşə gecikirdi. Bir tikə çörək belə yemədən tələm-tələsik əynini dəyişib evdən çıxdı. İri addımlarla irəliləyir, şikarını ovlamaq istəyən şir kimi çatacağı ünvana şığıyırdı. Birdən irəlidə gördüyü mənzərə onu duruxdurdu. Qaçaraq yaxınl aşdı.

– Nə olub? Deyəsən, həmin qoca kişi idi, xərəkdə ambulansa mindirirdilər.

Başında qara papaq olan şaxtadan əlləri çat salmış,üzündə qırışların yarışdığı arıq sifətli oğlan dilləndi:

– Biz komxozun işçiləriyik. Səhər tezdən buranı təmizləyəndə gördüm ki, bir nəfər divara qısılıb qalıb. Güman etdim ki, gecədən burdadır. İstədim oyadıb yemək filan verək, nə olar ey insanlıqdı da. Hə, əlimlə birbalaca toxunmuşdum ki, aşdı. Necə bükülüb qalmışdısa, yıxılandan sonra da eləcə qaldı. Yəqin ki, çoxdan keçinmişdi. Sonra da təcili yardıma zəng etdim. Gerisi də gördüyün kimi, qardaş».

Dodaqaltı öz-özümə danışmağa başladım. Həyat prioritetlər üzərində qurulur. Gec atılmış hər bir addım yüklənən əziyyət deməkdir. Bu hadisə ömrümün axırına kimi mənim vicdanımı sızıldadacaqdı. Başımı qaldırıb ani göyə baxdım, sonra da gözlərimi ayağlarıma cütləyib yoluma davam etdim.

Həmişəki kimi yolum yenə sovet vaxtında tikilən iki mərtəbəli məktəbin arxasından keçirdi. Hövlnak gedirdim. Fikrimi divranın dibində halədə tüstülənməkdə olan kül ayırdı. Dəftərlər qalaqlanmışdı. Mənim yolumun üstünə də bir dəftər düşmüşdü. Baxmayaraq ki, daldanacaq idi, amma axşam ki vəhşi külək yəqin, bu basırığı da ağuşuna almışdı. Eləcə yubanmadan gedə-gedə əlimi dəftərə atıb yerdən götürdüm və yola başladım.

4C sinif şagirdi Abbasov Firuz Emin oğlunun Ana dilindən yoxlama yazı işi dəftəri. Dəftərin rəngindən köhnə illərə aid olduğu bilinirdi. Öz uşaqlığım yadıma düşdü. Ayağım yerə dəydikcə qırılıb gələn səsimlə «Eh gidi dünya» dedim. Daha sonra birinci səhifəni açdım və ani olaraq taqətdən düşdüm, enerjim çəkildi, süstləşdim və ürəyimdən ağrı sancdı. İlk səhifədə belə yazılmışdı.

**28.10.2007**
**İnşa**
**Vicdan nədir?**



## HƏNİFƏ ŞƏBNƏM

### SƏNDƏN SONRA

O qədər dağ çəkmisən,
Alışıb yanır sinəm -
İçimdə ağlayıram,
Dodağım qoymur dinəm.

Olubdu hər sözün ox,
Sağalmayan yaram çox;
Ömür bitir, cəzam yox -
Xəyallara sürgünəm.

Gizlin-gizlin sızlayan,
Xəyalını izləyən;
Əgər səni gözləyən
Varsa, o təkcə mənəm.

İçimdə ağlayan səs
Deyir: Almıram nəfəs -
Varlığın oldu qəfəs,
Yoxluğundan üzgünəm.

Saçımda görünən dən
Şəbnəmə deyir hərdən:
– Könül yetimliyindən
Məkansız didərginəm...

### MƏNİ OCAQ İSİTMİR

Şüşəydi, sındırmısan,
Könlüm yarası bitmir;
Nəfəsin isidərdi,
Məni ocaq isitmir.

Öz evimdə qonağam,
Yetim qalan uşağam;
Mən eşqimə dustağam,
Cəza müddətim bitmir.

Təzə yuva arama,
Yad telini darama;
Duz səpdiyin yarama
Təbib məlhəmi yetmir.

Bacadan dan sökülür,
Yuxum ərşə çəkilir;
Yalqız boynum bükülür,
Gözümə yuxu getmir.

Hicrana dözmür ürək,
Olubdu yaman kövrək;
Şəbnəmi kür uşaqtək
Şirin layla ovutmur...

### GÖZLƏRİNƏ QURBAN

Yatma qəflət yuxusunda,
Oyan, gözlərinə qurban;
Məni süzgün bir baxışla
Duyan gözlərinə qurban.

Baxıram solan üzünə,
Sanki qor dolur gözümə;
Bilirdim səni özümə
Həyan, gözlərinə qurban.

Bir dağınıq köç olaram,
Daim köçhaköç olaram -
Getmə, sənsiz heç olaram,
Dayan, gözlərinə qurban.

Səni itirdiyim andan,
Dolanıram yarı canla -
Mən səndən doymamış məndən
Doyan gözlərinə qurban...

## SƏN OLMADINMI?

Hər qeylü-qalım,
Dərdim, məlalım,
Çaşqın xəyalım
Sən olmadınmı?

Məst olub axan,
Könlümü yaxan,
Biganə baxan
Sən olmadınmı?

Pərişan halım,
Uğursuz ilim,
Çəkdiyim zülm
Sən olmadınmı?

Qovğalı başım,
Dolaşıq işim,
Sərt gələn qışım
Sən olmadınmı?

Şamsız otağım,
Vaxtsız qonağım,
Töhmət, qınağım
Sən olmadınmı?

Soyuq ocağım,
Yoxsul bucağım,
Ağlar uşağım
Sən olmadınmı?

Dağınıq huşum,
Ağrılı dişim,
Axan göz yaşım
Sən olmadınmı?

Yıxılan taxtım,
Selində axdım;
Kəm olan baxtım
Sən olmadınmı?

Odsuz yandıran,
Ürək sındıran,
Küsüb dindirən
Sən olmadınmı?

Qəddimi əyən,
Xətrimə dəyən,
Şəbnəmə qıyan
Yorulmadınmı?

## AY BÜLBÜL

Yenə səsin düşüb bağa
Açılmamış dan, ay bülbül.
Dönmüsən yetim uşağa,
Susmursan bir an, ay bülbül.

Yandırırsan, bu nə səsdi,
Naləndimi, ya həvəsdi?
Öz dərdim özümə bəsdi,
Salma nahaq qan, ay bülbül.

Dərd əlindən divanəyəm,
Sanma sənə biganəyəm;
Oda düşmüş pərvanəyəm,
Yanıram pünhan, ay bülbül.

Qırov tutub saçımda dən,
Adət olub gözümdə nəm;
İncidilən könlümü sən
Eləmə viran, ay bülbül.

Ağrım-acım məni sökür,
Atıram da, aparmır Kür;
Aç sinəmi, gözünlə gör,
Yaram verir qan, ay bülbül.

Dərdi dərmansız xəstəyəm,
Daim qulağı səsdəyəm;
Qardaşsız son nəfəsdəyəm,
Verəmmirəm can, ay bülbül.

Bağçaya yenə yaz gələr,
Çəmən çiçək açıb gülər;
Ürəyindən qəmi silər,
Bəs neyləyim mən, ay bülbül.

Şah budaqda oturarsan,
Yenə də cəh-cəh vurarsan;
Təzədən yuva qurarsan,
Olarsan bir xan, ay bülbül.

En budaqdan, həmdəm olaq,
Bir-birinə meyil salaq;
Mən xəstəyə sən göz qulaq
Ol, halıma yan, ay bülbül.

Çölün, çəmənin tacısız,
Şəbnəmə ağlar bacısız;
Gəz dolan ağrı-acısız
Tap gözəl məkan, ay bülbül...

## A DAĞ ÇƏKƏN

Yüz əlli il ömür yaşa,
Allah səni öldürməsin;
Nə dərdinə dərman olsun.
Nə üzünü güldürməsin -
A dağ çəkən...

Dərdin boğazından açsın,
Ağzında dilin dolaşsın,
Geçə köynəyin alışsın,
Odunu su söndürməsin -
A dağ çəkən...

Necə girdin günahıma,
Eləcə də yan ahıma;
Yalvarıram Allahıma:
– Dərd- azarın soldurmasın -
A dağ çəkən...

Qəm-qəhərə bürünəsən,
Gözü nəmli görünəsən;
İlan kimi sürünəsən,
Kimsə səni qaldırmasın -
A dağ çəkən...

Canından çəkəsən çilə,
Ahın-nalən gəlsin dilə;
Canın odda elə yansın,
Gördüyünə şükür elə -
A dağ çəkən...

Başın özünə qarışsın,
Varlığımı unudasan;
Ayılanda görəsən ki,
Dərdin dəniz, sən adasan -
A dağ çəkən...

Arzuların dəysin daşa,
Ümidlərin çıxsın boşa;
Var-dövlətin olsun, amma
Mən yaşıyan ömrü yaşa -
A dağ çəkən...

Səni fələk dərdə salsın,
Yarını əllindən alsın;
Şəbnəm kimi gözün yolda,
Əllərin qoynunda qalsın -
A dağ çəkən....

## YOXDU

Arzular sonsuzdu, ömür azalır,
Demək, dinclik alın yazımda yoxdu -
Ətəyimi ağrı-acı buraxmır,
Ağrısına daha dözüm də yoxdu.

Qardaş getdi, dağı ürəyimdədi,
Ağrısı hələ göz bəbəyimdədi -
Fələyin qəm yükü kürəyimdədi,
Daşıyacaq gücü dizimdə yoxdu.

Kasıb oldum, doğru sözüm ox oldu,
Düz sözümə irad tutan çox oldu;
Dünyada niyyətim elə tox oldu,
Malında, pulunda gözüm də yoxdu.

Bilmirəm Yaradan mənə kəm baxdı?
Ya mənim Tanrıdan təmənnam çoxdu?
Mənim nazım, qəmzəm göyəmi çıxdı?
Gəzib tapammıram, özümdə yoxdu.

Şəbnəməm, qəlbimə axan göz yaşım
Aparsın, bir yolluq kürə qarışım -
Göl məzarım olsun, səma başdaşım,
Görsünlər torpaqda izim də yoxdu...

## GƏLİNCİK

Desələr: Həyatdan nə istəyin var?
Qaçardım gəlincik götürmək üçün;
Dərdimi qatardım oyuncaqlara,
Evcik oynayanda itirmək üçün.

Erkən durub ovxalardım gözümü,
Tez qaçardım yumamış əl-üzümü;
Silərdim həyatdan ölüm sözünü,
Atardım dəryaya batırmaq üçün.

Böyüməzdim, uşaq kimi qalardım,
Nə ayrılıq, nə qəm-qüssə bilərdim;
Özüm üçün bircə nənni dilərdim,
Bala gəlinciyi yatırmaq üçün.

Gəlinciyə Şəbnəm ana olardım,
Oxşayardım, şirin layla çalardım;
Yuxulayıb yanındaca qalardım,
Yenidən səhəri gətirmək üçün...



## ÜRVƏT ƏFQANOĞLU

### DURNALAR

Yenə nizamdasız, dəstə-dəstəsiz,
Görünür nə gözəl düzüm, durnalar.
Bir qanad saxlayın Şuşanın üstə,
Üç rəngli bayrağı süzün, durnalar...

Dumanları didin Cıdır düzündə,
Siz də yallı gedin Cıdır düzündə...
Vaqifi yad edin Cıdır düzündə,
Sevinə-sevinə gəzin, durnalar...

Qayalar başında hərdən edib yan,
Görün orda neçə igid verib can!
"Düşməni it kimi qovduq Şuşadan"
– Dedi qəhrəmanlar sözün, durnalar...

Şirin səsinizin artırın duzun,
Qaqqıldaşın bir az da uzun-uzun...
İsa bulağında cərgəni pozun,
Xəzəl yarpağını əzin, durnalar...

Əfqanoğlu deyər: Gözüm vətəndi,
Şeirim vətəndi, sözüm vətəndi...
Qonaq gəlin, vətən bizim vətəndi,
Şəhidlər veriblər izn, durnalar!

### QƏLƏBƏ MÜJDƏLİ ŞAİRƏM

Azərbaycan adlı şanlı dövlətin,
Qələbə müjdəli şairiyəm mən!
Bu gözəl, şərəfli xalqın, millətin
Qələbə müjdəli şairiyəm mən!

Daha xoşbəxtiyəm mən göyün, yerin,
Mənə yazılmamış varaqlar verin.
Başımda yatışmış min-min şeirin
Qələbə müjdəli şairiyəm mən!

Başı uca oldu ana yurdumun,
Gücünü gördülər o boz qurdumun.
Doğma Vətənimin, şanlı ordumun
Qələbə müjdəli şairiyəm mən!

Yazar sakiniyəm gecənin, danın,
Nəbzini tuturam bütün hər anın.
Doğma Şamaxının, azad Şuşanın
Qələbə müjdəli şairiyəm mən!

### LAÇIN

Neçə il düşmənin əlində qalıb
Özü öz qəlbini oxladı Laçın.
Ordunun iyini duyub havadan
Ağlaya-ağlaya qoxladı Laçın!

Gecələr yatmayıb sıxdı gözünü,
Yollara küsgüncə tutdu üzünü...
«Belə getməyəcək» deyib özünü
Bu günə, bu ana saxladı Laçın!

Əfqanoğlu, səbir eylə zillətdə,
Böyük ruh yaşayır bizim millətdə...
Düz iyirimi səkkiz illik həsrətdə
Ümidini haqqa bağladı Laçın!

### QURU ÖMÜRDƏN KEÇDİ

Bahar çiçəyi açdı,
bu buzlanmış yollarım.
Yeyib bitirdi məni
quzğunlaşmış yollarım.

Dağ düşdü, dərə düşdü,
gündə bir şərə düşdü...
Zirzəmilərə düşdü
Mənim bu baş yollarım.

Xəyallarım bölüşdü,
arzularım gülüşdü...
Ürəklərdə ilişdi,
Getdiyim daş yollarım.

Daşdan, dəmirdən keçdi,
Girdi kömürdən keçdi...
Quru ömürdən keçdi,
Tutduğum yaş yollarım.

## PAYIZIN SAQQALI NƏ TEZ AĞARDI

Payızı anlamaq, düşünmək çətin,
Əvvəllər belə qar qışda yağardı.
Yolu hara döndü bu təbiətin?
Payızın saqqalı nə tez ağardı -
Əvvəllər belə qar qışda yağardı...

Yarısarı, yarı yaşıl yarpağın
Üstündə gəzişir qar dənələri.
Bilirəm indilər yaman üşüyür,
Armud ağacının incə əlləri -
Üstündə gəzişir qar dənələri...

Ey yetim bənövşə, bükük bənövşə,
Yəqin büzüşmüsən bir kol dibində.
Qəlbi, ruhu, canı sökük bənövşə,
Mənim bu ürəyim də qaldı səndə -
Yəqin büzüşmüsən bir kol dibində...

Gecikmiş yumurta qoyan quşcığaz,
Sənin də dərdinə əlac olmadı.
Gah yeri, gah göyü oyan quşcığaz,
Qanadlan, daha bir ümid qalmadı -
Sənin də dərdinə əlac olmadı...

Ey boz qurd, nə haray salmısan yenə?
O qarlı dağlarda sakitləş bir az.
Hərdən bir qulaq ver çoban səsinə,
Əlinə düşəni xırdala az-az -
O qarlı dağlarda sakitləş biraz...

## ƏS, EY PAYIZ KÜLƏYİ

Əs, ey payız küləyi,
Sevgilimə bənzə, sarı-sarı əs:
Saçlarını qarışdır,
Üzünü sığalla, ona sarı əs...

Əs, ey payız küləyi,
Bir az dolan gözlərimin içində:
Al ağrımı-acımı,
Götür uzaqlara durna köçündə...

Əs, ey payız küləyi,
Vicdansıza vicdan ötür uzaqdan:
Dimdiyində, dişində,
Qeyrətsizə qeyrət yetir uzaqdan...

Əs, ey payız küləyi,
Soyuq ocaqlara bərəkət gətir:
Bir loğmana dön hərdən,
Ümidsiz xəstəyə hərəkət gətir...

Əs, ey payız küləyi,
Xəzəl yarpağını sal qabağına:
Təmizlə bu aləmi,
Pisliyi, çirkabı al qabağına...

## ATAM SAĞ OLAN İLLƏR

Gözümdə, könlümdədi,
Arxam dağ olan illər.
Ömrümün xoş çağları -
Atam sağ olan illər...

Ocağımız istiydi,
Bacası da tüstüydü;
Çörəyimiz hisliydi,
Atam sağ olan illər...

...Çayımız tutanda dəm,
Süfrəyə gəlirdik cəm;
Nə kədər vardı, nə qəm,
Atam sağ olan illər...

Sinəmə oxlar dəymiş,
Həyatdan qırıb əymiş;
Əbədi xatirəymiş -
Atam sağ olan illər...

## PAYIZ GÖRKƏMLİ QADIN

Bəxtindən gileylənmə,
Bəxtindən dəmli qadın;
Üzünə necə baxım,
Gözləri nəmli qadın?

Budağını nə əydi
Dərdin belə göyərdi?
Ürəyinə kim dəydi,
Baxışı qəmli qadın?

Hardan tapdı səni qış?
Çölündən yol da salmış;
Quruca daşı qalmış,
Taleyi kəmli qadın!

Xəlvət qaçıb gəlirdim,
Nisgilini silirdim;
Səni bahar bilirdim,
Payız görkəmli qadın!



ALMAZ ÜLVİ BİNNƏTOVA
*filologiya elmləri doktoru,*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun*
*"Azərbaycan-Türkmənistan-Özbəkistan*
*ədəbi əlaqələri" şöbəsinin müdiri*

# ŞEYX SƏNAN HEKAYƏSİ

Dahi mütəfəkkir Əlişir Nəvaiyə həm "Əmir", həm də "Mir" deyə müraciət olunub. "Əmir" onun dövlət taxtında tutduğu vəzifəsinə, "Mir" isə dahi mütəfəkkirin dini-elmi fəaliyyətinə görə deyilib. Dövrünün böyük şəxsiyyəti Dövlətşah Səmərqəndi şairə "Mir Nizaməddin", yəni dinin nizami-qanunu" adını vermişdi. "Həzrət Nəvai bir çox qiymətli əsərlərində, xüsusən, ilk dəfə türkcə yazdığı "Xəmsə" dastanlarının müqəddimələrində yazdığı tövhid (Allaha həmd), minacat, Peyğəmbərə nət və məd-hiyyələri bu fikrimizi təsdiqləyir". Bütün bu əsərlərə istinadən deyə bilərik ki, Əlişir Nəvai şəriət və təsəvvüf elminin dərin bilicisi, nəzəriyyəçisi, hətta nəzarətçisi kimi ad çıxarmışdı. O, islam ehkamlarını türk xalqları üçün ilk dəfə türk dilində yazıb ortaya qoyan ulu şəxsiyyət olmuşdu. Din və əxlaqi dəyərləri özündə ehtiva edən "Mina-cat", "Nəzmul-cəvahir" ("Nəzmə düzülmüş cəvahirat"), "Qırx hədis" ("Hədisi-ərbəin"), "Quş dili" ("Lisanut-teyr"), "Məhbubul-qulub" ("Könüllərin sevgilisi"), "Siracul-müs-limin" ("Müsəlmanların çırağı") və "Risaleyi-tiyr andoxtan" ("Oxatma haqqında risalə") əsərləri həm dövründə, həm də bu gün aktualdır.

Əlişir Nəvainin 1499-cu ildə qələmə alıb tamamladığı üç min altı yüz iki beytdən və yüz doxsan üç fəsildən ibarət olan "Lisanut-teyr" dini-təsəvvüfi dastanında əlli dörd hekayət yer almışdır. Hekayətlərdən ən irihəcmlisi əsərin yetmiş doqquzuncu fəslində (bu fəsil sadəcə Hekayət adlanıb) yer alan Şeyx Sənan haqqındakı qissədir.

Əsərin on doqquzuncu hekayəti Şeyx

Sənanın həyat sərgüzəştlərindən bəhs edir. Beş yüz on beş beytlik (1030 misra) "Şeyx Sənan" klassik ənənələr zəminində qələmə alınmışdır. Bu qissənin məzmununu bir cümlə ilə ifadə etməli olsaq – məcazi eşqin həqiqi eşqə çevrilmə prosesinin təsviridir. Quşların Simurqa yetişmək üçün başladıqları yolun vəziyyəti haqqında Hüd-hüdə verilən sual-cavablardan sonra anladılan hekayət –

***Şeyx Sənan vəsili dərgah idi,***
***Könlü qeyb sirlərindən agah idi.***

– beyti ilə başlayan "Şeyx Sənan" a həsr edilmiş hekayətdir (misradakı vəsili sözünün anlamı – "Allaha yetişmiş" deməkdir). Bəzən həcminin böyüklüyünə görə bu hekayətə qissə içində qissə də deyilib (qissə sözünün mənası – rəvayət edilən doğru və ya uydurma hekayə). Bu mövzuya bütün tarixlərdə müraciət olunduğundan bəzən Əlişir Nəvaidən yazan böyük alimlər belə "Qisseyi-Şeyx Sənan" ("Şeyx Sənan qissəsi") adı altında müstəqil bir əsər kimi təqdim ediblər. "Lisanut-teyr" alleqorik

bir əsərdir. Hadisələr quşların iştirakı ilə başlayır və tamamlanır. Bu əsəri Əlişir Nəvai digər türkcə yazdığı əsərlərindən fərqli olaraq "Fani" təxəllüsü ilə verməşdir, əsərin məzmun ruhuna, ideya mövzusuna və hadisələrin sonluğuna görə ən doğru bir seçim olduğunu xüsusi qeyd etməliyik. Amma dediyimiz kimi, bu əsərin içində irihəcmdə təqdim olunan "Şeyx Sənan" qissəsinin sonluğu "Nəvai" təxəllüsü ilə bağlanır. Səbəbi isə çox sadədir. Burada baş verən hadisələr gerçək həyat şərtləri tərzində təqdim edilmişdir. Bu fani dünyada baş verən həyati hadisənin təsviridir.

Kimdir Şeyx Sənan? – sualının cavabını tarix səhifələrindən araşdıranda onun gah tarixi, gah da əfsanəvi şəxsiyyət kimi yazıldığını görürük. Bəziləri onun dörd yüz, bəziləri də yeddi yüz müridi olması təqdimi ilə də rastlaşırıq. Bu mənbələrdə o, Şeyx Sənan, Şeyx Səman, İbn Səqqa, Əbdur-Rəzzaq adları ilə qələmə alınmışdır. Əlişir Nəvai məlumdur ki, "Tarixi-ənbiya və hükəma" və "Tarixi-müluki əcəm" adlı tarixi əsərlər müəllifidir. Ona görə də bu şəxsin kimliyi haqqında Nəvainin öz yaradıcılığına müraciət etməyi məqsədəuyğun bildik. Adlarını qeyd etdiyimiz bu iki tarixi əsərdə Şeyx Sənan haqqında bir söz yazılmamışdı. Amma "Nəsaimul-məhəbbət" əsərində Şeyx Sənanı vəlilər sırasında tarixi şəxsiyyət kimi təqdim etmişdir.

Əsərdə həmin hekayət belə başlayır: 656. Şeyx Sənan – "Onun böyüklüyünü Həzrət Şeyx Fəridəddin Əttarın "Məntiqut-teyr" adlı kitabını oxuyan hər kəs bilir. Eşq və məhəbbət dənizinin gövhəri və şövq atəşinin səməndəridir və Şeyx Nazim (Allah sirrini müqəddəs eləsin) onun haqqında bunları deyibdir. Təqdim etdiyi məsnəvinin mənası belədir – "Onun dövründə yaşayan Şeyx Sənanın fəzilətləri haqqında nə qədər yazsam da azdır. O kamala yetən dörd yüz müridi ilə Haramda əlli il yaşadı".

"Məntiqut-teyr" kitabını oxuyan hər kəs bu böyük eşq və məhəbbət anının şeyxin başına düşdüyünü biləcəkdir".

"Məntiqüt-teyr" əsərinin qəhrəmanlarından biri olması ilə yanaşı, hətta əsərin müəllifi Fəridəddin Əttar özünü onun müridlərindən hesab edib. "Məntiqüt-teyr"də də Şeyx Sənan bir tərsa (tərsa - klassik ədəbiyyatda xristian mənasında) qızına aşiq olur, lakin axırda Haqqın lütfü ilə islama qayıdır. Zahiri elmlərdəki biliyinə görə zəmanəsinin yeganə şəxsiyyəti olaraq tanınan bu məşhur adam tərsa qızına aşiq olaraq, onun eşqindən bir çox zahiri şeylərdən (zəka, vəzifə, din və imanından) əl çəkmişdi. Tərsa qızının məhəbbətini qazanmaq üçün şərtlərə - mey içməyə, zünnar bağlamağa, bütpərəst olmağa, məshəfi yandırmağa, nəhayət gecələr atəşgahda olmağa, gündüzlər donuz otarmağa razılıq verir. Bütün bunlar əslində qürur, nəfs və şəhvət havasını qırmaq üçün içindəki sınaqlar idi. Bu riyazətlərin (riyazət - Allahdan qorxaraq, özünü dünya nemət və ləzzətlərindən məhrum edib zahidliyə qapılma) mərhələlərindən keçən bir şeyxin məcazi sevgisi həqiqi sevginin əvəzinə çevrilir. Bütün bunlar zahiri – ötəri şeylər olub, onlardan qurtulmadan Həqiqətə çatmaq mümkün deyil. Tələb Vadisinin təsvirində Əlişir Nəvai bunu aydın izah etmişdir.

Quşlar Şeyx Sənanın hekayəsini eşitdikdə, başçı axtarmaq eşqində ümidsizliyə qapıldılar və yol əzab - əziyyətlərini biləndən sonra bu fikirdən daşınmaq qərarına gəlirlər.

Hüd-hüdə xahiş edirlər ki, bu yola çıxmayaq elə başçımız sən ol, lakin Hüd-hüd buna razı olmur. Əslində, əsərdəki yol çətinlikləri ilə bağlı tərəddüdlərinə cavab olaraq eşqin qüdrətini üst qata çıxarmaq mənasında "Şeyx Sənan hekayəti"ni onlara söyləyir. Maraqlı hekayətin qısa məzmunu belədir: Şeyx Sənan ilahi elmlərdən zövq alan, könlü qeyb sirlərindən agah idi. Kəbə övliyalarından olub. Kəbə evinin Şeyxülislamı olaraq xalqı Haqq yoluna dəvət edirdi. Müdrik insanlar belə ona qulluq etməkdən fəxarət duyardılar. O başqalarının müşkül işi üçün dua etsə, mələklər "Amin!" deyərək əllərini qaldıracaqdılar.

Hər biri Cüneyd Bağdadi və Bəyazid Bistami dərəcəsində 400 müridi var idi. Şeyx Sənanın yuxusunda gördükləri doğru olardı. O bir neçə gün eyni yuxunu görür. Yuxuda Rumdakı bir məbəd içərisində məst halda və məbəd əhli kimi bütpərəst idi. "Bu sirrin axırına qədər getmək lazımdır. İnsan taleyində birini görməmək əlacı yoxdur", – deyə Ruma sarı yollanır. Müridləri də bu yolda ona yoldaşlıq edirlər. Çatdıqları ölkədə möhtəşəm bir məbəd görürlər. Bütxananı görən şeyx mövqeyini dəyişir. Burada Şeyx Sənanın gözü gözəllikdə

tayı-bərabəri olmayan tərsa qızını görür, ağlını itirir. Müridlərinin məsləhətləri onun zərrəcə eyninə gəlmir. Şeyx və müridləri arasında mübahisə başlayır. Müridlərinin müdrik suallarına o aşiqanə cavablar verir. Kəbəyə qayıtmaq təklifinə isə cavab olaraq, axtardığını tapdığını söyləyir. İslam şeyxinin vəziyyətinə kafir əhli gülür, hətta uşaqlar da onu lağa qoyurlar. Namuslarına boğulan muridlər pirlərini tərk edirlər. Beləliklə, Şeyx Sənan bir aya yaxın məbəddə qalır. Tərsa qızının: "Yolçular bir gecə qalıb, ertəsi gün yollarına davam edərlər, sən isə düz bir aydır ki, burada qalırsan, elə deyilmi"? – sualına belə cavab verir: "Səbəb sənin üzünü görməyim", – deyə eşqini izhar edir. Belə olanda tərsa qızı ona şərt qoyur. Tərsa qızının vəslinə yetmək üçün Şeyx Sənan onun dörd şərtini yerinə yetirməli olur: şərab içmək, zunnar bağlamaq, "Quran"ı kənara qoymaq və bütpərəst olmalıdır. Eşqin bu dörd şərtindən əlavə daha iki cərimәni yerinə yetirməlidir:

Birincisi, bir il davamında gündüzləri donuz otarmaq, gecələri isə dan ağarıncaya qədər atəşgahda ocaq yandırmaqdır. Çünki ilahi eşq yolunda aşiqin hər bir çətinlikdən keçməsi tələb olunur. Hətta bu yolda canından belə keçə bilərsən. Şeyx Sənan bu yolda həm ali rütbəsini, el içində olan nəhayətsiz hörmətini, ağlını, hətta din-imanını eşqinə qurban verir. Sanki dəlilik məqamına çataraq, özündən keçir. Bunlar, əslində, məcazi eşq mərhələlərbu mərhələlər təriqətin yeddi mərhələsinə, daha doğrusu "Lisanut-teyr"də göstərilən yeddi vadiyə uyğundur. Eyni halı təkrar-rəkrar yuxuda görməsi onu Tələb yoluna aparır. Yuxuda gördüyü hadisəni axıradək dərk etmək üçün Rum tərəfə yol alır. Orada – məbəddə tərsa qızının qənirsiz gözəlliyini görüb eşq yolunu tapır. Tərsa qızının hüsnündə ilahi gözəlliyi görüb Mərifət hasil edir.

İstiğna mərhələsində o tərsa qızının nazı istiğna ilə qoyulan şərtləri və onların cəriməsini (çətinliklərini) bacarır. Bu əməlləri salikin (aşiqin) özündəki nəfs və təkəbbürünü dəf etmək üçün imtahan idi. Tövhid – şeyxin Haqqın təkliyini hiss etməsi, onun yolunda digər zahiri mərhələlərdən xilas olmasıdır. Heyrət – şeyxin Yaradıcı sənət qarşısında acizliyi, Fəqrü fəna – onun Haqq dərgahında əbədiyyətidir.

Şeyx Sənanın bir fani müridi olur, o, Ruma sarı yola çıxaraq başqa bir ölkəyə səfər edir. Kəbəyə qayıdanda oraları xaraba halında görür: nə pir var idi, nə də müridlər. O, ordan-burdan xəbər alaraq bütün məsələlərdən halı olur. Bütün müridləri bir yerə toplayaraq, başına müşkül bir sevda düşdüyünü və bu yolda da onu tək qoyanları məzəmmətləyir və hamısı birlikdə Rum ölkəsinə yola düşürlər. Bu hekayə də pir və murid arasındakı münasibət məsələsini də ortaya qoyulmuşdur. Mürid pirin bütün tələblərini yerinə yetirməlidir, bütün məsələlərdə onu təqlid etməlidir. Yalnız o zaman qarşısına qoyduğu məqsədə nail ola biləcəkdir. Pirin diqqəti Həqiqətə yönəldiyindən, muridin diqqəti də pirdə olmalıdır. Şeyx Sənanın müridləri onu Rumda tək qoyub geri qayıtdılar. Bu zaman səfərdə olan fanatik murid Kəbəyə qayıtdı və hadisədən xəbərdar olduqda onlara dedi ki, hər nə olursa olsun, siz pirinizi tək qoymamalı idiniz, ona itaət edib izləməli idiniz. Donuz otaran şeyx müridlərini tanımır, öz donuzları ilə məşğul olur. Bu onun ilahi eşq yolunda hər şeyi unutduğuna işarədir. İlahi sevgi yolunda taxt-tacını, ailəsini tərk edərək dolanışığı üçün Nişapura gəlib odun daşıyan İbrahim Ədhəm əvvəlcə dövrünün vəliləri (övliyaları) tərəfindən sınaqdan keçirildi: "Sizlər istədiyiniz o şey Bəlxdə qaldı!" – deyə cavab verir. "Bəlxi unutmadımı, o, hələ yarımçıqdır", - deyə böyük adamlar qərar verirlər. Aradan bir il ötür, bu işini təkrarlayanda ondan səs çıxmır. Şeyx Sənanın bu halı həmin hadisəyə bənzədir. Özləri heç bir şey edə bilmədiklərini dərk edən muridlər fani muridin başçılığı ilə xəlvətə çəkilib şeyxlərini bağışlamaq üçün Allaha dua yalvarışları edirlər. Nəhayət, onların duaları cavablandı və bir gün sübh çağı fani mürid Peyğəmbərin (s) xəyalını gördü. O, Allahın fani müridin dua-niyazını qəbul etdiyi müjdəsini verdi. Elə bu zaman Şeyxə də qeybdən xəbər edilmişdi və bu boş xəyalından qurtulmuşdu. O, kafir paltarını çıxarıb, zunnarın ipini bağladı və könlünü hidayət şamının nuru ilə işıqlandırdı, utanc alovunda yandı və peşman olduğunu dərk etdi. Bu vəziyyətdə ikən müridləri yetişdi. O, fani müridlərinə minnətdarlığını bildirdi, qüsl edib, hamısı birlikdə Kəbəyə sarı yol aldılar.

İşvə yuxusunda Tərsa qızı da bir yuxu görür: Şərq günəşi göydən enir və ona İsadan

(ə) xəbər verir. "Dövrünün misilsiz piri Şeyx Sənan sənin evində qonaq oldu, sən isə ev sahibliyi qaydalarına əməl edə bilmədin. Onun başına çox oyunlar açdın! O, sənin evini tərk edib Kəbə evinə yollandı. Tez özünü ona çatdır, üzr istə və onun dinini qəbul eylə! – deyə onu tənbehlədi. Tərsa qızı yuxudan oyandı, "Şeyxin ayağının izi" ilə ona çatmağa tələsdi.

Ancaq səhrada zəiflikdən yıxılır. Onun bu halı şeyxə və fani muridə əyan olur. Geri qayıdırlar. Tərsanın qızı Şeyx Sənanın qolları arasında iman gətirərək can verir. Şeyx onu Kəbəyə gətirir və "eşq çadırında" "Möminlərin qəbiristanı"nda dəfn edir. Allah qarşısında etdiyi günahlardan tövbə edib fani dünyada yoluna davam edir. Məlum oldu ki, Əlişir Nəvai Şeyx Sənan sərgüzəştləri vasitəsilə məcazi mərhələlərdən keçib, həqiqi eşqə – sevgiyə çatan arif (bilikli) obrazını yaratdı. Şeyx Sənan eşqinin onu aləm içində nə qədər rüsvay etdiyinə dair yazdığı bu hekayətin sonunda bildirir ki, "bundan artıq olmasa da, ömür vəfa edərsə, öz eşqi haqqında bir dastan yazmaq istəyir" və bununla da "Şeyx Sənan hekayəti" tamamlanır:

***Gəl, Nəvai sözünü hələ xətm qıl,***
***Eşq adlı izhara dava qılmagil,***
***Bir neçə gün ömürdən tapsam aman,***
***Şərhi eşqimə nəzm düzərəm bir dastan.***

Nəvaişünas Cənnət Nağıyeva: "Nəvainin "Lisanut-teyr" əlyazmasının Azərbaycanda görkəmli şəxslərin kitabxanasında olması, Azərbaycan şairlərinin bu əsərdən istifadə etməsi, əsərə daxil olan hekayətlərdən "Şeyx Sənan"ın Azərbaycan variantının yaranması bir daha göstərir ki, onun "Lisanut-teyr"i Azərbaycanda sevilmiş və ondan istifadə edilmişdir. "Şeyx Sənan" adlı hekayət əlyazmasının iki variantı vardır: Birinci variant Məhəmməd Füzuli təsiri ilə yazılıbsa, ikinci variantda məzmun, dil və üslub xüsusiyyətləri baxımından Nəvainin eyni adlı hekayəsinin təsiri duyulur. Bu təsiri əsərin əvvəlindən hiss etmək olur...

"Əlişir Nəvainin "Lisanut-teyr"i Azərbaycan xalqının ruhuna, zövqünə uyğun olduğu üçündür ki, bu əsərin əlyazmaları yayılmış, əsər sevilmişdir. Xüsusən "Şeyx Sənan"ın Azərbaycanca yazılı variantında meydana çıxmış, yayılmışdır. Bu rəvayətin mənzum şəkildə bir neçə əlyazması hazırda Bakıda Əlyazmalar İnstitutunda saxlanılır. "Lisanut-teyr"ə daxil olan eyni adlı hekayə müstəqil əsər kimi geniş yayıldığı kataloqlara əsasən məlumdur. Nəvaiyə yaxın bir dövrdə yaşamış Sam Mirzə Səfəvi öz "Töhfeyi-Sam"ı ayrıca bir əsər kimi vermişdir. Nəvainin "Şeyx Sənan"ı (Fəridəddin Əttarın əsərindən fərqli) xüsusilə geniş yayılmış, indi də xalqın dilində yaşayır... İkincisi, şairin "Lisanut-teyr" adlı poemasının S-310 şifrəli əlyazmasıdır. 944 hicri (-1537) ilində köçürülmüş bu əlyazma dünya kataloqlarına əsasən öz qədimiliyi baxımından, Leninqrad nüsxəsindən sonra ikinci yeri tutur. Əvvəlində Bakıxanovun avtoqraf qeydi vardır. Bu nüsxə sonradan Məhəmməd bəy Səlimxanovun kitabxanasına düşmüş və ona sahibin möhürü vurulmuşdur.

"Şeyx Sənan mövzusu" bütün əsrlərdə ədəbi-mədəni həyatımızı düşündürən, dönə-dönə müraciət olunan mövzudur: XX əsr Azərbaycan ədəbi-mədəni tarixinə nəzər salaq:

1. Azərbaycan ədəbiyyatının klassik nümayəndəsi Hüseyn Cavid "Şeyx Sənan" faciəsini (1912-1914) yazmışdır.

2. Dahi bəstəkar, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim, Azərbaycan milli operasının banisi Üzeyir Hacıbəyov "Şeyx Sənan" operasını (1909) yazmışdır.

3. Görkəmli bəstəkar Rauf Hacıyev "Şeyx Sənan" simfonik poemasını (1982) yazmışdır.

4. Görkəmli bəstəkar Nəriman Məmmədov "Şeyx Sənan" baletini (2012) yazmışdır.



## MİRKAMİL SİRACİ

### İLAHİ

Gecə uzun gecədir,
Hamı yatıb, İlahi.
Daha yarasalar da,
Başın atıb, İlahi.

Başımdakı bəlalar,
Dilimdəki dualar;
Talehimlə davalar,
Sənə çatıb, İlahi?!

Mən səni hər nəfəsdə,
Duyurdum ülvi səsdə;
Can quşumun qəfəsdə
Səsi batıb, İlahi.

Anlamıram mən qəti,
Çox bahadır qiyməti?!
Adəm oğlu cənnəti
Yenə satıb, İlahi.

Ya ölmək istəmirəm,
Ya da qəsdən ölmürəm;
Bilmirəm ki, bilmirəm...
Başım itib, İlahi!

### ÖLÜM

Mənim də arabir ağlımdan keçir:
Hamının içində darıxıb ölmək -
Sözünə ehtiyac olan məqamda
Bilmədən, bilmədən karıxıb ölmək.
Ömrünə süzülən kədərdən ölmək,
Kefinə doğranan zəhərdən ölmək,
Açılan təzə-tər səhərdən ölmək,
Ya da ki qəzavü-qədərdən ölmək -
Nə bilim, nə bilim, nələrdən ölmək...

Ölərəm desəm də, çətindir ölmək!

Ağlımdan yenə də ölüm keçir, bax:
Keçəndə əl edib deyir ki – Axmaq,
Ölməyə nə var ki, ölüm nədir ki;
Yaşamaq, yaşamaq, yenə yaşamaq...

Yenə də ağlımdan ölümlər keçir,
Ürəyim seyr edib ölümlər seçir:
Səhərin açılan gözündə ölmək,
Şeirin ən gözəl sözündə ölmək,
Şeirdən, qəzəldən asılıb ölmək,
Soyuqdan küçədə qısılıb ölmək -
Nə bilim, nə bilim, nə olub ölmək...

Ölümdən danışma, ölüm yamandır!
Yenə də ölmədim, yenə də sağam,
Arabir ölmək də istəyir adam -
Çalışdım, çalışdım, ölmədim yenə,
Həyatla barışdım, ölmədim yenə...

### EŞQİN MƏNƏ ÖYRƏTDİ...

Eşqin mənə öyrətdi nədir atəşə yanmaq -
Öyrətsə idi həm nə imiş vəsli, bilərdim,
Öyrətsə idi vəsl bilərdim və ölərdim...

Ağlatmağı seçdi məni eşqin gecə-gündüz -
Rəhm etsə idi göz yaşımı, mən də silərdim,
Rəhm etsə idi mən də silərdim və gülərdim...

Uğrunda nəyim var idi verdim sənə qurban -
Olsa, sənə qurban, yenə imkanım edərdim,
Olsa yenə imkanım edərdim və gedərdim...

Güldünsə mənim ağlamalı halıma, xoşdur -
İmkanım ola  gül üzünə bir də baxardım,
İmkanım ola bir də baxardım, darıxardım...

Hicrin məni qoymuş necə bu zülmət içində -
Görsəm səni bir dəfə bu zindanı yıxardım,
Görsəm səni zindanı yıxardım və çıxardım...

Baxma belə dil-dil ötürəm şe’rdə, ey gül -
Görsəm yenə də gül üzünü, dil dolaşardı,
Görsəm, yenə də dil dolaşardı və çaşardı...

## KEÇİR

Nədənsə hicrin yolu hər dəfə bizdən keçir,
Gəl bu gediş yolların bir dəfə gözdən keçir.

Bizdə buludlar almış göy üzünü sərbəsər,
Amma günün güzarı həmişə sizdən keçir.

Aşiq olan kəslərin bir qərarı da olmur,
Gahi çıxır dağlara, gahi də düzdən keçir.

Bu sevdada qəlizlər asanlıqla həll olur
Amma asan işlərin həlli qəlizdən keçir.

Deşmə bu misraları parça deşən dərzitək,
Hər dəfə məna sapın çalış ki, sözdən keçir.

Yarın incə kəlməni, Siraci, yəqin sevir,
Sənin də təqsirini, bəlkə, bu üzdən keçir?

## GƏL YETİŞ

Ey Nigarım, şəhriyarım, qəmküsarım gəl yetiş,
Canşikarım, cansiparım, işvəkarım, gəl yetiş.

Ağla ey göz, səslə ey dil, başla ey söz, ta gələ,
Ay camallım, ahu gözlüm, dilşikarım, gəl yetiş.

Mən zəliləm, həm xəciləm, ey ümidi-vahidim,
Yandı canım, nazlı yarım, bəxtiyarım, gəl yetiş

Gül’üzarım, hər nə varım, qəmküsarım, gəl daha,
Laləzarım, qandı bağrım, var azarım, gəl yetiş.

Ey pənahım, qibləgahım, padişahım, hardasan?
Biqərarəm, gör ki xarəm, tacidarım, gəl yetiş.

Dərdli aşiqdir Siraci, ey təbibim, ver əlac,
Lütfkarım, mehrdarım, məh’üzarım, gəl yetiş.

## ƏLİAĞA VAHİDƏ TƏXMİS

Dil cuşə gələr sərvi-xuramanı görəndə,
Məcnun arayar Leylini səhranı görəndə,
Cəhd eylə tut ol məxməri damanı görəndə,
«Dil nalə edər ol güli-xəndanı görəndə,
Bülbül gələr əfğanə gülüstanı görəndə...»

Hicran qəmi çəkdikcə mənim zəhmətim artır,
Bu yolda ki zəhmət çəkirəm izzətim artır,
Məcnun kimi hər eldə mənim şöhrətim artır,
«Görcək o gülün ləblərini rəğbətim artır,
Tuti həvəs eylər şəkəristanı görəndə...»

Daim sənin eşqin ilə məstanədi könlüm,
Sən şəm’sən, ətrafına pərvanədi könlüm,
Zülfi-siyəhində dolaşan şanədi könlüm,
«Zənciri sevir, gör necə divanədi könlüm,
Məcnun olur ol zülfi-pərişanı görəndə...»

Heyrətdədi esqinlə mənə cümlə xəlaiq,
Bu dəhrdə var mən kimi bir aşiqi-şaiq?
Vardırmı mənim tək ola öz əhdinə sadiq?
«Şad olsa da vəslin ilə hərdəm dili-aşiq,
Əlbəttə düşər möhnətə hicranı görəndə...»

Hərdən nola ol aşiqinin halına hali,
Gör bir neçə vaxtdır ki, düşüb səndən arali,
Sənsən onun aləmdə gözəl cahü-cəlali,
«Eşq əhlinin artar, gözəlim, dərdi, məlali,
Əğyar ilə öz sevdiyi cananı görəndə...»

Yarım elə ki batdı Günəş qaldı dalanda,
Hər kəs gecəni qorxulu zülmətli sananda,
Aşiq ürəyi bax bu qaranlıqda yananda,
«Görcək səni aləm sevinər qaş qaralanda,
Ellər sevinərlər məhi-tabanı görəndə...»

Düşünürdün ki, Siraci, deməsən, baş döyəcəkdin,
Zülfilə onun gül üzünü sən göyə çəkdin,
Bəs sevdiyini yarə o gün söyləyəcəkdin?
«Vahid, sən o gün dərdini yarə deyəcəkdin,
Lal oldu dilin bəs niyə cananı görəndə?”



## TƏBRİZƏ PÜNHAN

### ÖLÜM

Tanrım bizdən səni seçdi,
Qırx gün gəlib nə tez keçdi?
O qədər göz yaşı içdi,
Ürəyim də dözmür daha...

Dur, ey zaman, axıb getmə,
Ömrümüzü hədər etmə –
Nə asanmış ölüb-itmə,
Ölüm ucuz, ömür baha...

Dünya qurulmuş bir tələ,
Fürsət verir bir az hələ –
Vay o gün ki, vaxtın gələ,
Səni udur bir əjdaha...

Dəyirman üyüdür dəni,
Keçir karvan, çəkir səni –
Rahat qoymur bir kimsəni,
Sanma ümid var sabaha...

Yaratdığı hər bir insan,
Gəlib keçir bu dünyadan –
Fürsəti verib Yaradan
Nə nökərə, nə də şaha...

### QURULMUŞ TƏLƏ

Ələyim ələnib, xəlbirim gəzir,
Gəzir Əzrailin sorağı ilə.
Dişlərim tökülüb, dizlərim əsir,
Gəzirəm əlimin çomağı ilə.

Nə vaxt yaşım keçdi, nə vaxt qocaldım?
Özümün özümdən xəbəri yoxdur.
Nə vaxt bu çomağı əlimə aldım?
Gözümün görməyə təpəri yoxdur.

Dünya yalanlarla qatdı başımı,
Yıxdı üzərimə bütün dərdini.
Sonra yoxam kimi atdı daşımı,
Güldürdü üzümə ən namərdini.

Kaş insan yerinə bir daş olaydım,
Hörülüb qalaydım bir çəpərinə.
Axı nə biləydim, hardan biləydim?
Gəlmişəm bir ovuc torpaq yerinə.

Zaman yürüdükcə itir ləpirlər,
Bilmirəm onuncu babam kim olub.
Dünyaya gələnlər niyə gəlirlər?
Kimlər nə aparıb, kimdən nə qalıb?

Bu dünya əzəldən qurulmuş tələ,
Qalmışıq sahibin öz insafına.
İstər sən aslan ol, istər bir dələ,
Bir gün yığışarlar sənin başına.

Hələ görəcəyin başqa dünya var.
Dünya o dünyanın sınaq meydanı.
Bəlkə, yaxşılığın karına yarar,
Allah bağışlasın hər cür insanı...

### İNSAN YÜKSƏLDİKCƏ

İnsan qalxıb yüksəldikcə,
Ayağı yerdən üzülür.
Vəziyyəti düzəldikcə,
Yer yavaş-yavaş büzülür.

Göydən daha yaxşı seçir,
Harda dağ var, harda dərə.
Ürəyindən qorxu keçir,
Boylandıqca göydən yerə.

Yüksəldikcə ənginliyə,
Heç nə görünmür gözünə.
Nifrət edir zənginliyə,
O baxdıqca öz-özünə.



**FƏRİD MURADZADƏ**

# SƏHV DÜŞƏNDƏ YERİMİZ

(hekayə)

Gecədən lopa-lopa yağan quşbaşı qar hər tərəfi ağ örtüyə bürümüşdü. Buralarda qış çox sərt keçərdi. Dağlıq ərazi olduğu üçün aprelin ortalarına qədər evlərdən odun sobaları sökülməzdi. Şaxtalı, sazaqlı bir qış günü idi. Ağ örtüyə bürünmüş əsrarəngiz kənd mənzərəsinin öz gözəlliyi olur. Ağappaq fondakı bu gözəlliyə qara tikandan çəkilmiş kənd çəpərləri və evlərin tüstü bacalarından burum-burum havaya qalxan tüstü xüsusi bir çalar verirdi. Səhər açılan kimi cəfakeş kənd adamlarının qar üstündəki ilk ayaq izlərindən artıq çətinliklərə baxmayaraq aktiv həyatın başladığı görünürdü. Kənd adamlarının istənilən şəraitdə mütləq bir məşğuliyyətləri olur. Hər kəs öz işində idi. Kimi mal-qaranı suya aparır, kimi tövlədəki heyvanlara ot verir, kimi odun yarır, kimi bulaqdan su daşıyır - bir sözlə hər kəs öz işi ilə məşğul olurdu. Qarlı hava uşaqların sevimli əyləncəsi idi. Şaxtaya baxmayaraq dəcəl uşaqlar qarın üstündə ora bura qaçır, sürüşür, qartopu oynayırdılar. Qarın üstünə düşən ılıq qış günəşinin şüaları adamın gözünü aparırdı. Balaca Fariz özü kimi dəcəl tay-tuşlarından ayrılıb gözlərini qıya-qıya yollara boylanlrdı. Dünəndən bəri təlaş içində idi. Elə bil tikan üstündə durmuşdu. Dəqiqələrlə hərəkətsiz dayanıb eyni nöqtəyə baxdığından əməlli-başlı donmuşdu. Anasının: "Ay bala, ay Fariz keç içəri, dondun. Oğlum, unutma ki, məktub olsa Xasay əmi onu evə gətirəcək. Daha bu soyuqda niyə özünü öldürürsən?"- deməsi də onu yollara boylanmaqdan çəkindirə bilmirdi. O da bilirdi ki, məktub gəlsə poçtalyon Xasay əmi evə gətirəcək, amma səbri çatmırdı. Günortaya yaxın qarın içi ilə güclə hərəkət edə-edə onlara sarı gələn çəlimsiz Xasay əmini görəndə elə bil ürəyi köksündə çırpınan bir quşa döndü.

– Məktub! deyib üzüaşağı Xasay kişiyə sarı yüyürməyə başladı. Dizdən olan qara bata-bata, aşa-aşa, yıxıla-yıxıla, dura-dura özünü poçtalyona çatdırdı. Bərk-bərk əlində tutduğu məktuba baxırdı. Elə bil əlində bir məktub deyil, məşəl tutmuşdu. İstisinə qızınırdı bu bir parça kağızın. Sevincindən uçurdu. Məktubun üstündə onun və göndərən orqanın ünvanı vardı. "Vətən Cəmiyyəti"nin möhürü zərfin üstündə idi. Sevindiyindən poçtalyonu orda qoyub qarı yara-yara evlərinə tərəf qaçdı. Onu həyətdə ilk qarşılayan müəllim atası oldu. Bu bir parça kağız onun soyuqdan donub çuğundur kimi qızarmış üzünə, gömgöy olmuş barmaqlarına və ən əsası böyük amallar üçün çırpınan balaca ürəyinə bir istilik gətirmişdi. Məktubu elə həyətdəcə açdılar. Onun - bu balaca kənd uşağının böyük ürəyini qoyduğu kiçik məktubuna o taylı - bu taylı Azərbaycanın və azərbaycanlılarının həmrəy olduğu "Vətən

Cəmiyyəti" nin sədri böyük yazıçı Elçin Əfəndiyevin özü cavab yazmışdı. Məktub gözəl sözlərlə, xoş arzularla, ümidlə dolu idi. Sonda Elçin bəy onun gələcəyinə inandığını, onu gələcəyin bir şərqşünası, diplomatı kimi gördüyünü yazmşdı. Məktub bu şəkildə tamamlanmışdı: "Fariz, biz sənin gələcəyinə inanır və səni mütləq bir diplomat kimi görürük. Sənə bir daha uğurlar və müvəffəqiyyət arzulayırıq". Elə bu dəm bir neçə gün əvvəl rayondan kəndə qonaq gəlmiş ondan 15-16 yaş böyük əmisi oğlunun sözləri yadına düşdü: "Sən bizim fəxrimiz olacaqsan, sən böyüyəndə diplomat olacaqsan". Sən diplomat olacaqsan sözləri qulaqlarında əks-səda verirdi. Öz-özünə: "Mən böyüyəndə mütləq diplomat olacağam!" deyə-deyə ağappaq qarı xırçıldadaraq evə sarı yollandı.

Zaman bir göz qırpımında keçdi. Fariz böyüdü, amma... özü böyüsə də onun uşaqlıq arzuları böyüмədi, çin olmadı. Müharibə öz dəhşəti, fəlakəti, qəddarlığı, amansızlığı ilə onun uşaq dünyasını tar-mar etdi, onun işıqlı gələcək arzularını öz qara, soyuq, məkrli barmaqlıqları arasında öldürdü. Müharibə onun çiyinlərinə ağır yük qoydu, erkən həyatın ağrılarını çəkməyi, cəfasına qatlanmağı, ürəyindən keçənləri dilinə gətirməməyi, istəklərini boğmağı öyrətdi. Hərislik, nadanlıq, nəfskarlıq insan övladının qanına elə hopub ki, cəm halda onu təmizləmək imkansızdır. Adəm övladı arasına düşən ilk nifaqdan bəri min illərdir ki, insan bir-birini didir.

Kəndlərinə, həyətlərinə və həyatlarına düşən mərmilər hələ onun diplomat arzusu ilə döyünən ürəyinə düşməmişdi. Bütün çətinliklərə, məhrumiyyətlərə baxmayaraq o yorulmadan çalışırdı. Düşmən tərəfin atdığı iriçaplı mərmilərdən kənd transformatoru partlamışdı. İşıq yox idi. Gecə yarı olmuşdu. Lampa işığında dərs oxuyurdu. Oxuya-oxuya qeydlər də aparırdı. 11 yaşı olmasına baxmayaraq o öz üzərində çox çalışırdı. Xüsusən gecələr hamı yuxuda olarkən, səssizlik hökm sürərkən tək-tənha oxumağı çox sevərdi. Yorğunluq və yuxusuzluq getdikcə öz təsirini göstərirdi. Farizin yuxusuzluqdan ağırlaşıb sallanmış şişkin göz qapaqları qıpqırmızı qızarmış gözlərini bağlayırdı. Birtəhər oturduğu yerdən qalxıb özünü yatağa atdı. Qorxulu yuxu görürdü. Kimsə onu silkələyirdi. Zorla gözlərini açdı. Yox, bu yuxu deyildi. Anası onu var gücü ilə silkələyərək oyatmağa çalışırdı. Gözlərini açıb ətrafa mat-mat baxan Fariz tam olaraq nə baş verdiyini anlaya bilmirdi. Hamının üzündə bir təlaş vardı. Atası dörd yaşlı balaca qardaşını qucağına götürmüşdü. Anası isə bacısının əlindən tutaraq Farizi tələsdirirdi.

– Qalx oğlum, qalx! Kəndin hər tərəfini "Qrad"la vururlar. Hücum ola bilər deyə qadınları, yaşlıları və uşaqları Oruc əminin avtobusu ilə kənddən kənara çıxaracaqlar. Tez ol!

Fariz tənbəl-tənbəl əynini geyib ayağa qalxdı. İki addım atmışdı ki, dayanıb dedi: "Mən getmirəm!"

Valideynlərinin təkidinə baxmayaraq hələ də getməməkdə israrlı idi. Birdən evləri silkələndi. Güclü partlayış hərəni bir tərəfə yatmağa məcbur etdi. Toz-duman hər yeri bürümüşdü. Otağın qapısı, tavanı, pəncərələr və televizor param-parça olmuşdu. Pəncərə yerindən yuxarı hər tərəf bərbad olmuşdu. Görünən bu mənzərədə onların sağ qalması möcüzə idi. Balaca qardaş-bacısı, anası şokda idilər. Atası özünü yetirib balacaları qucaqlayaraq yerdən qaldırdı. Fariz də özünü anasının üstünə atdı. Qadın bərk qorxmuşdu. Gözləri qorxu içində məchul bir nöqtəyə baxırdı. Ağzı sanki kilidlənmişdi. Bütün vücudu titrəyirdi. Səs-küyə özünü yetirən qonşular da dəhşət içində idilər. Fariz o zaman, həyatında ilk dəfə əzizlərinin həyatını qorumaq üçün arzularından, istəklərindən, yeri gəlsə, öz həyatından da vaz keçməyi dərk etdi. O gündən etibarən kəndi daha sərbəst şəkildə, daha dəqiq artilleriya yağışına tutan ermənilərin sayəsində Farizin iç dünyası tar-mar oldu. O gündən başlayaraq onun kiçik çiyinlərinə məsuliyyət yükü düşməyə başladı. Azğınlaşmış ermənilər məktəb binasını da artilleriya mərmisi ilə dağıtdılar və bu dağıntılar altında Farizin diplomatiya arzuları da dağılmağa başladı elə uçuq məktəbin xaraba divarları kimi...

İyirmi altı il sonra səhər işə gedən ortaboylu, sadə, lakin səliqəli geyinmiş 38-40 yaşlı eynəkli bir kişi yolu keçib işə getmək üçün maşın gözləyirdi. Səhərlər Bakıya öz şəxsi avtomobilləri ilə gedən insanlar yolüstü adam götürərək benzin pulunu çıxarırdılar. Adətən,

səhərlər, xüsusən də pik saatlarında yollardakı tıxaclara görə işə gecikməmək, vaxt itkisinə yol verməmək üçün şəhərə bu şəkildə getmək marşrut gözləməkdən daha əlverişli olduğu üçün böyük əksəriyyət yol maşınlarından istifadə edir. Maşın gözləyən çox idi. Deyəsən, bu gün evdən bir az gec çıxmışdı. Gözləri yollara baxsa da, fikri uzaqlarda idi. Qəfil siqnal səsindən diksindi. Sonra da tanış bir səs ona:

– Ay Fariz, keç əyləş! dedi.

Anar idi. Sinif yoldaşı. Hamıdan can-cüssəli, boy-buyxunlu, imkanlı bir ailənin övladı olan Anar. Bəlkə də 15 ildən çox idi ki, görüşmürdülər. Anarın ürəyi dolu imiş, elə hey danışırdı.

– Fariz, nə yaxşı oldu ki, səni gördüm. Çoxdandır görüşmürük. Anar bütün sinif yoldaşları barədə məlumat verdi. Eh, ay Fariz, hərə bir iş sahibidir. Sinfimizdə hamıdan yaxşı oxuyurdun. 10- cu sinifdə nə oldu ki, müəmmalı şəkildə bizi tərk etdin? Həmişə yerin görünürdü. Sən bizim məktəbi tərk edəndən sonra çox pis olduq. Nədən getdin, niyə elə etdin?

– Anar, mən o vaxt işə düzəlmişdim. Həm işləyirdim, həm də oxuyurdum. İstəmirdim ki, ailəmiz çətinlik çəksin. Düzdür, mən bununla özümü yandırdım, amma əsla peşman deyiləm. Valideyinlərimin, qardaş-bacımın o ehtiyac illərində bircə istəyini belə yerinə yetirə bilməyim mənim üçün bir dünya idi. Mən öz istəklərimi onlara qurban verdim. Bəlkə də, istəklərimin və qəlbimin qarşısında ən qəddar cinayətkaram, lakin vicdanımın qarşısında alnıaçıq birisiyəm. Nə isə...

– Təəssüf, amma qərarı özün vermisən. Mən də atamdan qalan dükanı işlədirəm, amma indi dükanı Bakıya köçürmüşəm. Uşaqlarla əlaqəm var. Hamısını vəziyyəti yaxşıdır. Hərə normal bir işlə məşğuldur. Qızlarımızın çoxusu pedoqoqdur, ikisi həkimdir. Oğlanların da ən zəif yerdə işləyəni “SOCAR”da mühafizə xidmətindədir. Bizim sinif yoldaşlarımızın içində ən yaxşı işdə çalışan isə Dəyanətdir. Bilirsən də, o indi böyük adamdır, diplomatdır.

Bu diplomat kəlməsi onun yaralı qəlbinin sarı simini tərpətdi. Fikri bir andaca qanadlanıb keşməkeşli keçmişinə uçdu. Onun ən böyük arzusu idi diplomat olmaq. Xüsusən də Şərq ölkələri üzrə. Təəssüf ki, istədiklərimizi hər zaman gerçəkləşdirə bilmirik. Həyat insan üçün nə qədər acımasız, amansız olurmuş. İnsan həyat mübarizəsində bəzən arzularından, istəklərindən, sevgisindən vaz keçməli olur. Daşlı-qayalı, enişli-yoxuşlu, qarlı-boranlı, təhlükəli yollarda çiyninə aldığı məsuliyyət yükünü yerə qoymamağa qərarlı olanlar qətiləşdirdikləri bu yolda özlərindən vaz keçsələr də, çiyinlərindəki yükdən əsla vaz keçmirlər. İnsanın bütün istəklərində ikili bir ehtiras var - cismani və ruhi. Bu hisslər buxovlananda insan mənən və ruhən ölür. Quruca nəfəsi gedib gəlsə də hisslərdən, duyğulardan məhrum olan müqəvva kimi olur insan övladı. Onu öz dünyasından Anarın səsi ayırdı.

– Dəyanət deyirdi ki, 1-ci kursda oxuyarkən səndən dəstək alıbmış. İki kurs işini təmənnasız olaraq yazıb vermisən və o, bu iki yazı ilə universitetin müəllim heyətinin dərin rəğbətini qazanıbmış. Sonrakı illərdə tələbəliyinin sığortasına çevrilibmiş sənin yazdıqların. Nədənsə uzun illər boyunca o lovğa, pullu, alverçi Dəyanət diplomat olandan da sonra səni arayıb-axtarmamış, lakin dediyinə görə son zamanlar nəsə səni çox axtarıb. Anar danışdıqca az qala Farizin surətini unutduğu Dəyanət gözləri önündə canlanmağa başladı. Arıq, uzunboğaz, hündürboy Dəyanət imkanlı uşaq idi. Atası Rusiyada ticarətlə məşğul olurdu. O hər zaman hamıdan yaxşı geyinərdi. Çoxlu pulu olardı Dəyanətin. Puluna görə ona yaltaqlananlar da çox olardı. Hətta məktəbin ən qəddar, güclü atamanları da bu çəlimsiz oğlana “ehtiram” göstərirdilər. Çünki o pullu oğlan idi. Onun qoluzorluları da ətrafına sipər edəcək gücə malik pulu vardı. Ağlı kəsəndən ticarət görən, pul görən, pulun gücünü görən Dəyanət evlərinin qarşısında kiçik bir “Komisyon dükan”ı da açmışdı. Yaxşı gəlirləri olurdu. Əslində, Rusiyada universitetdə həm kafedra müdiri olan, həm də ticarət obyektlərinə malik böyük əmisi olmasa idi, o avara birisinə çevriləcəkdi. Əmisi onu pul gücünə həm oxutdu, həm də universitetə qəbul olunmasına kömək etdi. Dəyanət ödənişli oxuyurdu. Əmisi onun biznesini davam etdirməsinin də qarşısını almadı. Dəyanətin satıcısı da vardı. Artıq o kiçik bir biznesmen idi. Beləcə, illər öz axarı ilə ötürdü. Universitetə

birtəhər qəbul olan Dəyanəti ilk semestrdə verəcəyi imtahanlardan daha çox müddəti daralan təhvil verilməli olan kurs işləri narahat edirdi. Pul müqabilində yazdırmaq niyyətində idi. Danışıb yazdıracaqdı ki, təsadüfmü, qədərmi küçədə sinif yoldaşı olan Farizə rast gəldi. Hal-xoşdan sonra hər şeyi danışdı. Fariz o zaman imkansızlıq ucbatından istəmədiyi bir sahə üzrə qiyabi təhsil alırdı. O vaxtlar fikirləri, hərəkətləri sərbəst və sərt idi. Maddi sıxıntıları çox olduğundan işləyirdi. İşə gecikməmək üçün azacıq söhbətləşəndən sonra üzrxahlıq edib getdi. Dəyanət onun harda işlədiyini bilirdi. Odur ki, axşamçağı rahat şəkildə onun iş yerinə yollandı. Bir daha söhbətləşdilər. Sözarası puluna güvənən Dəyanət Farizə üstüörtülü kurs işinin müqabilində pul təklif edirdi. Üzünə zillənmiş sərt baxışlara tab gətirmədiyi üçün ayağa qalxdı.

Araya dərin bir süküt çökmüşdü. Nəhayət, bu sükutu Farizin həlim səsi pozdu:

– Dəyanət, hər şey pulla ölçülmür. Unutma ki, bu dünyada ülvi hisslər, dostluq, yoldaşlıq, kişilik, mərdlik və köməklik kimi anlayışlar da var. Sən məni çevrəndə sənə yalmananlarla bir tutma! Mən kömək edəcəm dedimsə, qarşılıq güdmədən bunu edəcəm. Bilirsən, hələ müharibə başlamamış mənim də qəlbimdə oxumaq üçün gələcək arzularım var idi. O ülvi arzuları amansız müharibə və onun fəsadları məndən aldı. Təkcə məndən deyil mənim kimi on minlərlə uşağın arzularını məhv etdi müharibə. Yüzlərlə uşağın sağlamlığını əlindən aldı, yüz minlərlə insanı didərgin saldı, öz vətənində qərib etdi, insanların alnına damğa vurdu. Müharibə ən böyük oğrudur. Bizim uşaqlığımızı, arzularımızı, ümidlərimizi, səadətimizi, sevincimizi, hüquqlarımızı çaldı bizdən faciələrin səbəbi olan müharibə! Amma bilirsən ən pisi nədir?! Ən pis olanı müharibəni insanın başlatmasıdır. Öz-özünə müharibə olmur. Müharibə təbiət hadisəsi deyil, o bilavasitə insan hərisliyinin faciələrə aparan məhsuludur. Mən sənə özümə qismət olmayan diplomatiya haqqında kurs işi yazacağam. Gəl sənə "Müasir diplomatiya və siyasət" mövzusunda kurs işi yazım. Fərz et ki, bu yazın bir nömrəli yazı olacaq, əmin ol!

Onsuz da bunları yazmağa kifayət qədər savadı olmayan Dəyanət razılaşdı. Bir həftə sonra Dəyanət bütün universitetdə ən məşhur sima oldu. Aradan uzun illər ötmüşdü. İki kurs işinin faydası ilə Dəyanət universiteti də bitirdi, diplomat da oldu, amma o məşhur kurs işlərini əslində kimin yazdığını heç kim bilmədi. Anar yenə danışırdı. Fariz onun danışdığı müddətdə ötən illərə qayıtmış, hər şeyi yenidən xatırlamışdı.

Xarakter etibarı ilə söhbətcil birisi olan Anar isə Farizə ürəyi yana-yana danışırdı.

– Fariz, bu Dəyanətdən heç ağlım bir şey kəsmədi. Açığı, o indi daha çox hiyləgər adamdır. Sənin haqqında danışanda içkili idi. Yoxsa on doqquz il əvvəl sənin köməyinlə universitetdə məşhurlaşan o adam, bəlkə də, yüz doxsan dəfə görüşməyimizə baxmayaraq bu sirri heç vaxt açmamışdı. Məncə, onun səndən nəsə yenə bir umacağı var. Fariz, onun danışıqlarından sonra mən sənin savad səviyyənə və ürəyinə yaxşı mənada bir daha həsəd apardım. Əslində onun mövqeyində sən olmalı idin... təəssüf... Mən müharibəyə də, onu başladanlara da nifrət edirəm. Sən indi danışdıqca sənin məhv olmuş, dağılmış, parçalanmış uşaqlıq dünyana, puç olmuş arzularına, istəklərinə yanıram. Ard-arda valideyinlərimi itirəndən sonra çox kövrək oldum, həyatı daha yaxşı dərk etməyə başladım. İnsanların dərdini içdən duydum, onların acılarını yaşadım.

Anarın gözləri dolmuşdu. Bir az da keçsə rəsmən ağlayacaqdı. Fariz bu yekəpər, xarici görünüşü ilə kobud görünən, lakin uşaq kimi məsum bir qəlbi olan Anarı toxtatmaq üçün əlini onun çiyninə qoyub mehribanlıqla dedi:

– Anar, keçənə güzəşt məsəli var. Daha olan olub. Keçmişi geri qaytarmaq mümkünsüzdür. İnsan həyata bir dəfə gəlir. Bax, sənə bir sitat gətirəcəyəm. Özün hər şeyi gözəl anlayırsan. Mərhum şairimiz Qabil yazmışdı ki: "Müsibət oluruq biz, səhv düşəndə yerimiz..."

Hər ikisi anlaşılan məna ilə bir-birini baxdılar. Daha bir kəlmə də kəsmədilər. Sükanı bərk-bərk sıxan Anarın əlləri titrəyirdi. Farizin gözləri önündə isə iyirmi səkkiz il əvvəlki diplomat olmaq arzusu ilə alışıb-yanan balaca oğlan dayanmışdı. İki fərqli dünyanın adamları bir-birinə baxırdılar. Birinin gözlərində ümid qığılcımları parlayır, digərinin qəmli gözlərində isə puç olmuş, parçalanmış arzuların, istəklərin tonqalı yanırdı.



## ÖMÜR YAZAR

### İSİMSİZ HİSSLƏR

Tamam darıxıram mən bu aralar,
Elə səssizləşib həyatım yaman.
Telefonda susub ürəyim kimi,
Kaş yenə olaydı əvvəlki zaman.

Yenə danışaydıq bütün gecəni,
Yenə sözlərini böləydim balla.
Uzağa getmərəm – uzaqbaşı mən
Ancaq məzarlığam bu gün bu halla.

Hərdən düşünürəm, görən, yaxşıdır?
Görəsən, o da yad edirmi məni.
Sonra da tez qovub bütün xəyalı,
Bu xəyalla çətin unudam səni.

Sən mənim canımda başqa can idin,
İndisə o cana qıyıb susuram.
Saxta təbəssümlə, saxta həyatla,
Gündüz gülüb, gecə mən qan qusuram.

Artıq silinibdir bizim yazımız,
Uçan bir qələmin sətirlərində.
Biz bizi duyarıq yuxuda, bir də
Bitən son baharın ətirlərində.

Bircə diləyim var uca Tanrıdan:
Xoşbəxtin xoşbəti olasan daha.
Bəs edər mənimlə çəkdiyin acı,
Mənim acılarım yetər Allaha...

### NƏ TEZ ÖLDÜN SƏN

Şairim, nə tez öldün sən...
Bu tezlikdə ölmək olar?
Məzarına baş qoyaraq
Bir az dərdi bölmək olar?

Şairim, nə tez öldün sən...
Ölüm yaraşmır yaşına -
Bir vaxt başına dönənlər,
İndi dönür başdaşına...

Şairim, nə tez öldün sən...
Toya-büsata yetmədən,
Bala gülüşü görmədən,
Nəfəsini hiss etmədən...

Şairim, nə tez öldün sən...
Səni sevənlər ağlayır -
Sənin matəmin əbədi
Əbədi matəm saxlayır...

Şairim, nə tez öldün sən...
Yox! sən sağsan, ölən bizik -
Dahilərin qiymətini
Ölən zaman verən bizik...

Şairlər tez ölən deyil,
Əsərində vardır onlar -
Hər şeirin, hər qəzəlin
Kəsərində vardır onlar...

### NƏSİHƏTNAMƏ

Həqiqətdə tap eşqi,
Günlük həvəs olmadan.
Yavaş-yavaş nəfəs al,
Tənginəfəs olmadan.
Gerçəyində eşələn,
Yalanında üzmədən.
Tərgit günahlarını,
Yanbayana düzmədən.
Sözümü düz başa düş,
Axtarma fitnə-fəsad.
Heç olmasa öləndə,

Qoyaq sanballı bir ad.
Kiçiklərə ver dəyər,
Böyük dəyər qazansın.
Şeytanın başını qat,
İşlərində yubansın!

## MƏN ÖLƏNDƏ

Mən öləndə sinəm üstə Quran gəlsin,
Mən öləndə cənazəmi quran gəlsin.
Mən öləndə tabutumu qaldıracaq,
Qaldıranda ağlayacaq insan gəlsin.
Tez çağırın!
Deyin ki, son nəfəsdədir, anam gəlsin.
Mənə canı yanan gəlsin.
Gözlərimi bağlayacaq,
Bağlayanda ağlayacaq insan gəlsin.
Dərin qazın məzarımı, qurda-quşa yem olmayım,
Üstümü də betonlayın, məndən daha
mən olmayım...
Kimsə ki yolun gözləyir, gözləməsin!
Ora gedən dönməyibdir.
Nə qədər ki var nəfəsi, bil qədrini.
Nə qədər ki ölməyibdir!

## FƏRYAD

Əgər ki dərdimi danışsam sizə,
Məndən öncə fəryad, fəqan edərsiz.
Qəlbdəki yarayla, dildəki ahla,
O yara vuranı al-qan edərsiz.

Günah dəftərimə yazmasın Allah,
Haqqıma girənin haqqın batırdım.
Elə doğulanda ölsəydim əgər,
Allahın yanında rahat yatırdım.

Yaşadıqlarımı yazası olsam,
Oxuyub-oxuyub ağlayardınız.
Yaşadıqlarımı yaşasaydınız,
Görən, qınayanlar, qınayardınız?

Ey çərxi dağılmış bu dəli dünya,
Sənə dəli deyib havalanmışam.
Mən ki bəndəyə yox, onun sahibi,
Tək olan Allaha arxalanmışam!

## DANIŞAN MƏLƏK

Məni xəyal sanmayın,
Mən gərçəyin özüyəm.
Düşmənin yan baxdığı,
Düz görənin gözüyəm.
O mənəm ki günahsız,
Qana boyanan uşaq.
O qanla ki körpələr
Hələ tarix yazacaq!

Aysuyam, Narinəm mən –
Mən ki, boy atacaqdım.
Doğulanda bilməzdim,
Erkəndən yatacaqdım.

Cənnətin ən çiçəkli
Yerində rahatıq biz.
Anacan sizin üçün,
Ancaq narahatıq biz.

Ey gözü yaşlı atam,
Sil gözünün yaşını.
Vətən sağ olsun deyib
Dik tut məğrur başını...

## YA GET, YA GƏL

Mən bir fırtınayam, sən isə qayıq,
Ey dəli aşiqim, çoşma, qaynama.
Ya qal ürəyimdə, ya çək sahilə,
Batarsan, mənimlə çox da oynama.

Dərdim en qədərdi, təzələmə gəl,
Ya get birdəfəlik, ya da qayıt gəl.
Uzatsam, tutmasan əlimi mənim,
Yanımda olsanda, uzatmaram əl.

Yaddaşım balığın yaddaşı qədər,
Unutsam, əbədi gedəsən gərək.
Sonra qayıtsanda, faydası olmaz,
Bunu heç olmaya biləsən gərək...

## GÜLMƏYİM GƏLİR

Həyata gələndən gülmədi üzüm,
Üzsüz insanlara gülməyim gəlir.
Göz yaşım sel oldu, qurudu gözüm,
Qupquru gözümü silməyim gəlir.

Hər kəs bir başqadır, neyləmək olar,
İnsanın daxilin tək Allah bilir.
Kimlərə nə deyib, söyləmək olar,
Sakit bir guşədə ölməyim gəlir...



**AYGÜN CƏFƏROVA**
*filoloq*

# «AMİN»LƏ BAŞLAYAN DUAMIN YAZISI

Ədəbi mühit də həyatın bir guşəsidir. Dəyişimləri, gəlişi-gedişi var bu aləmin də. Bir az da söz kürsüsüdür ədəbiyyat aləmi. Ürəyində sözü olanlar, Qələmə gücü çatanlar özlərində cəsarət tapıb sözlərini başqalarına da eşitdirmək istərlər. Ya da bu sonrakı mərhələ olur.

Müasir Azərbaycan ədəbiyyatı yenə öz ritmi ilə gələnləri qarşılayır, gedənləri yola salır. Haqqı çatmayanları zamanın ələyindən keçirib unutdurur, haqqı çatanları Haqqa çatandan sonra da fani dünyada belə əbədiyaşar edir əlahəzrət SÖZ. Bu yazımızda ədəbi cameədə maraqlı hekayələri ilə diqqət çəkməyi bacarmış Sumqayıt ünvanlı, Göyçə - Qaraqoyunlu kökənli gənc yazar Amin Namazlının barəsində fikirlərimi bölüşmək istədim.

İnsanı getdiyi yerdə görünüşünə görə qarşılayıb, sözünə görə qiymət verərlər. On yeddi yaşlı gənc istedadımızı da, məhz sözünə görə tanıdım. Onun sözü hekayələridir. 14-15 yaşlarından hekayələri, müxtəlif yazıları ilə mətbuatda çap olunmağa başladığını biləndə yazdıqları ilə tanış olmaq istəyi yarandı məndə. Axı bu az yaşda nə dərəcədə maraqlı bir mətn yaratmaq olar ki, «525- ci qəzet»də, «Ulduz»da, «Ədəbiyyat» kimi yüksək bədii-ədəbi tələbkarlığı olan qəzet və jurnallarda, «Kulis»də, «Edebiyyat. az» da yayımlansın bir imza? Amini oxuyunca həqiqətən də, ədəbiyyatımıza bir istedad gəldiyinə əmin oldum və çox məmnun oldum. «İnsan ağacı», «Dibçəkdəki adamlar», «Ömür işığı» adlı hekayələrini, digər qəzet yazıları və tərcümələrini oxudum.

**«İnsan ağacı»**

Hekayəni əfsanələrimizin (aylar keçir, körpə böyüyür. Böyüyüb ağzı üstünə çevrilən zaman Tanrı bu şəhəri ağacı köklü-köməcli çıxaran kimi yerindən qoparıb tərsinə çevirir.), rəvayət, nağıl (nə yaxınlığımda çıraq var idi ki, sürtəm cin çıxa, nə xalça nə də ağ-qara qoç var idi ki, tərkində oturub çıxıb gedəm.), dastanlarımızın (qarğalar uçmağında, yas verməklərində dursun, sizə kimdən xəbər verim, özümdən) özətinə bənzətdim. Fantastik müstəvidə şəkildən-şəklə düşən qəhrəman gah kiçilib qərənfil saplağının içində gəzir, gah səhraların üzərindən süzür, gah dənizlərdən keçir. «Dəvə kimi incəlib iynənin deşiyindən keçmədim, amma kiçilib qırılmış qərənfil gövdəsindən içəri girdim. Hüceyrələrlə salamlaşdım, liflərlə dostlaşdım, arabir ayağım şirəyə yapışdı, axır gəlib bir dəhlizə çıxdım.»

Amin hekayə içində sanki bir neçə əfsanə danışır, hər cümlədə maraqlı aləmlərə aparır oxucunu.

**«Dibçəkdəki adamlar»** hekayəsi də əfsanə, rəvayət bulağından gəlib Aminin qələminə. Ona görə də doğmadır, səmimidir, maraqlıdır.

Gicitkən, gülxətmi, lalaxaş bitkilərinin adlarına hərəsinə bir «dastan» bağlayan gənc yazarın ifadə



bacarığı oxucunu hekayənin sonuna qədər özünə bağlaya bilir. Az yaşda müasir dövrün yetirməsi olaraq yaşıdlarının, bəlkə də, eşitmədikləri kəlmələrdən yazılarında istifadəsi Aminin ən gözəl özəlliyidir.

«Axşamın sazağı məni qulaqlayıb evimizin həndəvərinə kimi gətirdi..

...duzu ocağın üstünə əldənləyib kəm gözlərə üfürməsinlər...

Kəndin oğlanları yollara pələsəng olub...

Qapılarında ərasət millət olurmuş...

İrəli zamanda...

Həmin gün anam dəmir maşanı əlinə alıb kənd aşağı məni teyim-teyim teyləmişdi.

... Necə deyərlər çıtmıqları göyə çıxır...

**«Ömrün işığı»** hekayəsini oxuduqda düşünmüşdüm ki, ən maraqlı əsərləri elə uşaqlar yaza bilərdilər. Uşaq təxəyyülü daha əsrarəngiz və fərqli olur. Cansız varlıqların da dili, şüuru, səsi, sözü olduğuna inanırlar axı azyaşlı balalar. Elə buna görə də, böyüklər onlara məsum, saf varlıqlar kimi baxırlar. Guya uşaqlardan daha çox bilirlər böyüklər dünya haqqında. Bəlkə də, elə uşaqların dünyası və düşüncəsi həqiqətə daha uyğundur?! Bəlkə, onlar daha çox bilirlər, tanıyırlar dünyanı. Qeybdən yenicə dünyaya gəlmiş uşaq Ruhlar böyüdükcə, böyüklərin adiləşmiş, rəngsiz, məsumluğunu və saflığını itirmiş dünyasında yaşadıqları hər ötən gündə Yer adamına çevrilirlər, təxəyyül imkanları məhdudlaşır. Uşaqların yazıçılıq bacarıqları olsaydı, xəyallarındakı aləmləri sözə çevirə bilsəydilər, ən gözəl fantastik əsərləri məhz onlar yazardılar.

Aminin hekayələrindəki əfsanə enerjisi, fantastik olaylar əslində oxuduğu şifahi xalq ədəbiyyatı nümunələri, ətrafındakı sinəsi söz dolu nənəli-babalı ailə mühiti ilə bərabər, həm də ruhən hələ də uşaq saflığının imkan verdiyi təxəyyülü ilə bağlıdır. Amma Aminin hekayələrindəki qəhrəmanların özlərinə kənardan baxmaq qabiliyyəti, yeri gələndə sarkazmla kinayə ilə dərddən, acıdan da söz aça bilməsi onu artıq sadəcə yaşı az, dünyagörüşü və düşüncələri isə böyük olduğunun sübutudur.

Amin ədəbi mühitə yeni qədəm qoysa da, çoxlarının uzun illər ərzində qazana bilmədikləri diqqəti və rəğbəti qazana bildi. Gündəmdə olmayan, az qala unudulmuş böyük nasirlərimizlə görüşləri sanki iki nəslin arasında körpüyə çevirdi Amini. Yaşlı nəslin qarşısına ədəb-ərkanı, zəngin mütaliəsi, ağıllı sözü-söhbəti ilə çıxan gənc nəslin ən gözəl nümunəsi olaraq yaşlı ədəbiyyatsevərlərin gələcəyə ümidi və ürək dolusu fəxri oldu Amin. Elm yolunda «əlinə əsa alıb», «dəmir çarığını geyinib», «xurcununa» Azərbaycan, Türk ədəbiyyatını, mədəniyyətini, tarixini götürüb doğulduğu, böyüdüyü şəhərdən çıxıb daha çox bilgilər qazanmaq üçün səfərə çıxıb. Elm dalınca Çinə olmasa da, Isparta elinə gedib. Qardaş Türkiyəmizə əmanət verdiyimiz Amin elm yolunda «dəmir çarığının altı yeyilənə» qədər Türk dünyasının bilgəsi, aydını olacağına əminəm. Onun missiyası da yəqin belə yazılıb taleyinə Yaradan tərəfdən. Biz də Aminin yola çıxdığı bu qutlu səfərdə arxasınca xoş dualarla iki ovuc nur səpib «Uğur olsun, Amin!» deyirik!



MÖVLÜD AĞAMMƏD

## GƏLMƏDİ

Dedim yara namə yazım,
Əlim gəlmədi, gəlmədi.
Dərd üstünə dərd istədim,
Zülm gəlmədi, gəlmədi.

İllər ilə həsrət çəkdim,
Yenə onsuz, yenə təkdim;
Dərdi yarı böləcəkdim,
Gülüm gəlmədi, gəlmədi.

Dərd əlindən gəldim dada,
Hey düşdükcə dərdim yada;
Dedim, bəlkə, yetər dada,
Ölüm gəlmədi, gəlmədi.

Dərd məskənim dərd dağıdır,
Dərd ələyir, dərd dağıdır;
Necə deyim, dərd yağıdır,
Dilim gəlmədi, gəlmədi.

Mövlud dərdinə ağlayır,
Dərd kitabın varağlayır;
Dərdim sinəmdə çağlayır,
Selim gəlmədi, gəlmədi...

## TELİN DƏN SALIB

Nə yaman qüssədən saralıb rəngin,
Eh, gözəl, gözlərin selindən qalıb.
Salacam yolumu dağlara tərəf,
İçəcəm dərdini əlindən alıb.

Bir yanda dağ boyda dağım var – zülm,
Bir yanda tənhalıq, tənha bir ölüm;
Səbrimin də səbri tükənib, gülüm,
Məni də dözümün dilindən salıb.

Xəyalım gerçəyə qarışır, itir,
Şirin vüsal anım yuxutək bitir;
Mövlud indi-indi vəslinə yetir,
Demə, qocalıbsan, telin dən salıb...

## YANACAQ

Dərdim yaz yağışı – tonqal üstünə,
Azarı-bezarı odda yanacaq.
Günü qara gəlib – nə küsür, umur,
Gileyi-güzarı odda yanacaq.

Dərdim süzüləcək dərdin içindən,
Özü naxış-naxış, ilməsi dən-dən.
Baxıb ay üzünə bölünəcək tən,
Bənövşə üzarı odda yanacaq.

Dərdim öz əlindən təngə gələcək,
Yığıb ovucuna çəngə biləcək.
Baxıb alışdığı rəngə güləcək,
Əzabı, azarı odda yanacaq...

## MƏNİMÇÜN

İşdi yaxa versəm, zalım əcələ,
Göyüm-göyüm göynəyərsən mənimçün.
Bir az razı, bir azca da narazı,
Deyim-deyim deyinərsən mənimçün.

Yuxuların qarışmasın gerçəyə,
Ümid olub gözlə məni gecəyə;
Sevincini bölüşərsən heçliyə,
Öyüm-öyüm öyünərsən mənimçün.

Saxla məni aşiq kimi yadında,
Xatirində doğmanın da, yadın da;
Ürək olub, gülüm, Mövlud adında
Döyüm-döyüm döyünərsən mənimçün...

## QÖNÇƏLƏR

Əvvəl çiçək, sonra yarpaq açacaq,
Çiçək-çiçək düzüləcək qönçələr.
Bahar ömrü bitər-bitməz güllərin,
Ləçək-ləçək üzüləcək qönçələr.

Lalə kimi gül bəsləyir yanaqlar,
Üşütməsin vaxtsız düşən sazaqlar.
Damla-damla mey bəsləyir dodaqlar,
İçək, içək... Süzüləcək qönçələr.

Nədir, Mövlud, ağ saçlara sualın,
Dərd gətirir dərdlərinə bu halın.
Heyif, qaldıq ümidinə xəyalın,
Dilək-dilək göziləcək qönçələr...

## GƏL

Bu dərd bizim aramızda bitibdi,
Bir daş altda, birini də üstə gəl.
Nə dil bilsin, nə də dodaq anlasın,
Nə fərq olsun, nə də bircə üstəgəl.

Heç nə umma belə zalım fələkdən,
Dünyamıza qəm ələnir ələkdən;
Qismətinə düşən paydı ürəkdən,
Birin verib, birini də istə gəl.

Çətin bir də ömür dönə geriyə
Buz bağlamış xəyalların əriyə;
Nə deyirsən, Mövlud, mələk pəriyə:
– Öz bəxtindən nə inci, nə küs də gəl.

## ELƏ BİL QIŞDIR

Bu yağış yağmağın təhərin bilmir,
Ağarıb qar kimi, elə bil qışdır.
Payızın qızılı rəngi dəyişir,
Bu necə ilmədir, necə naxışdır?

Əyib budaqları özümə sarı,
Payızın ətrini çəkəydim barı.
Yarı qərənfildir, bənövşə yarı,
Boylanır həsrətlə, bu nə baxışdır?

Yağır taleyimə, ruhumdan keçir,
Qocalıq donunu dumandan biçir.
İllərin ayrılıq suyundan içir,
Daha islanmıram, yağsın, yağışdır...

## KEÇİR

Tələsmə vədəsiz, vaxtsız ölümə,
Fələyin yazısı alından keçir.
Yığıb-yığışdırma ömrünü pay-pay,
Gedənlər dünyanın malından keçir.

Yamanca son qoydun bu intizara,
Ağrılar, acılar düşübdü dara;
Elədən eləyə, belədən hara -
Hərlənib ürəyin dalından keçir.

Necə də kövrəlib ümid çırağı,
Ağlayır gözündə ölüm sorağı;
Qopulur sonuncu ömür varağı,
Vəsləti Mövludun halından keçir...

## SAYARSAN

Yolun düşüb yar yanına gedəndə
Bir addımı iki addım sayarsan.
Əhvalını xəbər alıb soranda,
Elə bil ki sənə yaddım, sayarsan.

Gətirməsin aşiqini bəxt cana,
Həsrətindən alovlana, odlana.
Fələk verib, şükür elə, di sana,
Muradıma indi çatdım, sayarsan.

Mövlud, həsrət çəkdin yetər bu qədər,
Bənövşəndən varmı görən bir xəbər?
Vəsləti var ölümündən lap betər,
İkisin də birdən daddım, sayarsan...

## ÇƏKƏN BİLƏR

Bir az həsrət, bir az hicran çəkəsən,
Çəkən bilər ahu-zarın qədrini.
Çəkib, çəkib peymanından dönəsən,
Çəkən bilər düz ilqarın qədrini.

Buz bağlayıb sanki donuq baxışlar,
Vəfasızı hərə bir cür bağışlar;
Çəkdiyimiz kimi düşüb naxışlar,
Çəkən bilər buzun, qarın qədrini.

Kim unudar ilk sevginin dadını,
Söndürməklə sönən deyil odunu;
Necə çəkim ayrılığın adını,
Çəkən bilər, Mövlud, narın qədrini...



ŞAHSƏNƏM

# CULBARS

(hekayə)

Deyəsən, mən ölürəm... Sahibim tez-tez gedib gəlib məni yoxlayır. Mənimlə danışmasa da hiss edirəm ki, ölümümü gözləyir. Axı mənim hissiyyatım güclüdür...

Sahibim heç kimin eşitmədiyinə əmin olduğu vaxtlarda mənimlə söhbət edirdi həmişə. Adamlar arasında çoxlu işlər var. Biz itlərin isə bircə işi var. Sahibimizi səmimiyyətlə sevib, onu qorumaq...

Sahibim mənə demişdi ki, Çingiz Aytmatov deyilən bir yazıçı var. O romanlarından birində mənim uzaq qohumum olan çoban itindən danışıb. Adı xoşuna gəldiyinə görə sahibim məni onun şərəfinə Culbars adlandırıb. Mən də çoban iti ola bilərdim. Kəndin yaxınlığındakı çoban binələrindən birində doğulmuşam. Valideyinlərim həmin binəni qoruyurlar. Biz üç qardaş, üç bacı idik. Bəzi çobanlar itləri balalayanda küçükləri küllükdə basdırırlar. Kül iyi azdırdığından ana it balalarının başına gələni heç hiss etmir də.

Amma bacılarımla mən şanslı doğulmuşuq. Bizim doğulduğumuz binənin çobanı insaflı adamdır, küçükləri öldürmür heç vaxt, kənd uşaqlarına hədiyyə verir. Yetim qalsaq da sevəcəyimiz sahibimiz, yeməyə sümüyümüz, içməyə yalımız, qorumağa evimiz oldu.

Evin kiçik oğlu məni gətirən gün qonşu uşaqlar ona nə öyrətdilərsə, qulaqlarımdan yapışıb məni fırlatdı. Körpə küçük qulaqlarım dibindən üzüldü, əlində qaldı. Ağrıdan zarımağıma məhəl qoymayıb üstəlik quyruğumu da kəsdi. O gecə səhərə kimi ağladım. Atası biləndə oğlunu bərk danladı. Deyəsən, hətta əlindəki ağacla döymək də istədi. Amma şuluq uşaq əldən çıxıb gizlənməyi bacardı...

Qabım gecə-gündüz südlə dolu olurdu. Süddən içə-içə böyüyürdüm. Bir gün sahibim başımı sığalladı, belə lazım olduğunu dedi və boynuma xalta keçirdi. O gündən gündüzlərim zəncirdə keçdi. Nə qədər dartınsam da, zənciri qıra bilmirdim. Artıq mənə ev də düzəltmişdilər. Gecələrin düşməyini səbirsizliklə gözləyirdim. Gecələr zəncirimi açır, ətri ətrafdakı itləri qısqandıran təzə yalımı içir, bağda atdanıb-düşürdüm. Qonşu itlər də adamlar kimi məndən qorxurdular. Qonşunun qoca iti idi, deyəsən, onları başa salan. Onları mənimlə dostluq etməyə qoymayan. Eybi yox, qoymur heç qoymasın deyib vecimə də almırdım. Onsuz da təkliyə öyrəşmişdim. Sahibim deyirdi ki, kəndə namım yayılıb. Heç kim qorxusundan bizim həyətin həndəvərindən keçə bilmir. Keçməklərinə icazə verməzdim axı.

Allahın biz itlərə verdiyi hissiyyatla qəlbiqara insanları qaraltısından əvvəl hiss edirdim. Bir gün həyətə çoxlu adamlar gəldi. Ertəsi

gün ondan çox, qəribə işlər oldu. Xeyli stol-stul daşıdılar düzdülər həyətdə. Məni artıq gecələr də zəncirdə saxlayırdılar. Sahibimdən küsmüşdüm. Məni tamam unutmuşdu. Düzdü qarma-qarışıqlıq başlayandan qabım dolu ətli sümüklər olurdu, qarnım tox idi. Amma mən azad olmaq istəyirdim. Yenə gecələr kəndi gəzmək, adamlı, itli-pişikli hamını qorxutmaq istəyirdim. Stollar düzülən günün səhərisi gurultu qopdu. İnsanlar buna deyəsən toy deyirlər. Evin ortancıl oğlu evlənirdi. Toya böyüklərlə bərabər uşaqlar da gəlmişdilər. Böyüklərin başı qarışan kimi hamısı qorxa-qorxa yaxınıma gəlir, məni daşlayırdılar. Axı mən onlara heç nə eləməmişdim... Yaxşı ki, bu vurhavur tez qurtardı. Yoxsa olan qalan səbrim də tükənəcək, zəncirimi qoparıb nadinc uşaqları necə lazımdı cəzalandıracaqdım.

Sakitlik düşən gecə sahibim məni zəncirdən azad etdi. Adətim üzrə, əvvəl həyətə qaçdım. Həyətdən indiyə kimi heç vaxt hiss etmədiyim yasəmən qoxusuna bənzər zərif bir iy gəlirdi. Qırmızı xalatlı, qısa saçlı, kənddə gördüyüm qızların heç birinə bənzəməyən bir qadın idi iyin sahibi. İyin sahibini bu həyətdə heç görməmişdim. Ev camaatının “Culbars” qışqırtısını vecimə almadan özümü qadına çatdırdım. Pəncələrimi çiyninə qoydum, gözlərinə baxdım. İlk dəfə idi ki, belə məhəbbətlə baxan gözlər görürdüm. Məndən zərrəcə qorxmamışdı. Hamı donub qalmışdı. Qadınla mən isə bir birimizə baxırdıq. “Sən Culbarssan, tanışlığımıza şad oldum” dedi sevincək. Bu an təzə yalın iyi məni tutdu. Yemək qabıma doğru götürüldüm. O gecədən sonra yeməyimi o qadın verməyə başladı. Sahibim kimi o da hamıdan gizlincə mənimlə söhbət etməyə başladı. Mənə bəzi qadağalar qoyurdu. Mən də hamısına əməl edirdim. Adamlar yemək yeyəndə stola yaxın getməyə qoymurdu. Pəncələrimi çiyninə qoyub gözlərinə baxmağa da qoymurdu. Aşağı əyilir, özü gözlərimə baxırdı. Bir müddət sonra onun bətnində körpənin varlığını hiss etdim.

Sahibim çoxlu tənək şitili basdırmışdı həyətə. Günlərin bir günü birini çeynədim, dadı xoşuma gəldi. Turşməzə dadı başımın ağrısını götürdü. O birini də, o birini də... Hamısını çeynəyib bitirdim. Səhər sahibim çeynənmiş meynələri görəndə zəncirlə məni talvara bağladı, gör sən neynəmisən, iki illik əməyimi zay etdin deyə deyə məni bərk döydü. Günahımı başa düşsəm də, adam dilində danışa bilmədiyim üçün bunu ona deyə bilmirdim. O isə döydükcə döyürdü. Gəlin sahibimə yalvarmağa başladı ki: “dayı, bir bax gör necə baxır, vallah, səhvini başa düşüb...” Birtəhər kişini yumşaltdı. O gündən sonra xaltamı gəlindən başqasının bağlamağına icazə vermirdim. İsti havalar düşəndə mənim yerimi kölgəliyə dəyişirdilər. Belə günlərin birində gəlin harasa getdi. Soyuqlar düşəndə qucağında körpə ilə qayıtdı. Körpə ağlayanda anası onu mənim yanınma gətirir, körpə ağlamağını kəsib mənə tamaşa edirdi. Günbəgün uşaq böyüyürdü, mənə sevgi göstərənin biri beləcə artmışdı. Uşağın bir yaşına hazırlıq gedirdi evdə. Gəlin uşağını götürüb harasa uzaqlara getmişdi. Ev adamları da gözə dəymirdilər. İsti olduğuna görə mənim yerimi yenə kölgəliyə dəyişmişdilər. Bura, düzdü, sərin idi. Amma qonşunun balaca qızı mənə heç cür rahatlıq vermirdi. Həyətdə adam olmayan kimi gəlib məni daşlayır, hürdürürdü. Əlindən zəncir çeynəyirdim. Bir gün lap həyasızlıq elədi. Dəmir torun o üzündən çubuğu gözümə soxdu. Bu artıq son damla oldu. Güc verməyimlə zəncirin qırılmağı bir oldu. Torun üstündən hoppanıb uşağı haqladım. Yumşaq yanından yapışıb qaldırıb yerə çırpdım. Qışqırtıya əlində balta ilə gələn babasını görcək uşağı buraxıb qaçdım. Həmin gün gecəyarıyadək kəndin bütün çəpərlərini süləndim. Pis bir iş gördüyümün fərqində idim. Amma Allah şahiddir ki, heç bir günahım yox idi...

Ertəsi gün səhər tezdən qorxa-qorxa evə qayıtdım. Sahibim təzyiqdən qızarmış gözlərlə məni süzdü. “Ay əclaf, məni niyə qonşu yanında diligödək elədin” dedi və sakitcə xaltamı boynuma keçirdi. Qorxduğumun əksinə olaraq məni döymədi. Üç gün dinmədən suyumu, yeməyimi verdi. Dünən yeməyimi verəndə mənə uzun-uzadı elə baxdı ki. Sonra o boyda kişi uşaq kimi hönkürüb ağladı. Dünəndən bəri halım yaman qarışıb.

Onu deyirdim axı. Deyəsən, mən ölürəm...

# QONŞU GƏLİN

*(hekayə)*

Türk qardaşlarımızın məşhur bir deyimi var: "Həm işimizi, həm eşimizi gənclikdə seçdiyimiz üçün yanlış qərarlar veririk..." Bu fikir mənim üçün də keçərlidir.

Tələbə vaxtı hündür boyuna, ala gözlərinə aşiq olduğum oğlanla təhsilimizi bitirər-bitirməz evləndik. Sevgi gözümüzü boyamışdı. O boya solduqca nələr oldu, nələr... Bu artıq başqa söhbətin mövzusudur, o barədə cəsarətim çatsa, başqa vaxt danışacağam.

Evləndikdən sonra onun valideynlərinin evində yaşamağa başladıq. Hər ikimiz 21 yaşında, işsiz, evsiz, həyata dair zərrəcə təsəvvürü olmayan gənclər idik. Gəlin köçdüyüm kənd doğulub böyüdüyüm kəndlə müqayisədə sanki əlli il geridə qalmışdı. İnsanların yaşayış tərzi, dünyaya baxışı, geyim tərzi mənim böyüyüb tərbiyə aldığım mühitdən çox fərqlənirdi. Əslində həmin kənd rayonun digər kəndləri arasında ad çıxartmışdı. "Şərikli çörək" filmində məşhur bir epizod var. Qonşu kişi kartoçkası tapılan Vaqifi hamı yalançı adlandıranda pəncərədən baxır və deyir: "Uşaqda fərasətə bax, hamını aldadıb".

Bax bu məsəl həmin kənd camaatının həyata baxışını dəqiqliklə izah edirdi. Kimisə aldadan, min cür fırıldaq işlə məşğul olanlara fərasətli adam kimi baxırdılar. Qoca kişilərlə yeniyetmələr tay-tuş kimi şit zarafatlar edir, kişi müəllimlər dərslər qurtarıb şagirdlər məktəbi tərk edən kimi "sobrazim" edib soyuq havalarda müəllimlər otağında, isti havalarda məktəbin bağında dilləri söz, ayaqları yer tutmayana qədər içirdilər. Məktəbdə təhsilin adı var, özü yox idi. İllərlə universitetə qəbul olan bircə məzunları olmazdı. Məktəblərini mənim təhsil aldığım məktəblə, müəllimlərimlə müqayisə etmək belə insafsızlıq olardı...

Bir sözlə, qohum evi olsa da, başqa rayondan gəlmişdim deyə oralara isinişə bilmirdim. Özümə çoxlu işlər icad edirdim. Nənəmin bir sözü var, deyir: "Elə ki, evə gəlin gəldi, yük yerini dəyişir".

Qayınanamın yükünü belədən belə, elədən elə daşıyırdım. Arvad evdə heç nəyi yerində tapmırdı. Axırda evdən yorulub zirzəmidə "öz səliqəmi" yaratmaq istəyəndə sakit təbiətli, yüz sözdən birinə reaksiya verməyən qayınatam mənə yerimi göstərdi: "Sən atanın-ananın canı çıx zirzəmidən, bura ilə işin olmasın!" Heç dinc durardım? Qayınatamın öz əlləri ilə düzəltdiyi çaxır balonlarına, samoqon məhsullarına toxunmadan oraları da abıra saldım. Amma ki, evin darvazasından çölə ancaq atam evinə gedəndə çıxırdım.

Uşaqlarım olandan sonra onlar evdə, həyətdə, bağ-baxçada bənd almadılar deyə gəzinti arealını genişləndirdik. Artıq oralara birtəhər də olsa öyrəşməyə başlamışdım. Qonşularla səmimi münasibətlər yaranmışdı. Tanıdıqca evdə qayınanamın, yoldaşımın danışdığının əksinə - çox mehriban və istiqanlı insanlar olduqlarını görürdüm. Çəpər qonşumuz babamın qohumu olan hündürboylu, yaraşıqlı, yaşlı bir qadın idi. Yaşına baxmayaraq çox çevik, enerjili olan həmin qadın kənddə ötkəm xarakteri, dava çanağı olmağı ilə məşhur idi. Qayınatam fəxrlə «bu kənddə qonşumdan həyasız qadın yoxdu, o belə mənim arvadımdan qorxur» deyərdi.

Qadının üç qızı, bir oğlu var idi. Qızlarının hər üçü gözəllikdə ay parçası idilər, di gəl ki, Allah gözəlliyi verib, insaflarından kəsmişdi. Oğlu dayım ilə qonşu kənddə bir sinifdə oxumuşdu. Fiziki qüsurunu gizlətmək üçün daim pencək geyinərdi. Deyəsən, skaliozdan əziyyət çəkirdi. Savadı kasad olsa da, pul gücünəmi deyim, tapşırıqlamı deyim, universitet bitirmişdi. Əmisi həmin universitetdə professor olduğundan, qiymət almaq üçün özünü yormurdu. Məktəbdə direktor müavini idi. Kənarda hamının müəllim deyə hörmətini saxladığı bu fağır, yumşaq adamın evdə anasının, bacılarının yanında sözü keçmirdi. Arvadı isə hüquqsuz kölə idi sanki. Evin gəlini başqa kənddən adlı-sanlı bir ailənin övladı olsa da, geri yanı olmayan yetim kimi əzazil qayınana əlində dustaq qalmışdı. Azərbaycan xalqının yazılmamış qanunlarına görə, ərə ağ gəlinlikdə getmiş qızın axı ər evindən ancaq ağ kəfənli cənazəsi çıxa bilərdi. Üstəlik heç bir təhsili olmayan üç uşaq anasının gedəcək yerimi var idi?!

Baldızlardan biri Bakıda yaşayırdı. Qızlardan ən gözəli də o idi. Düşdüyü mühitmi dəyişmişdi, ya özününmü taleyi gətirməmişdi deyə anlayışlı idi, bilmirəm, (yeddi il evli olmuş, övlad sahibi ola bilmədiyi üçün əri boşamışdı) gəlinə insani münasibəti də ancaq o göstərirdi. Ondan başqa hamı gəlini döyürdü. O evdə iki qonaq olsa, sonda gəlin, mütləq, döyülməli idi. 30-35 yaşlarında qarabuğdayı, arıq, orta boy, özünə qulluq etsə, hətta gözəl sayılacaq istiqanlı qadın idi. Dadlı yeməklər bişirərdi. Mütləq, bişirdiyindən bizə də pay gətirərdi. Aralığa çağırır, qaçaraq payını verib gedərdi. Aralıq dediyim onların bağı ilə bizim bağı ayıran metal tor çəpər idi. Bir-birimizin həyət-bacasını ovuc içi kimi görürdük. Bir saniyə boş dayanmazdı. Əvvəl fikir verməzdim, bir gün diqqətimi çəkdi ki, yataq otağının pəncərəsinə nərdivan söykəyir. Qaynanası hər görəndə nərdivanı bağın ayağına tolazlayır, gəlin geri gətirir. Növbəti döyülmə prosesində gördüm ki, gəlin qaçıb evə girdi, qaynana və iki baldız da arxasınca. Gəlin pəncərədən nərdivanla cəld endi, nərdivanı aşırıb qarğısının hündürlüyü iki metri

aşan süpürgə kollarının arasında gizləndi. Qayınana əvvəl söyüşlə gəlini hədələdi, sonra şirin dilini işə saldı. Bu səhnəyə ürəyim ağrısa da, nə edə bilərdim ki...

Uşaq ağladı, keçdim içəri. O axşam gecə yarıya - baldızlar öz evlərinə gedənə, qayınana yatana kimi yazıq gəlin süpürgə kollarının içində qotur tutdu. Səhər mən yuxudan oyananda «mama, qurvan olom» deyə-deyə qayınanasını qılıqlayırdı. Şok üstündən şok yaşadırdılar bir sözlə. Sanki dünənki söyüşləri eşidən, döyülməkdən qaçmaq üçün səhər üzünə kimi kolların içində gizlənən bu gəlin deyildi. Həmin gün mənə aydın oldu ki, hər kəs layiq olduğu həyatı yaşayır...

Bir haşiyə çıxım. Kəndin camaatı mal-qara saxlayır, dolanışığı təmin etmək üçün süpürgə əkirdi. Süpürgəni ötən əsrin ortalarında Kutaisi bazarına yolu düşən kənd kişilərindən biri görür (haqqında danışdığım gəlinin qayınatasının atası), əkib becərməyi öyrənir, evinə qayıdanda gizlicə cibində bir ovuc qırmızı toxum gətirir. Beləliklə, süpürgə əkmək kənd camaatının əsas gəlir mənbəyinə çevrilir. Toxumunu toyuq-cücəyə, şaxını mal-qaraya yem olaraq verirdilər. Süpürgəni isə bağlayıb, tikib, satılmaq üçün Gürcüstan, Türkiyə bazarlarına daşıyırdılar. Toxumunu kəndə gətirənin goruna söyə-söyə süpürgəyə ikrahla “qırmızı qızıl” deyirdi kənd camaatı. Əmələ gəlməsi çox uzun və ağır əmək tələb edir. Belə ki, aprel ayında torpağı traktorla şumlayıb toxum səpir, üstündən elə traktorla da tapanladırdılar. Dalınca sulayır, süpürgə cücərti verən kimi ilk alağını edirdilər. Hər dəfə suvarmazdan əvvəl süpürgə sahəsi alaq edilirdi. Ta qarğıya dönüb adam boyuna çatana kimi. Danışırdılar ki, kənddə bəzi adamlar süpürgə sahəsinin içində anaşa kolları əkib becərirlər. Süpürgə biçilənə qədər kolların arası kənd cavanlarının romantik görüş yerinə çevrilirdi. Kolların çiçəyi toxum tutur, əvvəl yaşıl, sonra tünd qırmızı rəngə boyanırdı. Toxumlar ağırlaşıb kolların başını əyəndə, təxminən avqust-sentyabr aylarında biçin başlayırdı. Biçin kişi işi sayılırdı. Çünki, oraq nə qədər iti olsa da, qarğını kəsmək güc tələb edirdi. Əri fiziki qüsurlu olduğuna görə süpürgəni qonşu gəlinlə qayınana ikilikdə biçirdilər. Bir də görürdün yenə qışqırıq qopdu. Gəlinin əldən iti olmamağını bəhanə edən qayınana gəlini elə kolların içindəcə döyür. Biçin başa çatandan sonra yarpaqlardan təmizləmə, qanaq arıtlama işlərinə başlanırdı. Od sürətli qayınanaya çata bilmədiyinə görə gəlin burda da payını alırdı. Deyilənə görə, babamla qohumluğunun xətrinə qayınana gəlininə mənim görə biləcəyimi düşünərək hələ yaxşı davranırmış. Oktyabr ayına, yağışlar başlayana qədər hamı bir-birinə süpürgə işlərində kömək edərdi. Həmin ili yağışlar tez başlamışdı. Yağışların başlayacağını öz qayınanama atamdan öyrəndiyim müşahidələr əsasında əvvəldən demişdim. O da öz növbəsində gedib qonşulara gəlininin “sinoptik”liyindən danışmışdı. Qonşular gəlib məndən yağışların haçan kəsiləcəyini soruşurdular. Süpürgə topasının üstünü basdırsalar da, məhsul nəmlənirdi. Qonşu gəlin isə yağışın altında öz işində idi. Həm ailədaxili şiddətə, həm də bitməz-tükənməz ağır işlərə onun zəif orqanizminin necə dözməyi məni heyrətə gətirirdi. Sən demə...

...Günün birində qayınanalarımız - mehriban düşmənlərin xısınlaşdıqlarını gördüm. Qayınanamdan soruşsam da, mənə heç nə demədi, çox fikirli idi. Axşamı gözlədim, çünki axşam süfrəsi ətrafında qayınanam adəti üzrə, eşidib-öyrəndiklərini qayınatamın ovcuna qoyurdu. Sən demə, qonşunun gəlini xəstələnib, aparıblar rayon xəstəxanasına. Orda xəstəni Bakıya, “Onkoloji mərkəz”ə aparmağı tövsiyə ediblər. Qayınana: «siz əməliyyat edin, heç nə olmaz deyib». Əməliyyat etdilər. Ginekoloji xəstəlik binəvanın daxilini tamam sarıb-sarmalayıbmış.

Uşaqlıq orqanlarını çıxartdılar əməliyyatla. Bir neçə gün sonra gəlin ağır əməliyyat keçirməyibmiş kimi eyni qayda ilə ağır işlər görür, adəti üzrə, təpik-yumruqla döyülürdü. Gəlin bir gün məni aralığa çağırdı:

– Qonşu, sən oxumuş adamsan, bilərsən, mənim uşaqlığımı çıxardıblar, ancaq yenə sallanır.

– Təcili həkimə get. Gördüm, səni döyürdülər. Tikişlər partlamış ola bilər zərbədən.

– Sənin yanında da lap xəcalətli oldum.

Bədbəxt öz halını düşünmür, mənim hər şeyin fərqində olmağıma görə xəcalət çəkirmiş... Bir həftə sonra gəlinin vəziyyəti ağırlaşdı, məcbur qalıb xəstəxanaya apardılar. Yeni əməliyyatdan çıxmış xəstənin döyüləndə aldığı zərbələrin təsirindən tikişləri partlamış, bağırsağı uşaqlıq yolundan çıxıbmış. Qarın boşluğuna infeksiya yayılıb, qanı zəhərlənibmiş. Ən dəhşətlisi isə, paralel olaraq qaraciyəri serroz imiş. Xəstəliyin biri öldürməsə də, o birisi öldürəcəkmiş bədbəxti.

Son günlərində yaxın kəndlərdən birində yaşayan valideynləri, axır ki, xəstə qızlarına baş çəkmək üçün təşrif buyurdular. Gəlin atasından onu öz kəndlərində dəfn etməyi yalvararaq xahiş etmişdi. Binəvanın dirisinə sahib çıxmayan atası vəsiyyətinə də «ayıb deyil, el bizə nə deyər» deyib, qızının son nəfəsində söylədiklərini heçə saydı...

Yazıq gəlinin ağ gəlinlikdə girdiyi evdən ağ kəfənli cənazəsi çıxdı. Cəhənnəmi dirigözlü yaşadığı evin bir neçə addımlığındakı kənd adamlarının “Sarı təpə” adlandırdığı qəbiristanlıqda dəfn olundu...

Sağlığında döyülərkən bircə kərə ana-bacılarının əlindən almadığı arvadının qəbrinin üstündə fağır kişi üç gün ocaq qaladı...

# PLAY LİST

***(hekayə)***

Qadın soyuq qış səhəri başıaçıq, ayağıyalın ləpədöyəndə dayanmışdı. Dəniz sakit olsa da xırda ləpələr hərdən sahilə hücüm çəkir, qadının yalın ayaqlarını isladır, ehmalca geri çəkilirdilər. Qadın üşümürdü. Yay gününün hərarəti var idi canında. Əlində tutduğu qurumuş çiçəyi qoxlayırdı. Asqırmağa başlayanda ayıldı. “Deyəsən, dəli oluram axı”...

Qəfil titrətmə tutdu. Corablarını, ayaqqabılarını geyindi, gödəkcəsinin papağını qaldırdı. Daha da bərk titrədiyini görüb düz sahildə, beş-on addımlıqda saxladığı maşınına mindi. Maşını işə saldı. Az sonra salonun istisi onu özünə gətirdi. Çoxdan bura gəlməyi xəyal edirdi. Bəlkə də bu günü ömrü boyu xəyal etmişdi. 50 yaşın astanasında ilk dəfə istəyini reallaşdırmışdı. Avtomobilin arxa oturacağında içi dolu çanta, kilim, mütəkkə, ayaq altında içi otlardan dəmlənmiş isti çay dolu termos, saxlama qutusunda atışdırmalıq yemək, meyvələr, butulkada su var idi. Telefonu söndürüb maşının yük yerinə atmışdı. Bir günlük “dəryaya yaxın, dünyadan uzaq” olmaq istəmişdi. Dinləmək üçün xüsusi play-list düzəltmişdi. Play-listdəki hər mahnının öz xatirəsi var idi. “Gedər bir gün, bu gözəllik, sənə də qalmaz”... Bu mahnını çox sevirdi. Gənclik günlərində ağsaqqal birindən eşitdiyi nəsihət dolu sözlər yadına düşürdü bu mahnını dinləyəndə. Ağsaqqal gözlərini qıyıb, uzaqlara baxaraq demişdi: Bir gün gələcək yaşlanacaqsan, gənclik elə bir qüsurdur ki, öz-özünə aradan çıxır... Gör nə deyirəm, elə yaşa ki, bu günləri xatırlayanda təəssüf etməyəsən.

Bir neçə müddət əvvəl gənclərə bu məsləhəti verməyə başlayanda barmağını dişləmişdi. Deməli artıq yaşlandığını qəbul etmişdi.

Mahnı dəyişmişdi. Eyyub Yaqubov yanğılı-yanğılı oxuyurdu: Qəlbimin ağrısını kim bilir? Həsrətin yanğısını kim bilir? Yamanca yorulmuşam mən”... Atası bu mahnını çox sevirdi. Dağ boyda kişini xəstəlik üzüb əldən salıb şam kimi əritmişdi. Həmin günlərdə bu mahnı TV kanallarda, radiolarda gün ərzində dəfələrlə təkrarlanırdı. Ağrılardan bezar olmuş, həkimlərin diaqnozunu şappadan üzünə dedikləri, daima polad kimi möhkəm görünən atası bu mahnını dinləyəndə kövrəlir, dərindən ah çəkir, nəsə bir şeyin dalınca göndərirdi yanındakıları. Bəlkə də, təklikdə göz yaşını silmək üçün uzaqlaşdırırdı ailə üzvlərini.

“Haydi söyle...” Uşaqlarının atasını xatırlayırdı bu şarkı ilə. İlk dəfə əl-ələ tutduqları gün yanlarından keçən bir avtomobildən bu mahnının sədaları gəlmişdi. “Bəlkə bu bizim mahnımız olsun?” demişdi... Bu mahnı hardan düşüb bu listə axı? Dərindən nəfəs alıb, ah çəkdi. Onu həyatından nə qədər silmək istəsən də silə bilməzsən ki...

Mahnını dəyişdi. Emin Sabitoğlunun valsı həzin-həzin səslənməyə başladı. Rəhmətlik əmisi ilə sonuncu videogörüntülü söhbətini təsadüfən telefonun ekran qeydinə almışdı. Sonra bu melodiyanı görüntülərin üstünə montaj etmişdi.

İki damla yaş gözünün kənarlarından qulaqlarına doğru süzüldü. Əmisi ilə son söhbətini xatırladı.

- Min maşına gəl kəndə.

- Baş üstə əmi. Oğlum gəlsin, birlikdə gələcəyik. Hara istəsən ora sürəcəm maşını. Gəzdirəcəm səni.

- Hə qadan alım...

On gün sonra oğlu ilə əmisinin üçgünlük məzarının ayaq ucunda ağlamağa belə taqəti olmadan peşman-peşman bu söhbəti xatırlayırdı.

Boğulmağa başladı. Boğazına doğru nəsə düyümləndi birdən. Dərin nəfəs almaq istədi. Sinəsindən öskürək qopdu. Ciyərləri ağzından çıxacaqmış kimi bərk öskürdü xeyli. Öskürəyin ardınca hönkürdü. Qışqıraraq, illərlə iiçində yığılmış üsyanını hayqıraraq ağladı, ağladı... Qəfil ağladığı kimi qəfil də sakitləşdi. Gödəkcəsini soyundu. Maşının arxa oturacağındakı şeyləri qabağa adladıb keçib arxa oturacaqda uzandı. Sonra birdən kondisionerin qazının öldürcü təsirini, dəfələrlə avtomobildə dəm qazından ölənlər barədə oxuduğu xəbərləri xatırladı. Əl atıb motoru söndürdü. Mütəkkəni başının altında rahatladı. Gödəkcəsini üstünə örtüb düşünməyə başladı. Əlindəki çiçəyi təkrar burnuna tutdu. Bu ətirlə, bu çiçəklə, bu ağacla ilk tanışlığını xatırladı.

Uzaq məktəb illərində birinci rübün tətilində əlaçı şagirdlərini kənddən Bakıya ekskursiyaya göndərəndə gözlədiyinin əksinə olaraq valideynləri ona da icazə vermişdilər. İlk dəfə müstəqil, ailə üzvləri yanında olmadan səfərə çıxmışdı. Bir həftə boyunca sevimli müəlliməsinin nəzarəti altında Bakının gəzməli, görməli yerlərini gəzmiş, soyuq noyabr günlərində dondurma yemiş, kinoteatrda filmlər izləmiş, rayonun başqa kəndlərindən, qonşu rayondan olan şagirdlərlə, Rusiyadan gəlmiş yaşıdları ilə dostlaşmışdı. Ekskursiyaya gələn rayonlu şagirdləri lal-kar uşaqlar üçün internat məktəbin yataqxanasına yerləşdirmişdilər. Qızlar bir müəllimələri ilə bir mərtəbədə, oğlanlar qrup rəhbəri olan rəqs müəllimi ilə digər mərtəbədə yerləşdirilmişdi. Yeməkxanada, istirahət otağında internatın sakinləri ilə birlikdə yemək yeyir, istirahət edirdilər. Bir neçə gündə işarələrlə danışmaq öyrənmişdilər. İnternatın oğlanları qızları öz şagird yoldaşları olan oğlanlardan da

qoruyurdular. Rəqs gecəsində qızları salondan qovmuşdular hətta. İçlərində qulaqları eşitməyən, amma danışa bilən bir oğlan var idi. Ermənistanda 1988-ci ildə baş verən zəlzələ onların kəndinə də güclü zərər veribmiş. Həmin an evdə olan oğlan uçqun altında qalıbmış. Sağ-salamat uçqun altından çıxarılsa da qulaqları bir də heç vaxt eşitməyəcəkmiş... Valideyinləri çıxış yolu kimi təhsilini davam etdirməsi üçün Bakıya, bu internat məktəbə göndərmiş, sonra özləri də Ermənistandan qaçqın düşərək Bakıda məskunlaşmışdılar. Oğlan qızlara məktəb yoldaşlarından inciməməyi tövsiyə edirdi. Lal-kar uşaqların dünyasında yalan, riya yoxdur. Onlar qızları qorumaq üçün rəqs gecəsindən qovurlarmış... İllərin bu ucundan baxanda o saflığa, o dürüstlüyə dünyanın necə ehtiyacı olduğunu düşünürdü...

Ekskursiyanın bir günü şagirdləri o vaxtkı 26-lar bağına aparmışdılar. Parka girən kimi incə, yumşaq, fərqli bir rayihə diqqətini cəlb eləmişdi. Müəllim Bakıda Sovet hakimiyyətinin qurulmasında 26 Bakı komissarlarının rolundan, Ağcaqum səhrasında qətlə yetirilməklərindən, Bakıda dəfn edilməklərindən danışır, onunsa fikri ətirin hardan gəlməsində idi. Yanındakı qızlardan birindən «görəsən bu nə qoxudur belə» soruşduğunu müəllim deyəsən eşitdi. Sözünü bitirib əlini uşaqların arxasında ağaca uzatdı.

- Uşaqlar, baxın, bu ağacı görürsünüz? Adı yapon əzgilidir. Buralı deyil. Gətirilmə ağacdır. Amma Bakının havasında özünü yaxşı hiss edir. Bizim meyvə ağacları kimi yazda deyil, noyabr-dekabr aylarında çiçək açır, mayda-iyunda meyvəsi yetişir. Yaxınlaşın, iyləyin. Amma çalışın sındırmayın. Çox gözəl, fərqli ətri var deyib müəllim onun üzünə baxıb gülümsündü.

... Bir tədbirdən sonra dostlarından biri ilə dayanacaqda avtobus gözləyirdilər. Tıxac, siqnal səsləri, donquldanan adamlar... Ətrafda baş verənləri eşitmirmiş kimi söhbət edirdilər. Birdən qadın susdu. Kişi:

- Nə oldu sizə?

- Bu qoxu... Muşmula çiçəkləri...

- Hardadır?

- Dayanacağın arxasında.

Kişi heç nə demədən cəld tərpəndi. Boğazına yun şərf dolamış qızın qoluna dəyib ildırım sürəti ilə onu ötdü, ağaca çatdı. Şərfli qız kişinin arxasınca baxdı. Kişi budağı əyib muşmula çiçəyini qopardı. Bir neçə saniyə sonra qadın çiçəyin rayihəsini ciyərlərinə çəkirdi. Söhbətlərinə qaldıqları yerdən davam edirdilər. Söhbəti bu dəfə qadının asqırmağı pozdu.

- İndi nə oldu axı? – kişi soruşdu.

- Allergiya...

- Atın o çiçəkləri!

- Bu gözəlliyi necə atım?

Həmin gün muşmula çiçəyinin ətri onu yeniyetməliyinə qaytarmışdı... Xəyallar içində gözünə yuxu getdi.

Tıqqıltıya gözünü açanda bir anlıq harda olduğunu unutdu. Yuxulu-yuxulu gözünü bir neçə dəfə qapayıb açandan sonra maşının pəncərəsinin döyüldüyünün fərqinə vardı. Pəncərəni döyən adamın qorxulu biri olmadığını yəqin edəndən sonra şüşəni endirdi.

- Xanım, təksiniz? Burda nə edirsiniz?

- Dincəlirəm.

- Gün günortadan keçib, getməyiniz məsləhətdir. Hə, balıq var, istəmirsiniz?

- Çay içirsiniz?

- Varınızdı?

- Nərdim də var. Bəlkə, çay içə-içə nərd də ataq?

Tanımadığı yad adamla quma sərdiyi kilimin üstündə oturub yemək yeyib, çay içə içə nərd oynayırdılar.

Kişi dil boğaza qoymadan danışırdı. Deyəsən, ilin-günün bu vaxtı, balıq tutmağa gəldiyi bomboş sahildə isti çaya qonaq edən qadının varlığı ona təsir etmişdi.

- Özüm istefada olan polis kapitanıyam. Ətrafa nəzarət etmək məndə peşə xəstəliyidir. Sizi gələndə gördüm. Ayaqyalın suya girdiyinizi də gördüm. Sonra maşına mindiyinizi, amma xeyli vaxt keçsə də bir hərəkətlilik olmadığını görəndə birdən peçi işlədər, dəm qazından boğularsınız deyə narahat oldum. Ona görə döydüm pəncərəni.

- Həmişə istəmişəm ki, dəniz sahilinə gəlim qış vaxtı. Ayağımı soyunub buz kimi suya girim. Sonra maşında oturub çay içə-içə musiqiyə qulaq asım. Bu gün axır ki, arzumu reallaşdırdım.

- Yəni yer üzündə belə düşünən qadınlar da varmış? Bizim xanıma haqqınızda danışsam deyər ki, kişinin qızdırması var.

- Buyurun! Mars! – qadın şaqqıltı ilə nərdtaxtanı qapatdı. - Daha hava qaralır. Mən gedim. Sizinlə tanışlığa şad oldum cənab kapitan. Xanıma salam deyin məndən.

- Nə vaxt gəlsəniz mən burdayam. Təqaüdə çıxandan sonra tək əyləncəm burda oturub balıq tutmaqdır. Bu arada, balıqlar sizə hədiyyədir.

Əl sıxıb, neçə ilin tanışı kimi sağollaşdılar.

Qadın telefonu açanda gün boyu heç kimsədən bircə zəng, bircə ismarıcın belə gəlmədiyini görüb rahatlıqla dərindən nəfəs aldı...



# TURAL COŞQUN

***

Gözümün önündə qocaldın, anam,
Bizə qurban verdin öz dincliyini.
İstərəm, illərə sipər dayanam,
Qaytarım geriyə o gəncliyini.

Ağaran saçların mənim taleyim,
Dizlərin yastığım, balışım olub.
Sənsən axirətdə cənnət mələyim,
Etdiyin dualar yoldaşım olub.

Dünyaya qıyaram, sənə qıymaram,
Ömrümü xərclərəm yolunda, anam.
Oxşa saçlarımı, yenə doymaram.
Başım dizin üstə ola, qurbanam.

Axmasın göz yaşın, bağrım dəlinir,
Bizi düşündükcə xərcləndi ömrün.
O nurlu çöhrəndə kədər gizlənir,
Nə olar, anacan, sevincə bürün.

Qocalıq - uca bir zirvədir, anam,
Nurun yolumuzda ay işığıdır.
Turalam, mən sənə sadiq oğlunam,
Varlığın evimin yaraşığıdır.

***

Gəl keç küçəmizdən bir səhər çağı,
Baxıb seyr eyləyim lal gedişini.
Çəkib ürəyimə bir həsrət dağı,
Udum zəhər olan bal gedişini.

Səbirlə addımla sən yavaş-yavaş,
Nə torpaq incisin, nə də ki bir daş.
Deyirəm: Nə ola, bir səhər də kaş,
Dərdli sinəm üstə sal gedişini.

Həsrətin qəlbimi yandırdı yaxdı,
Gözlərim hər zaman yollara baxdı.
Gəlmədin, gözümdən qanlı yaş axdı,
Qayıt heç olmazsa al gedişini...

***

Səndən sonra dəyişdi
Bütün dünya gözümdə.
Boğazımda ilişdi
Söhbətim də, sözüm də.

Səndən sonra unutdum
Mən ürəkdən gülməyi.
Səndən sonra bir daha
Bacarmadım sevməyi.

Səndən sonra tanıdım
Bu vəfasız dünyanı.
Səndən sonra boş qaldı
Ürəyimin sol yanı...

***

Dolaşıq yollarda azıb qalmışam,
Sən məni özümə gətir, İlahi.
Qurumuş yaramı yağış isladır,
Tez mənə bir çətir yetir, İlahi.

Qoyma dərdi-qəmim düşsün yadıma,
Nəsib olmayanı salma adıma.
Sənə yalvarıram: Sən çat dadıma,
Dərdimi, qəmimi itir, İlahi.

Ruhum uçur bəzən qərib ellərə,
Qorxuram dəlitək düşüm dillərə.
Qıyma qonum naşı xari güllərə,
Mənə öz gülümü bitir, İlahi...

***

Bizim tərəflərdə soyuqdur yenə,
Nə külək dayanır, nə yağış durur.
Səninçün o qədər nigaranam ki,
Dua eyləməkdən dilim quruyur.

Deyirəm: Görəsən, necədir indi,
O da mənim kimi məni düşünür?
Əzizim, sən mənə çox fikir vermə,
Mənim sənsizlikdən ruhum üşüyür.

Sənsizlik üşüdür məni istidə,
Sənsiz istidə də tir-tir əsirəm.
Ruhumu isitmir daha isti də,
Səndən ümidimi artıq kəsirəm...

***

Daha axtarma məni,
Mən həmin mən deyiləm.
Çoxdan unutdum səni,
Artıq sən də deyiləm.

Gözlərin axtarmasın,
İnsanlar içrə məni.
Tapsan da tanımarsan,
Çün o insan deyiləm.

Gəzdiyimiz yerləri,
Boşu-boşuna gəzmə.
Hər an məni düşünüb,
Özünü çox da üzmə.

Uyub qəlbin sözünə,
Zülm eyləmə özünə.
Düşüb çölün düzünə,
Daha axtarma məni.

Dayanıb yol üstündə,
Soruşma hər ötəndən.
O sevgimiz bitəndən.
Daha axtarma məni...

***

Dəli bir ağlamaq keçsə könlündən,
Qaç gəl sən yanıma dərdlər əlindən.
Həyat səni sıxsa, naşükür olma,
Yoxsa dərd çəkərsən sən də dilindən.

Həyat zərbələrin vecinə alma,
Səssizcə ömrünü keçir üstündən;
Yox əgər dərdlərin bezsən selindən,
Dayan bax o zaman öz sahilindən.

Ömrün fırtınası, tufanı olur,
İnsan bir gül kimi saralır, solur.
Sevincli günləri keçir qəlbindən,
Çalış, əziz dostum, qaç kədərindən.

Yenə bir tənhalıq keçsə bətnindən,
Mən alaram səni onun əlindən.
Nə vaxtsa ağlamaq keçsə könlündən,
Şeiri oxuyarsan, dostum, dərindən...

***

O gözləri mən hardasa görmüşəm,
Qara deyil, dəniz təki mavidir.
O gözlərdə boğulasan, öləsən,
Bu qız mənə tanış gəlir, deyəsən.

Sarı saçlar gərdanına tökülmüş,
Qara xallar yanağına düzülmüş.
Ağlayır, gözündə yaş giləlnmiş,
O yaşlarda o qız ilə çiməsən.
Bu qız mənə tanış gəlir, deyəsən.

Dayanmır yanımda, keçir uzaqdan,
Boylanıram, baxmır mənə bayaqdan.
Dinsəydi, bir söz çıxsaydı dodaqdan,
Sevir yoxsa sevmir? Onu biləsən;
Bu qız mənə tanış gəlir, deyəsən...

***

Allahım, nə olar bircə ricam var:
Bu yağan yağışı saxla, İlahi.
Sənə bu günlərdə bircə duam var:
Bu yağan yağışı saxla, İlahi.

Bu istək tək mənim istəyim deyil,
Bu yağış heç kimə gətirmir xeyir;
Qoca da, cavan da tək bunu deyir:
Bu yağan yağışı saxla, İlahi.

Ürəyim sıxılır, üzüm gülməyir,
Əsgərim nə çəkir, kimsə bilməyir;
Yağan bu yağışı heç kim sevməyir,
Saxla bu yağışı saxla, İlahi.

İslanır cəbhədə yağışda əsgər,
Biz isti evdəyik, bağışla, əsgər;
Bu anda yağışı de bir kim sevər,
Saxla bu yağışı, saxla, İlahi.

İşinə qarışmaq çıxır, bəlkə də,
Bəlkə, bu istəklə günah edirəm;
Əl açıb mən səndən dua edirəm:
Bu yağan yağışı saxla, İlahi..



**RASİM RAMAZANOĞLU**

# DÜNYAMIZ

Bu həyatların hər biri pul qarşılığında xərclənirdi. Dünya tamam dəyişmişdi. 2026-cı il elə də asan keçmirdi. Dünya bu ilə qədər viruslarla, savaşlarla və yalanlarla boğuşurdu. Amma bir məsələ hələ də düşünməyi itirməyən insanları narahat edirdi ki, kimdir dünyanı bu hala gətirən? Yaradıcı, yoxsa Yaradıcının olmadığını isbata çalışan bir qrup canlılar. Canlılar deyirəm ona görə ki, artıq insan irqinin digər varlıqlar tərəfindən qullaşmasına inanmağa başlayırdı bu düşünməyi itirməyən insanlar. Dünyamız bizim deyildi. Bu artıq həqiqət olaraq yalana çevrilirdi. İnsanların standartlaşdırılmış həyatları zamandan tez bitirdi. Xal sisteminə keçid dünya sakinləri üçün heç də asan olmamışdı. Bu keçid üçün təxminən iki milyarda yaxın insan həyatını itirmişdi. İnanc məsələsinə gəldik də isə tək bu problem olaraq qalmışdı. Amma bütöv bir insan həyatı saatbasaat izlənilən sistemdə hələ ki, bu problemin önəmi o qədər də vacib deyildi. Ortalama insan ömrü isə 50-55-lərə kimi enmişdi. Yarı robot varlıqlar isə artıq dünyanın bəzi yerlərində insana inteqrasiya olunmuşdu. Hətta bəzi iş yerlərində isə insan əvəzinə bu varlıqlar işləyirdi. Deyəsən, irqlər üstünlük zamanına yetişəndə özlərinin sonunu gətirməyi xoşlayır. Artıq kağız kitablardan əldə etdiyimiz məlumatların da yalan olduğu məlum olurdu. Qurtuluş nə idi? Azlıq həmişə olmasa da, çox vaxt çoxluğa məğlub olur. Bu insan irqinə verilən yeni dünya nəsli tükənmiş heyvanın son nümayəndəsiylə eyniləşirdi. Quruluş baxımından insan işlək olanda yararlı olar. Amma passiv qalan insan isə özünə zərər verər. Və belə bir düşüncə yaranırdı ki, yüksək olmayan mədəniyyətlər yüksək texnalogiyaya sahib olanda özlərini itirirlər... Yəni belə deyək ki, bir növ köklərində Yaradıcılıq hissi baş qaldırır. Bu hal isə hakimlik, nəzarət və sahibliyə aparır.Bu aparış da bir irqin sonunu gətirir. Məsələn, düşünək ki, sən fərd olaraq ölümsüzsən. Və təbii ki özünü digərlərindən üstün görəcəksən. Daha sonra özünə haqqlar verəcəksən. Sonrasında özünü Yaradıcıya bərabər tutacaqsan. Amma bu ölümsüzlüyün sənə necə verilməsini heç zaman özünə sual etməyəcəksən. Bu hallarla indiki standartlaşmış halımızı aldıq. Dünya sakinləri olaraq, dünyaya

dəyər verməyi hündür binalarda gördük.

Məsələn, süni Günəşlər, Aylar və buludlar layihələri hələ uğursuz olsa da, davam etməkdədir. Biz dünyanı bu yollarla qoruyurduq. Ya da elə sanırıq. Bu illərə qədər hələ bir çox pul sistemi də yoxlamışıq. Hazırda, demək olar ki, kağız pullar kart sistemli pullara uduzur. Görünür ki, doğurdan da kağız pullar azadlığın təməllərindən imiş. Bu ilə qədər insan irqinin məğlub olduğu böyük bir savaş da yaşanmışdı. Bu savaşın isə su qıtlığı üstündə baş verdiyini xatırlayırıq. Dünyanın bəzi ərazilərində bu problem su savaşının başlamasına səbəb oldu. Və irq olaraq bir daha məğlub olduq. Böyük köçlərin də şahidi olmuşuq. Və deyəsən köçlərimiz bundan sonrakı illərdə də davam edəcəkdir. Elektronlaşmış sistemdə işıqların söndürülməsi ciddi narahat edirdi bu düşünməyi itirməyən insanları. Düzdür lap əvəllər böyük dövlətlər işıq söndürülməsini balaca dövlətlərə qarşı istifadə edirdi.

Hərçənd, indi böyük dövlətlər də kiçilir. Bizim indiki zaman şirkətlərin dövlətlər səviyyəsinə çatmış olmasıdır. Bu qırıq olan fikirlərin hamısı öz irqlərinin yox olunuşunu heç nə etmədən düşünən insanların fikirləri idi. Və bir onu düşünürdülər ki, dünyanın sonu anlayışı səhvdir. Periodik olaraq irqlərin sonu olar. Dünyanın yox... Bəlkə, bu özü səhv düşüncədir. Amma hələ ki, bu düşünən insanlarda qalıb. Və düşünən insanlar da qalmaqdadır. Daha nələr qalmışdı? Sadəcə bütün insanlara vəd edilən qiyamət qalmışdı. Bu halı isə hər iki tərəf gözləyirdi. Xəstənin dərmanı gözləməsi kimi bir şey idi bu. Amma hələ də insan irqinə dünyanın görünməyən hissələrini göstərməmişdilər.

Yaddaşı silinən insanların tarixi hadisə nümunələri çox görülmüşdür. Buna Nuh tufanından əvvəlki həyatı, İsgəndəriyyə kitabxanasının yandırılması , İsanın həyatı və bir çox başqa nümunələr var. İnsan sadəcə izləyici olaraq qaldığı tarixində idarə olunmağa məhkum edilmişdi. Kənarda qalan bu bir qrup insan da əslində başqa bir şey etmirdi. Sadəcə şahidlik edir, qeydlər tutur və susurdular. Onların özlərinə tək təsəllisi isə gördüklərini olduğu kimi qeyd edib yazmaqları idi. Həyat ağacı kimi yandırılmış irqlərin, bu ağacdan kömək gözləməsi də gülünclük doğururdu. Deyəsən, sistem əvvəldən belədir. Bir qisim hər şey agah olur, bir qisim isə uydurma nağılları yayaraq inanır və ən son qisim isə bunları analiz etmədən yaşantının bitməsini gözləyir. Bunu uzatmaq? Maraqlı hal odur ki, bu düşünməyi tam itirməyən insanlar isə çarəsizliyə məğlub olurdu. Çünki nə kitablar, nə izahlar geridə qalan insanlara kar eləmirdi. Sistem isə artıq yalanı doğru kimi əks etdirməyə davam edirdi.



## RƏŞAD BALAKƏNLİ

**MƏNİM VƏTƏNİM**

Özünə bəzəkdir öz gözəlliyi,
Çəmən yaraşığı, düz gözəlliyi;
Geridə qoyubdur yüz gözəlliyi,
Əzəldən cənnətdir mənim Vətənim!

Təbrizdən boylanıb Dərbəndə bax bir,
Kürdə haray çəkib Arazda ax bir;
Oyat tariximi, sinənə sıx bir,
Gör necə qüdrətdir mənim Vətənim!

Naxçıvan-Borçalı bir qoşa qanad,
Könlümdə təpərdir, ruhumda inad;
Türkəm, türklüyümdə tapmışam həyat,
Bir şirin nemətdir mənim Vətənim!

Gözəl Qarabağda muğamı dinlə,
Tara qulaq kəsil, kamanı dinlə;
Bayatı haraylı məqamı dinlə,
İlahi sərvətdir mənim Vətənim!

Səslə şəhidləri, ruhları gülsün,
Qazilər yığışıb yanına gəlsin;
Qoy dünya təzədən tanısın, bilsin,
Bir dərin heyrətdir mənim Vətənim!

Yanır taleyimdə haqqın çırağı,
Dinir varlığımda Zəfər sorağı;
Qanla suvarmışam ana torpağı,
Şərəfdir, şöhrətdir mənim Vətənim!

**ƏHSƏN, DÜNYA**

Ömür verib yaş qazandıq,
Ruhu verib "kaş" qazandıq -
Cismi verib daş qazandıq,
Dərk etmirəm nəsən, dünya.

Ömür yolu eniş, yoxuş,
Görmədim bir zərrə naxış –
Əyri yola çoxdu axış,
Nahaq yana əsən dünya.

İstisi pis, soyoğu pis,
İnsanlar var içi iblis -
Satılırsa rüşvətə hiss,
Məsləyinə əhsən, dünya.

Kimisi var-dövlət yığır,
Kimi güclə çörək tapır -
Düzələcək əvvəl-axır
Ədalətdən küsən dünya.

Şərt deyil ki, neçə yaşa
Şərt odur ki, necə yaşa -
Ömrü vermə heçə, yaşa,
Var ömürdən kəsən dünya.

Allahadır ən doğru yol,
Yalandı sağ, yalandı sol -
Düzgün əməl sahibi ol,
Sıxar haram yesən dünya.

Gir sandığa, bürün şala,
Görmədim vaxt çatıb qala -
Baxmaz pula, baxmaz hala
Pulum çoxdu desən dünya.

Rəşad, nədi coşdun yenə?
Sözlə aşıb-daşdı sinə -
Adi, fani gələr sənə
Puçluğunu bilsən dünya...

## XƏYALINLA MƏN

Yenə xəyalınla görüşə gəldim,
Cismindən xəyalın vəfalı imiş.
Baş qoyub dizinə, xeyli dincəldim,
O süzgün baxışın şəfalı imiş.

Sənə bir sualım olacaq mənim
Soruşma, sualın qəliz deyil ki?
Gözlərin çox valeh eyləyir məni,
Hərəsi bir umman, dəniz deyil ki?

Baş-başa qaldıqca xəyalınla mən
Dağıldı könlümün dərdi, kədəri.
Xəyalındı hər dəm görüşə gələn
Cisminin, bəlkə də, yoxdu xəbəri.

Sənli xatirələr yaşadır məni,
Xəyalın bir başqa, özün bir başqa.
Arayıb axtarsam, tapsam da səni,
Addımın bir başqa, sözün bir başqa.

Görüş yerimizdir dəniz kənarı,
Orda görüşürəm xəyalınla mən.
Canlanır gözümdə qəlb arzuları,
Saçların küləkdən dağılan, əsən...

Dəniz kənarına yazım adını,
Yuyan ləpələrə qısqanım səni.
Xəyalən çıxarıb eşqin dadını,
Əl-ələ gəzişək çölü, çəməni.

Dənizin küləyi üşüdər səni,
Gəl sarıl boynuma, eşqimə isin.
Bassa da həyacan, soyuq tər səni
Qalsın ürəyimdə silinməz izin.

Dolana bilmirəm daha azadə,
Məni məhbus edib eşqin qəfəsi.
Xəstəyəm, bir təbib çağırın dadə,
Dedilər: "Dərmanın canan nəfəsi..."

O qaşın, o gözün vurğunu oldum,
Əsdirir küləklər telini bir-bir.
Yanağına bir xal əvəzi qondum,
Xəyalın eylədi Rəşadı şair...

## ÇIXAR GEDƏR

İnsan oğlu, çox da vara inanma,
Rüzgar əsər, əldən var çıxar gedər.
Ensə dağ başından çökək dərəyə,
Ağac da saxlamaz bar, çıxar gedər.

Məsəl var: "Üstündür qardaşdan qarın",
Yeyib-içməkdəsən, var dövlət-varın;
Yığılır başına hər gün dostların,
Kasıblasan edib ar çıxar gedər.

Bəyənsən, çox gözəl pəri alarsan,
Pulun var, çox şeyə nail olarsan;
Kasıblasan, bil ki, tənha qalarsan,
Atar səni həmən yar, çıxar gedər...

## ÖZÜMÜ QAYTAR GERİ

Səni ilk gördüyümdən, özümdə deyiləm mən,
Nə gülşəndə rahatam, nə də xoş gəlir çəmən,
Hara baxsam gözümün önündə görünürsən -
O əvvəlki baxışı, gözümü qaytar geri,
Məni məndən alan qız, özümü qaytar geri...

Eşqinə düşən gündən cəmləyib diqqətimi,
Toparlaya bilmirəm özümdə taqətimi,
Ya sev, ya geri qaytar ülvi məhəbbətimim -
O alovlu eşqimi, közümü qaytar geri,
Məni məndən alan qız, özümü qaytar geri...

Özüm də məəttələm düşdüyüm bu günümə,
Səndən əvvəl dözərdim, min əzaba, zülmə,
İndi dözə bilmirəm sənin sənsizliyinə -
Canımdakı əvvəlki dözümü qaytar geri,
Məni məndən alan qız, özümü qaytar geri...

Məni sənə aparır addımım da, yolum da,
Ürəyim çoxdan sənin, gəzmə, yoxdu solumda,
Eşq dolu həyəcandan güc qalmayıb qolumda -
Dilimdə söz büdrəyir, sözümü qaytar geri,
Məni məndən alan qız, özümü qaytar geri...

Mən özümdə deyiləm, özlüyümdən qopmuşam,
Sənin xoş xəyalınla xatirənə hopmuşam,
Vüsalına can atıb xəyalını tapmışam -
Müəmmaya cavab ver, çözümü qaytar geri,
Məni məndən alan qız, özümü qaytar geri...



**XALİQ AZADİ**

# AİDA

(hekayə)

I

May ayı gələndə kəndə sanki vəlvələ düşürdü: yaylaqlara köçmək vaxtı yetib. Kolxozun sahələri qoruq elan olunurdu. Bu o demək idi ki, filan gündən, filan tarixdən şəxsi həyətlərə məxsus mal-qara, qoyun-quzu nəzarət altında olmalıdırlar. Əgər, kiminsə inəyi, danası kolxozun qoruq elan olunan sahəsinə girsə üç manat, qoyun-quzu bir manat cərimə olunurdu.

Hər bölgənin öz briqadiri düşürdü yollara, hamını xəbərdarlıq edirdi:

– Filan gündən dağa köç başlayır. Hazır olun!

Hamı mal-qarasını yaylağa çıxarmalıydı. Əsasən, nənələr-babalar köçərdilər. Kimin nənə-babası yoxuydusa, gərək mal-qarasını qoşaydılar kimlərəsə. Adətən, çətinlik çəkən olmurdu. Bərk axtarış edən olsaydı, kənd-kəsək hamısı kökdən bir-birinə qohum çıxacaqdı. Ona görə də, mal-qarası kənddə sahibsiz qalan olmurdu.

Bizdə isə lap asan idi. Gözümü açandan rəhmətlik babam ferma müdiri olub. Rəhmətlik nənəm də yanında, ömür-günü yaylaqlarda, ya da qış otlaqları sayılan örüşlərdə keçib. Qış otlaqları bizim kolxoz üçün Kür çayının sağ sahillərində Ceyrançöl deyilən ərazidə ayrılmışdı. Babamın hər mövsümün sonunda evdə olduğu vaxtlar mənə nağıl kimi danışdığı əhvalatlarda tez-tez Girzan, Qışlaq kimi adlar eşidərdim.

Ona görə də, dediyim kimi, bizdə mal-qaramızın yaylağa aparılması heç bir sual doğurmurdu. Kolxozun fermasına müdirlik edən babam hayımıza çatardı. Kolxozun köçü yaylaqlara gedəndə bizim heyvanları da qoşub aparardı. Heyvanlar dəstələnərdi, kolxoz köç aparmağa bir-iki yük maşını ayırardı. Nənə-babalar yaylaq dəm-dəsgahlarını yükləyərdilər kolxozun maşınlarına, düşərdilər yola.

May ayından payızın ortalarınadək Keçəl Dağının yamacları binələrin çadırları ilə bəzənərdi. Dərslər qurtarantək mən də olardım yaylaqlı.

Əsas yaylaq yerimiz indi sahibsiz qalan Əvəlikli və Mahmudlu yaylağının yuxarı döşü, düz ermənilərin sərhədi idi. Vəzifəm nənəmin ocaqda köz altında bişirdiyi kömbəni qaymaqla-yağla yeyib gəzmək, həm də buzovlara nəzarət etmək idi. Düz zirvədə, erməni sərhədinə yüz-iki yüz metr qalmış Soyuqdərə deyilən yer vardı. Gün qızanda qaçardım ora qar yeməyə. Avqust ayında da qar olardı orada. Üstünün tozunu silərdim, ovuclayıb ləzzətlə təbii dondurmanı yeyərdim. Orada hərdən erməniyə rast gəlmək olardı. Hərdən soruşardılar: «hansı köçdənsən?» Heç vaxt onlardan qorxmazdım, diri cavab verərdim. Palıdlı, İsə bulağı, Soyuqdərə, Köç yeri, Mahmudlu, Bərə – uşaqlıq dünyamın, nənəli-babalı xoşbəxtliyin şirin xatirəsi, ermənilərə qalmış xatirəsi...

II

Qonşu kəndin köçü üzbəüz dağın əks döşündə yerləşirdi. İri malları həmişə nəzarət altında otarırdılar. Amma buzovlarımız çox vaxt özbaşına buraxılmış olduqları üçün, bəzən, dağın döşünü aşıb keçərdilər qonşu kəndlərin binələrinin örüşlərinə.

Günlərin birində itmiş buzovu gəzəndə həmin dağın yamacında Qayalıq deyilən bir yerdə çiyələk

yığan bir qıza rast gəldim. İlk baxışdan mənimlə yaşıd görünürdü.Bir-iki həftə dostluğumuzdan sonra bildim ki, məndən bir yaş kiçikdir.

– Olar, mən də yığım çiyələk? – dedim.

– Mənim deyil ki, bu dağ! – cavabını verdi: "Ürəyin nə qədər istəyir, yığ". Soruşdum, Aidə idi adı. Çiyinləri bərabərində kəsilmiş gözəl sarışın saçları vardı. Gözəl üzü sanki, ay parçası idi. Özümü saxlaya bilməyib:

– Sən necə gözəlsən, Aidə! – dedim.

– Bilirəm, hamı deyir mənə bu sözləri! – nazla cavab verdi. Yığdığımız çiyələyi bir yerdə yedik. Xeyli oturduq, ayrılanda sabah görüşməyi şərtləşdik. «Bizim çadır odur ey, filanıncı. Bax bu qayanın yuxarısından məni səslə, nə vaxt gəlsən. Gələcəm».

Səhərisi gün Qayalığa gələndə gözümə görünən çiçəklərdən bir dəstə topladım. Haradan bilirdim ki, vurulduğun qıza gül bağışlamaq lazımdır, bilmirəm. Yəqin, oxuduğum kitabçalardan... Aidə gül dəstəsinə sevindi, alıb iyləyərək:

– Atam anama hərdən gül bağışlayır, anam çox sevinir belə olanda, - dedi.

O gündən yaylaq həyatım şirin duyğulu, şirin-şəkər arzulu bir dövrə çevrildi. Əgər nənəmin - babamın qadağası olmasaydı, gecələri də oturardım Aidə ilə Qayalıqda. Aidə özü də etiraz etməzdi, belə imkanımız olsaydı. Amma Aidənin də nənəsi vardı, gecikəndə Aidədən sorğu edirdi.

Artıq, onların şəhərdə yaşadıqlarını bilirdim. Atasının böyük vəzifədə işlədiyini dedi. «Hər gün papamı işə maşınla aparıb gətirirlər!» - dedi Aidə qürurla.

Aidə ilə tanışlığımın ikinci həftəsində nənəmdən: «Nənə, uşaq üçün elçi getmək olarmı?» – soruşdum. «Bıy, sənə qurban olum! Evlənməkmi istəyirsən?» - öpdü nənəm məni. «Yox, nişanlanardım ki, heç kim məndən almasın Aidəni!» «Əgər, sən Aidənin xoşuna gəlirsənsə, narahat olma. Heç kim sizi ayıra bilməz!» - dedi nənəm.

Nənəmin sözlərini Aidəyə çatdırdım. Həmin gün ilk dəfə dilimizə söz gəldi: "səni sevirəm!" ifadəsi. Mənasını başa düşürdükmü bu ifadənin, sevməyin – oğlan-qız sevgisinin nə olduğunu anlaya bilirdikmi o günləri? Əlbəttə, yox, uşaqlıq ağılı, düşüncəsi.

Nənələrimiz ləzzətli nə hazırlasaydılar, hökmən bir-birimizə pay gətirərdik. Bir dəfə isə Aidəylə görüşə xüsusi hədiyyə ilə getmək istədim. Soyuqdərəyə qalxdım. Çoxdan idi buraya qalxmırdım, Aidə ilə tanış olandan. Papağımı soyuq və təmiz qarla doldurdum. Aidəmə verəcəkdim təmiz qarı. Mən Qayalığa gəlib çıxanacan qar yoxa çıxdı, əridi. Qayanın başından səslədim Aidəni. İkicə dəfə «Aidə!» deyən tək çıxdı bayıra. On dəqiqəyə yanımdaydı. Gün əyilənəcən bir yerdə olduq.

– Tezdən oyana bilərsən?» - soruşdum.
– Sənə lazımsa, oyanaram! Nə olub?

– Sənə təmiz qar gətirəcəm. Günorta o dağdan bu dağa gələnəcən qar əriyir. Papağımı göstərdim.

– Səhərlər bir elə isti olmur.

– Yaxşı olardı gətirə bilsəydin! Xarlamış qar yeyərdik bir yerdə! dedi Aidə.

Səhərisi tezdən durub qalxdım zirvəyə. Soyuq qarı papağıma yığıb götürüldüm üzüaşağı. Elə o dəqiqə də ayağım dolaşdı, yıxıldım. Kəllə-mayallaq getsəm də, papağı elə sıxmışdım ki, qar yerə dağılmadı. Zirvədən ətəyə, ətəkdən başqa dağın zirvəsinə çıxanacan qar əridi! Aidəmlə görüşə hədiyyəsiz gəldim! Bərk dilxor olmuşdum. Aidə qəşəng əlləri ilə əllərimi tutaraq incə səslə:

– Alınmır, alınmasın. Canın sağ olsun! Bikef olma, biz ki bir yerdəyik.

Bir neçə gün belə keçdi. Artıq avqustun ortaları olardı. İki ay idi Aidə ilə tanışlığım. İlahi, necə də tez keçərmiş günlər! Hələ də Aidəyə qar çatdırmağı unuda bilmirdim. Axşamların birində dərdimi nənəmə söylədim.

«Canım canına qurban, ay balam!» - dedi nənəm. Səhər duranda nənəm mənə bir 4-5 litrlik bidon və bir dəsmal verdi. «Şahzadə balam, igid balam! Qabı doldur qarla. Bu dəsmali da yaxşıca bürü qaba, apar sevgilinə!»

Elə də etdim. Qarla dolu bidon əlimdə Qayalığa çatdım! Nə qədər sevinirdim! Qalxdım adət etdiyimiz qayanın başına: «Aidə! Aidə!» - səslədim sevinclə. Aidə çıxmadı bayıra. Handan-hana nənəsi çıxıb cavab verdi: «Yorma özünü, bala, sakitləş, və çıx get! Aidə getdi şəhərə, evlərinə! Atası apardı».

«Necə evlərinə, bəs mənə demədi!» «Get, bala, gələn il görüşərsiniz!»

Yastı daşın üstündə həmişəki yerimizdə oturdum, nə qədər - bilmirəm. Dünyamı itirmişdim! Məni boşluq əhatəsinə almışdı...

Qarı yeyə bilməzdim, Aidəm üçün gətirmişdim. Atmağa da əlim gəlmirdi. Həmişə yan-yana oturduğumuz yastı daşın arxasından qayanın altını eşdim. Çiçəklərdən yığıb döşəkcə düzəltdim. Qarı ehtiyatla boşaltdım çiçəklərin üstünə. Yenidən çiçək yığıb qarın üstünü bağladım. Daha sonra isə bir qaya parçasını sürüyüb saldım yuvanın ağzına. Niyə belə etdim, bilmirəm. Yəqin, ümid edirdim ki, qarı saxlayacam gələn iləcən. Ya da, sevgimin, uşaqlıq məhəbbətimin nişanəsini əbədiləşdirmək istəyirdim, bilmirəm.

Gələn il isə Aidəm yaylağa gəlmədi…



## SEVİL ƏLİMUXTARQIZI

### DÜNYAMIZ AYRI

Biz ayrı dünyada qalmışıq indi,
Sehirli yuxuya dalmışıq indi,
Yolu xəyallardan salmışıq indi -
Sən ayrı mən ayrı dünyamız ayrı.

Apardım nağıllı dünyama səni
Ətirli, çiçəkli röyama səni,
Apardım uzağa xülyama səni -
Sən ayrı mən ayrı dünyamız ayrı.

Qınamır bil daha ürəyim səni,
İstəmirəm daha diləyim səni,
Görmürəm özümə gərəyim səni -
Sən ayrı mən ayrı dünyamız ayrı.

Sarı simdə qalıb, çalınmır sazım,
Seviləm, yoruldum gəlmir avazım,
Hər gün səndən ayrı yazılır yazım -
Sən ayrı mən ayrı dünyamız ayrı...

### YOLUMU KƏSİB

Simurq lələyini tapa bilmədim,
Yandırıb mən sənə çata bilmədim;
Dərdini sevincə qata bilmədim,
Ayrılıq sədd çəkib yolumu kəsdi.

Bilmirəm nə idi mənimlə qəsdi,
Qarlı çovğun, boran yolumu kəsdi;
Ey divanə könlüm, gözləmə, bəsdi,
Ayrılıq sədd çəkib yolumu kəsdi.

Vermə günlərimi, vermə sən bada,
Qəlbi möhtac etmə düşmənə, yada;
Mən sadiq qaldıqca o böyük ada,
Ayrılıq sədd çəkib yolumu kəsdi.

Nə qədər daş qəlbli olmusan belə,
Sancıb ürəyimdən atmısan selə;
Mən sinə gərdikcə əsən hər yelə
Ayrılıq sədd çəkib yolumu kəsdi.

Son qoy bu həsrətə, hicrana bəsdi,
Sevil, könlündəki bu nə həvəsdi;
Vaxtsız gələn tufan başında əsdi,
Ayrılıq sədd çəkib yolumu kəsdi...

### KÖZLƏ OYNAMA

Yalan vədə verib sözlə oynama,
Qınında gizlənib gözlə oynama;
Olanlar geridə qaldı qayıtmaz,
Ocağı söndürüb közlə oynama...

Hər zaman acıdır bir sözün düzü,
Mərd kimi qalmayır namərdin izi;
Köç edib bu fani dünyadan yüzü,
Ocağı söndürüb közlə oynama...

Ala gözlərindən qalmaz bir nişan,
Qəlbini incidib eyləmə şan-şan;
Baxıb bu dünyaya olma pərişan,
Ocağı söndürüb közlə oynama...

Gizləmə ürəkdə olan dərd-qəmi,
Hər dərdin, inan ki, vardır məlhəmi;
Əgər vəfasızsa könül həmdəmi,
Ocağı söndürüb közlə oynama...

Görəndə sən məni yolda dayanma,
O gözəl günləri bir daha anma;
Bu qəlb sənin deyil, özünki sanma,
Ocağı söndürüb közlə oynama...



ADIGÖZƏL NURİYEV

# UĞUR GEDƏN YOLUN YOLÇUSU

Sözün bağrını yardığımız, ta sözün də sözümüzə baxmadığı bir zamanda ədəbiyyata gəlmək; bənzərsiz, aktual mövzularla böyük bir oxucu auditoriyası qazanmaq çox çətindir. İnsan öz yerini düzgün müəyyən etdikdə böyüyür, insan zəkasının, qüdrətinin sonsuzluğuna əmin olur. Arxayınlaşmamaq, axtarış, sadəlik, müdriklik, qeyrət, hünər – budur tam insan, bütöv insan olmaq. Butun bu xüsusiyyətləri cənub zonamızın dəyərli xanımı Səbahət xanım İsmayılovada gördüm...

Söz sahibi olanlar, sözdən qala quranlar ulu Tanrıya ən yaxın insanlardı. Bütün yaranmışlar uca Tanrı ruhunun bir parçasıdır. Ən böyük parçası isə söz-sənət sahibləridir. Həyatda elə insanlar var ki, bir neçə istedad sahibidir, lakin öz istedadlarını üzə çıxarmaqda tərəddüd edirlər. İllərlə istedadına inandığım, dost deyib güvəndiyim Səbahət xanım İsmayılovanın düşüncə və fikirləri məni daha çox valeh etdi...

Yaradıcılığında yeni fikirlər, az işlənən sözlər üstünlük təşkil edir. Şeirləri düşündürücüdür. Şairənin «Əllərin yetməyən bir mələyəm mən» kitabı onun haqqında çox söz deyir:

*Mən ayrı bir eşqin zirvəsindəyəm,*
*Əllərin yetməyən bir mələyəm mən.*
*Mənim təbiətim tamam başqadır,*
*Əzəldən həyatda bax, beləyəm mən.*

Səbahət xanım İsmayılova ixtisasca müəllimədir, cəmiyyətə inteqrasiya olunmuş bir vətəndaşdır, əməyinə verilmiş çoxlu titulları var.

Şairə, jurnalist, müəllimə olan Səbahət İsmayılova "Qızıl qələm», «Azərbaycan bayrağı» media mükafatçısıdır. «Nəsimi" poeziya diplomu, "Vətənpərvərlər cəmiyyəti"nin fəxri diplomu; 44 günlük II Vətən Müharibəsi dövründə yazdığı vətənpərvərlik şeirlərinə görə «İlham çeşməsi» qəzetinin fəxri diplomuna layiq görülmüşdür.

Bir çox antalogiyalarda çap olunub.

Azərbaycan Jurnalistlər Birliyinin üzvü və Turan Yazarlar Birliyinin üzvüdür.

Ailəlidir, iki övladı var.

Biz də Səbahət İsmayılovaya atdığı hər addımda uğurlar arzulayırıq...



**NƏRMİN YAŞAR**

# TƏNHA GÖYƏRÇİN

(hekayə)

Həyatda istər padşah, istər vəzir ol, yaşatdığını yaşamadan ölməz insan. Bütün dünya sənin olsun, fərq etməz, nə yaşatmışıqsa, onu da görəcəyik.

Cavan olduğumuzda səhvlər çox edirik. Buna baxmayaraq bilə-bilə eyni yoldan getdiyimiz də olur. Unuduruq ki, heç nə əbədi deyil, sənə verilən şans bir gün bitəcək. Yaşlı bir adamın gücdən düşüb bir çəliyə möhtac olması kimi.

Bəzən elə anlar olur ki, bir anlıq keçmişə səfər etmək istəyirsən, bu zaman acısı da, şirini də sənə xoş gələr.

* * *

Atam-anamın mənə göstərdikləri nəvaziş, məni hər zaman diqqət mərkəzində saxlamaları, anamın mənə sevgi ilə yağlı kökə bişirməyi, atamın yorğun-yorğun mənə nağıl deməyi, incə toxunuşla saçımı sığallamağı uşaqlığımın ən xoşbəxt anları idi. Çox heyif ki, Allah mənə kiçik xoşbəxtlikləri çox gördü - anam onkoloji xəstəlikdən dünyasını dəyişdi. Həsrət dolu həyatım bundan sonra başladı. "Əcəl gələndə xəbər etməz", - deyiblər. Anamı itirərəkən mən bu xalq deyimininin ölü şahidi oldum. Həmin gün anamla birlikdə mən də öldüm, ancaq onu torpağa tapşırdılar, məni isə atama...

* * *

Anamın vəfatından bir müddət sonra, atamla olan isti münasibət bir gün içində qəfildən əsən külək kimi qəlbimin bütün divarlarını soyutdu. Çünki atam anama sadiq qalmağı bacarmadı, başqa qadınla ikinci baharını yaşamağa başladı. Bilirsiniz, necə də çətindir ananın yerində başqa qadının olması...

Evimizin nə dadı-duzu qaldı, nə də ki, xeyir-bərəkəti.

Rahidəgil bizdən bir məhəllə qabaqda qalırdı. Evin sonbeşiyi idi. Rahidə də atam kimi ikinci dəfə ailə qururdu. Bildiyimə görə, beş il evli qalıb və daha sonra uşağı olmadığından ayrılıbmış. Problem də onda yox, keçmiş həyat yoldaşı Kamalda olub. Atamla da özləri birlikdə belə bir addım atmağa qərar veriblər.

